# Düşünən İnsan

№ 2 - Oktyabr 2011 - 2 AZN



## Misir Piramidalarının İndiyə Qədər Bilinməyən Sirləri

**DVD FİLM HƏDİYYƏ**

İslam Dünyanı Aydınladan İşıq

## HZ. MEHDİNİN (Ə.S) Reallaşan Zühur Əlamətləri

- SEVGİDƏ QƏTİYYƏTLİ OLMAQ
- NƏFSƏ UYĞUN DİN PLANLARI
- DÖVLƏTƏ BAĞLILIĞIN ÖNƏMİ
- QURANIN RİYAZİ MÖCÜZƏLƏRİ
- MÜSƏLMANLARA AYRILMAQ HARAM, BİRLƏŞMƏK VACİBDİR
- BƏZİ İNSANLARDAKI MƏNƏVİ BOŞLUĞUN ƏSL SƏBƏBİ
- HZ. İSANIN YAXINLAŞAN ZÜHURU
- SANİYƏDƏ 500 DƏFƏ ÇIRPINAN QANADLAR

DÜŞÜNƏN İNSAN - Oktyabr 2011; Elmi-kütləvi jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəlioğlu
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
“Düşünən İnsan” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418
Bu jurnal Şərq-Qərb mətbəəsində çap olunmuşdur.Tiraj: 2000

# Düşünən İnsan

## içindəkilər



| | |
|---|---|
| İlham Əliyev - Azərbaycanda din və dövlət münasibətləri haqqında | 2 |
| İslam dünyasında keçən ay | 4 |
| Quranın riyazi möcüzələri | 8 |
| Hz. Musa (ə.s) kimi iman etmək | 14 |
| Fosillər təkamülü təkzib edir | 17 |
| Səhvi özündə axtarmaq | 28 |
| Kainatın yaradılışı | 30 |
| Mənfi düşüncələrdən uzaqlaşmaq | 34 |
| Maye içində üzən beynimiz | 38 |
| Nəfsə uyğun din planları | 40 |
| “Quşbeyin” deyib keçməyin | 44 |
| Səhv etməkdən qorxmamaq | 46 |
| Bəzi insanlardakı mənəvi boşluğun əsl səbəbi | 50 |
| Allahın üstün gücünün təzahürü-atomlar | 54 |
| Sevgidə qətiyyətli olmaq | 56 |
| Hz. İsanın (ə.s) yaxınlaşan zühuru | 60 |
| Müsəlmanlar və elm | 62 |
| Klonlaşdırma təkamül nəzəriyyəsinə dəlil deyil | 64 |
| Hər an hər şeyi edən Allahdır | 66 |
| Ölümə tələsən erkək arılar | 70 |
| Allah canlıları təkamüllə yaratmamışdır | 72 |
| Quranda möminlər | 80 |










Müsəlmanlara BİRLƏŞMƏK VACİB AYRILMAQ HARAMDIR 24





# İlham Əliyev: "Azərbaycanda din-dövlət münasibətləri çox yüksək səviyyədədir"



Prezident İlham Əliyev 12 avqust 2011-ci il tarixində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin, ölkəmizdəki xristian, yəhudi icmalarının rəhbərlərinin, din xadimlərinin, eləcə də dövlət rəsmilərinin qatıldığı iftar mərasimində iştirak etmişdir. İlham Əliyev iftar mərasimindəki çıxışı zamanı din-dövlət münasibətləri, dini sahədə görülən işlər, dini tolerantlıq kimi bir çox önəmli məqama diqqət çəkmişdir:

**"Ramazan ayı müqəddəs aydır. Azərbaycan xalqı bu müqəddəs duyğuları öz qəlbində əsrlər boyu yaşatmışdır. Ancaq müstəqil ölkə kimi biz gənc ölkəyik. Bu il müstəqilliyimizin 20 illik yubileyini qeyd edəcəyik və müstəqil ölkə, azad xalq kimi öz doğma dini bayramımızı böyük təntənə ilə qeyd edirik.Bu gün Azərbaycanda din-dövlət münasibətləri çox yüksək səviyyədədir və hesab edirəm ki, bu əlaqələr dünya miqyasında nümunə kimi təqdim oluna bilər. Azərbaycanda bütün sahələr inkişaf etdiyi kimi, bu sahədə də müsbət meyillər özünü göstərir. Bu, ölkəmizi daha da gücləndirir.Ölkənin gücünü təkcə təbii sərvətlər, təbii ehtiyatlar, yaxud da ki, maliyyə imkanları müəyyən etmir. Hər bir ölkənin gücü onun hərtərəfli inkişafındadır. Azərbaycanın gücü ondan ibarətdir ki, ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri rahat yaşayırlar. Dostluq, qardaşlıq şəraitində yaşayırlar. Bizim gücümüz bundan ibarətdir."**

Dağlıq Qarabağ münaqişəsi mövzusuna toxunan İlham Əliyev bunları söyləmişdir:

**"Bizim mövqeyimiz bir daha demək istəyirəm ki, həm tarixi həqiqətə, həm beynəlxalq hüquq normalarına əsaslanır. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və hüquqi cəhətdən də Azərbaycan torpağıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və Azərbaycanın ərazi bütövlüyü Dağlıq Qarabağ daxil olmaq şərti ilə bərpa edilməlidir".**



# İlham Əliyev: "İslam həmrəyliyinin gücləndirilməsi çox lazımdır"

Prezident İlham Əliyev 10 avqust 2011-ci il tarixində müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir. Bayram təbriklərini səfirlərə çatdırdıqdan sonra cənab İlham Əliyev müsəlman ölkələri arasındakı münasibətlərə toxunmuş və əlaqələrin daha da güclənməsinin zəruriliyini vurğulamışdır:

"Biz çox istəyirik ki, bütün müsəlman ölkələri ilə əlaqələrimiz həm siyasi, həm iqtisadi sahədə və bütün başqa sahələrdə daha da geniş, daha da dərin olsun.

**Əminəm ki, xüsusilə indiki şəraitdə İslam həmrəyliyinin gücləndirilməsi çox lazımdır. Bizim aramızda birlik daha da sıx olmalıdır. İqtisadi əlaqələr daha da geniş olmalıdır. Əlbəttə ki, qarşılıqlı dəstək yüksək səviyyədə olmalıdır. Hər bir halda Azərbaycan bu məqsədlərə çatmaq üçün öz tərəfindən vacib addımları atır".**





# İslam Dünyasında

## London avtobuslarında "Allah var" elanları

Londonun simvolu olan ikimərtəbəli qırmızı avtobuslarda "Müasir elm sübüt edir ki, Allah var" elanları şəhəri gəzir. Cənab Adnan Oktarın (Harun Yəhya) İngiltərədəki sevənləri tərəfindən həyata keçirilən elan kampaniyasında bütün dünyada böyük əks-səda doğuran "Yaradılış Atlası" adlı əsərin təqdimatı keçirilir. Hörmətli Adnan Oktarın şəklinin də yer aldığı elanda "Yaradılış Atlası"nın bütün cildlərinin www.yaratilisatlasi.com adlı internet saytından ödənişsiz endirilə biləcəyi bildirilir.

Əvvəllər Riçard Doukinsin (Richard Dawkins) dəstəklədiyi bir qrup ateistin fikirlərini yaymaq üçün istifadə etdiyi avtobus elanlarının yerində indi Harun Yəhyanın darvinistləri məğlub edən "Yaradılış Atlası" yer alır.

2009-cu ildən etibarən cənab Adnan Oktar tərəfindən ictimaiyyət qarşısında elmi dəlillər işığında müzakirəyə dəvət edilən ingilis ateist təkamülçü Riçard Doukins "söz vermişəm, mübahisə etməyəcəyəm" cavabı ilə vəziyyəti ötüşdürməyə çalışmışdı. Bununla bağlı İngiltərənin ən məşhur qəzeti olan "Tayms" da (The Times) cənab Adnan Oktarın ingilis təkamülçü Riçard Doukinsi müzakirəyə dəvəti elan şəklində nəşr olundu. Bir milyondan çox oxucusu olan qəzetin 13 oktyabr 2009-cu il tarixli sayında dərc olunmuş sözügedən dəvətə, müxtəlif prodüser-lərin də israrına baxmayaraq, Doukins sükutla cavab vermişdi. Harun Yəhya əsərlərinin London avtobuslarında tanıdılması ilə bu sükut darvinistlərin matəminə çevrilmişdir.



## Fransa İslama yönəlir

Son 10 ildə Fransada tikilən məscidlərin ümumi sayı 2000-dən çoxdur.

Hudzon Universitetinin yayımladığı hesabata görə, Fransada İslam çox sürətlə yayılır. Araşdırmalara əsasən, ölkədə çox sayda fransız dinini dəyişərək müsəlman olmağı seçir. Fransa Müsəlman Şurasının rəhbəri Məhəmməd Moussaouninin verdiyi açıqlamada hazırda ölkədə inşası davam edən 150 məscid olduğu deyilir. Son 10 ildə Fransada tikilən məscidlərin ümumi sayı 2000-dən çoxdur. Fransa Katolik kilsəsinin verdiyi rəqəmlərdə isə son 10 ildə ölkədə açılan kilsə sayının cəmi 20 ədəd olduğu məlum olub. Altmışdan çox kilsə isə bağlanıb. "French Institute of Public Opinion"un araşdırmalarına görə, fransız xalqının sadəcə 4 %-i müntəzəm olaraq kilsəyə getdiklərini, müsəlmanların isə 41 %-nin məscidə getdiklərini bildiriblər. Hesabata əsasən müsəlmanlar dinlərinə xristianlardan daha çox sahib çıxırlar.




## Kilsədə azan səsi

ABŞ-da ilk dəfə 32 əyalətdə 70-dən çox kilsənin "Bazar Günü" ayinində üç səmavi dinin nümayəndələri bir araya gələrək birlikdə dua etdilər.

Bütün dinlərə hörmət və tolerantlıq naminə "Dinlərarası İttifaq" (İnterfaith Alliance) və "Öncə İnsan Haqları" (Human Rights First) adlı təşkilatların səyi nəticəsində ilk dəfə "İnancları paylaşma" mərasimi təşkil edildi. 32 əyalətdə və paytaxtdakı 70-dən çox kilsədə xristianların "Bazar Günü" ayininə yəhudi və müsəlman din adamları xristian din adamları ilə birgə qatıldı. Din adamları öz müqəddəs kitablarından hissələr oxudular, birlikdə ilahilər söylədilər. Mərasimə ölkənin ən böyük ikinci kilsəsi olan Vaşinqton Milli Baş Kilsəsi ev sahibliyi etdi. Kilsədə ilk dəfə azan səsi yüksəldi. Müəzzin kilsənin eyvanlarından birində azan oxudu. "Tarixi mərasim" kimi xarakterizə edilən bu xüsusi anım mərasimində sualları cavablandıran Şimali Amerika İslam Cəmiyyəti başçısı İmam Məcid: "Belə gözəl bir ibadət yerində bir-birimizin müqəddəs kitablarından hissələr oxumağımız ABŞ-dakı xristianların, müsəlmanların və yəhudilərin mövhumat və nifrətə "yox" demək üçün çiyin-çiyinə dayandığını göstərir. Bir-birimizə sevgi və hörmət mesajları verdiyimiz bu təşəbbüsün bir parçası olmaqdan xoşbəxtlik duyuram", -deyə bildirdi. Təşəbbüsü təşkil edən təşkilatlardan "Dinlərarası İttifaq"ın rəhbəri rahib dr. Velton Qeddi: "Xüsusilə üç səmavi dinin nümayəndələri olaraq müqəddəs kitablarımızın bizə əmr etdiyi əməkdaşlıq modelini aramızda qurmağı bacarsaq, dünyada yaxşı yöndə bir dəyişiklik meydana gətirə bilərik. Bunu bizdən başqası edə bilməz", -dedi.

## ABŞ, San-Antonio Hərbi Hava Qərargahında Harun Yəhya konfransı

Amerikanın Texas əyalətinin San Antonio şəhərindəki Amerika ordusu hava qüvvələrində Harun Yəhya təmsilçisi tərəfindən konfrans həyata keçirilib. Serjant, çavuş və leytenantlardan ibarət qrupa gündüz **"Darvinizmin süqutu və yaradılış gerçəyi"**, axşam isə **"Quran möcüzələri"** mövzusunda konfrans verilib. Amerikalı və qeyri-müsəlmanlardan ibarət olan əsgərlər mövzuları həvəslə dinləyiblər. Proqramın sonunda konfransı dinləyən əsgərlərdən kimin Quran istədiyi soruşulub. Salondakıların çoxu əl qaldırdıqdan sonra istəyənlərə Quran və Harun Yəhya əsərləri hədiyyə olunub.

Harun Yəhyanı təmsil edən konfrans spikerinə leytenant tərəfindən cənab Adnan Oktara təqdim etmək üçün medal hədiyyə edildi və daha əvvəl heç bir spikerə bu cür hədiyyə verilmədiyi qeyd edilib. Növbəti aylarda bütün hava qüvvələrinin iştirak edəcəyi daha əhatəli və böyük proqram təşkil etmək xahiş olunub.





# Problemlərin Dövlətə Bağlılıqla Həlli

Tarixi təcrübə qəti şəkildə təsdiq edir ki, bir millətin varlığı və davamlılığı üçün güclü dövlətə sahib olmaq lazımdır. Bu halda Azərbaycan Respublikası vətəndaşlarının mənafeyini qoruyan, millətin rifahının, təhlükəsizliyinin və gələcəyinin yeganə təminatı olan dövlətdir. Azərbaycan dövlətçiliyini qorumaq, dövlətə sahib çıxmaq hər bir Azərbaycan vətəndaşının ilkin vəzifəsidir. Heç bir vətəndaşımız dövlət qurumlarına zərər verən, bu qurumların fəaliyyətini ləngidən və ya dövlətin əsas dəyərlərinə ziyan vuran heç bir fəaliyyətə qətiyyən yol verməməlidir. Milli vəzifəmiz həmişə dövlətin yanında olmaqdır. Buna zidd fəaliyyət göstərən insan öz oturduğu evin bünövrəsini qazan şəxs kimi öz varlığına və gələcəyinə zərər vermiş olar.

## Fərqli siyasi fikirlərin dövlətə bağlılıqda birləşməsi

Demokratik cəmiyyətdə ölkə məsələlərinin həllində hər kəsin və hər qrupun fərqli fikirləri ola bilər. Məsələn, bəziləri azad bazar iqtisadiyyatını müdafiə edə bilər, bəziləri qarışıq iqtisadiyyatın faydalı olacağını düşünər. Eyni qaydada xarici siyasətdən tutmuş ölkənin abadlaşdırılması məsələlərinə qədər hər mövzuda fərqli fikirlər ola bilər. Dünyagörüşü cəhətdən də cəmiyyətin bir hissəsi daha mühafizəkar, bir hissəsi daha liberal olar. Amma əhəmiyyətli olan bütün bu fərqli siyasi və mədəni cərəyanların dövlətə bağlılıq mövzusunda ortaq davranış göstərmələridir.

Çünki bütün bu qruplar Azərbaycan Respublikasının tərkib hissəsidir və ancaq Azərbaycan dövləti güclü olduğu təqdirdə müstəqil millət olaraq yaşamaq imkanına sahibdirlər. Öz aralarında siyasi mübarizə apara bilər, fərqli partiyalar qura bilərlər. Amma hamısı dövlətə sadiq, dövlətin və dövlət qurumlarının qorunması mövzusunda eyni həssaslıqda olmalıdır.





**“Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır”.**
**Heydər Əliyev**

## Problemlərin dövlətlə uzlaşaraq həll edilməsi

**“Kim müxalifətdə durursa-dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın.” Heydər Əliyev**

Hökümət tərəfindən cəmiyyətin ümumi rifahı üçün aparılan siyasət bəzən cəmiyyətdəki bəzi qrupları narahat edə bilər. Onlar dövlətin apardığı siyasətin onlara zərər verdiyini düşünə bilərlər. Lakin bu kimi vəziyyətlərdə həll yolu dövlətə qarşı çıxmaq, küçələrə axışıb dövlətə etiraz etmək, hətta dövlətin təhlükəsizlik güclərinə qarşı çıxmaq deyildir. Həll yolu- problemlərin və tələblərin dövlətə bildirilməsi və dövlətlə birlikdə həll yollarının axtarılmasıdır.

Belə ki, dövlətin bu kimi tələb və problemləri həll edən mexanizmləri var. Dövlət orqanları cəmiyyətin tələblərini dinləyən və bu tələbləri qarşılamağa yönələn vacib qurumlardır. İstəyən hər kəs ərizə ilə dövlət idarələrinə müraciət edə bilər və kömək istəyə bilər. Hətta hər kəs dövlət orqanları ilə razılaşdırılmış nümayişlər təşkil edərək fikirlərini demokratik yolla ifadə edə bilər.

Azərbaycan Respublikası vətəndaşları bu xüsusları nəzərə almalı və hər cür problem və şikayətlərini dövlətə zidd davranmaqla deyil, dövlətin rəsmi instansiyalarına müraciət etməklə və uzlaşma yolu ilə həll etməyə çalışmalıdırlar. Buna uyğun olmayan hərəkət onu edən şəxsə heç bir fayda verməməklə yanaşı, cəmiyyətimizə də yalnız narahatlıq verər.





# Quranın Riyazi Möcüzələri

Quran göndərildiyi gündən etibarən hər dövrdə yaşayan insanların anlaya biləcəyi asan və aydın dilə malikdir. Ədəbi dilinin mükəmməlliyi, bənzərsiz üslubi xüsusiyyətləri və ehtiva etdiyi üstün hikmət Quranın Allahın kəlamı olduğunu sübut edən ən əhəmiyyətli dəlillərindəndir. Bununla yanaşı, Quranın Allahın sözü olduğunu sübut edən bir çox başqa möcüzəvi xüsusiyyətləri var. Bunlardan biri də Quranda diqqəti cəlb edən söz təkrarlarıdır. Allah bundan 14 əsr əvvəl insanlara yol göstərici kitab olan Qurani-kərimi göndərmiş və bütün bəşəriyyət Qurana tabe olaraq nicat tapmağa dəvət etmişdir. Ayədə də bildirildiyi kimi, Quran **"...aləmlərə ancaq bir öyüd-nəsihətdir!" (Qələm surəsi, 52)** Quran göndərildiyi gündən etibarən qiyamət gününə qədər bəşəriyyətin yeganə yol göstəricisi olan son İlahi kitabdır. Ancaq XX və XXI əsr texnologiyası ilə əldə etdiyimiz bəzi elmi həqiqətlərin 1400 il əvvəl Quranda bildirilməsi Quranın Allahın sözü olduğunu sübut edən çoxlu möcüzələrdən biridir. Bu xüsusiyyətlərdən biri də "riyazi möcüzə"lərdir. Bu möcüzəyə bir nümunə kimi Qurandakı bəzi söz təkrarlarının verdiyi ortaq sayları göstərmək olar. Bir-birilə əlaqədar bəzi sözlər möcüzəvi şəkildə eyni sayda təkrarlanır. Aşağıda bu cür sözlər və Qurandakı təkrarlanma sayları verilmişdir:

"Yeddi göy" ifadəsi 7 dəfə təkrarlanır. "Göylərin yaradılışı (xəlqi-səmavat)" ifadəsi də 7 dəfə təkrarlanır.

"Gün (yəvm)" ifadəsi tək olaraq 365 dəfə, çoxluq, yəni "günlər (əyyam və yəvmeyn)" sözləri 30 dəfə təkrarlanır. "Ay" sözünün təkrarı isə 12-dir.

"Bitki" və "ağac" sözlərinin təkrar sayı eynidir: 26

"Cəza" sözü 117 dəfə çəkildiyi halda, Quran əxlaqının təməl xüsusiyyətlərindən olan "bağışlamaq" ifadəsi bu sayın 2 misli qədər, yəni 234 dəfə təkrarlanır.

"De" sözlərini saydıqda çıxan nəticə 332-dir. "Dedilər" sözünü saydıqda da eyni sayı əldə edirik.

"Dünya" sözü və "axirət" sözünün təkrarlanma sayı da eynidir: 115

"Şeytan" sözü Quranda 88 dəfə keçir. "Mələk" sözünün təkrar sayı da 88-dir.

"İman" və "küfr" sözləri Quranda 25 dəfə təkrarlanır.

"Cənnət" və "cəhənnəm" sözü də eyni sayda təkrarlanır: 77

"Zəkat" sözü Quranda 32 dəfə təkrarlanarkən, "bərəkət" sözünün təkrarlanma sayı da 32-dir.

"Yaxşılar (əbrar)" 6 dəfə təkrarlandığı halda, "pislər (fuccar)" sözü isə düz yarısı qədər, yəni 3 dəfə keçir.

"Yay-isti" sözləri ilə "qış-soyuq" sözlərinin işlənmə sayı da eynidir: 5

"Şərab (hımr)" və "sərxoşluq (səkərə)" sözləri də Quranda eyni sayda təkrarlanır: 6

"Düşünmək" və "nur" saylarının təkrarı da eynidir: 49

"Dil" və "öyüd" sözləri eyni sayda 25 dəfə təkrar edilir.

"Fayda" sözü 50, "ziyan" sözü də 50 dəfə təkrarlanır.

"Sevgi" və "itaət" sözlərinin təkrar sayı eynidir: 83

Quranda "dönüş" və "sonsuz" sözləri eyni sayda yer almışdır: 28

"Müsibət" sözü və "şükür" sözü Quranda eyni sayda keçir: 75 dəfə



"Günəş (şəms)" və "işıq (nur)" sözləri Quranda 33 dəfə keçir. (Sayarkən "nur" sözünün yalnız adlıq halları nəzərə alınmışdır.)

"Doğru yola çatdıran (Əlhuda)" və "rəhmət" sözlərinin təkrar sayı bərabərdir: 79

Quranda "çətinlik" sözü 13 dəfə keçərkən, "hüzur" sözü də 13 dəfə təkrarlanır.

"Qadın" və "kişi" sözlərinin təkrar sayı da eynidir: 23

Qadın, kişi sözlərinin Quranda təkrar sayı olan 23 eyni zamanda insan rüşeyminin (embrion) meydana gəlməsində yumurta və spermdən gələn xromosom sayıdır. İnsanın xromosom sayı da ata və anadan gələn 23 xromosomun cəmi olaraq 46-dır.

"Xəyanət" sözü 16 dəfə keçərkən, "xəbis" sözünün təkrar sayı da 16-dır.

"İnsan" sözü Quranda 65 dəfə keçir; insanın yaradılış mərhələlərinin sayının cəmi də eynidir.

"Salavat" sözü bütün Quranda 5 dəfə keçir və Allah insanlara gündə beş dəfə namaz qılmalarını bildirmişdir.

"Quru" sözü Quranda 13 dəfə, "dəniz" sözü 32 dəfə işlədilib. Bu rəqəmlərin cəmi bizə 45 sayını verir. Quru sözünün Qurandakı sayını, yəni 13-ü 45-ə bölsək, %28,888888888889 sayını əldə edərik. Dəniz sözünün Qurandakı sayını, yəni 32-ni 45-ə böldükdə isə %71,111111111111sayını alırıq. Bu rəqəmlər planetimizdəki su və quru hissələrinin nisbətidir (Scientific Miracles).

## Quran Allahın sözüdür.

Quranda keçən söz təkrarlarının verdiyi ortaq saylar Quranın Allahın sözü olduğunu isbat edən açıq dəlillərdən yalnız biridir. İstər elmi mövzularda, istər keçmişdən və gələcəkdən verilən xəbərlərdə, istərsə də riyazi şifrələrdə o dövrdə heç bir insan tərəfindən bilinməyən həqiqətlər ayələrdə xəbər verilmişdir.

Qurandakı hər məlumat, bu İlahi kitabın bilinməyən gizli möcüzələri uca Rəbbimizin üstün ağlının və sonsuz elminin dəlillərindən yalnız birini göstərir. Bir ayədə belə buyurulur:

**"...Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar". (Nisa surəsi, 82)**





# Misir Piramidalarının İndiyə Qədər BİLİNMƏYƏN SİRLƏRİ

Sivilizasiyaların ibtidaidən aliyə doğru inkişaf etməsi iddiası təkamülçülərin tarix haqqında uydurduğu yalandır.

*Təkamül nəzəriyyəsinin iddialarını və yalanlarını bir kənara qoyub tarixi qaynaq və kəşfləri araşdırsaq, qarşımıza inkişaf etmiş texnologiyalardan istifadə edən mədəniyyətlər çıxar. Qədim Misir, maya və şumerlərdən günümüzə qədər qalan izlər göstərir ki, onlar elektrik, elektrokimya, elektromaqnetizm, meteorologiya, hidrogeologiya, tibb, kimya və fizika kimi elm sahələrindən geniş miqyasda istifadə ediblər.*

Qədim Misirdə elektrik enerjisi daha səmərəli şəkildə istehsal edilir və geniş sahələrdə tətbiq edilirdi. Bağdad batareyası və ilk ark lampaları da o dövrdə istifadə olunmuşdu. Qədim Misirdə elektrik istehsalı bununla məhdudlaşmırdı. Misir tarixinə diqqətlə nəzər salsaq, işıqlandırma sistemindəki mükəmməlliyi görərik. Piramidalar və kral məzarlarının dəhlizlərində heç bir his izinə rast gəlinmir, çünki bu hissələrdə elektrik işıqlandırmasından istifadə olunub. Xüsusi relyefli rəsmlərlə bəzədilmiş divarlardan da göründüyü kimi, misirlilər kabelsiz elektrik qaynağı ilə yanan və əldə daşınan lampalardan isitifadə ediblər. İskəndəriyyə mayakında istifadə olunan ark lampası da qədim Misirdə elektrikdən istifadə olunduğunu göstərən bir başqa dəlildir. 24 saat yanan İskəndəriyyə mayakının ehtiyacı olan enerji davamlı elektrik qaynağı ilə təmin edilirdi. Misir piramidaları alternativ elektrik istehsal edən nəhəng enerji stansiyaları idi. Birincisi, piramidanın çölü bir ülgücün belə arasından keçə bilməyəcəyi şəkildə, ağ kirəcdaşı ilə hörülmüşdü. Ağ kirəcdaşının tərkibində maqnezium yoxdur və yüksək səviyyədə dielektrik xüsusiyyətə malikdir. Bu dielektrik xüsusiyyətinə görə piramidanın içindəki işıq nizamsız şəkildə kənara yayılmır. İkincisi, piramidanın içində istifadə olunan daş bloklar elektrik cərəyanını yüksək səviyyədə ötürmə qabiliyyətinə malik, tərkibində kristal və az miqdarda metal olan bir başqa növ kirəcdaşından hazırlanmışdır. Piramidanın içindəki tunellər isə qranit qatı ilə örtülmüşdür. Keçirici xüsusiyyətə malik daş olan qranit çox az miqdarda radioaktiv maddədir və tunellərin içindəki havanın ionlaşmasını



təmin edir. Dielektrik elektrik kabelini araşdırdığımız zaman keçirici və dielektrik maddələrin piramidalarda olduğu kimi, eyni qayda ilə istifadə olunduğunu görərik. Üçüncüsü, piramidanın keçirici və dielektrik quruluşu mükəmməl mühəndislik nümunəsidir. Lakin elektrik istehsalı üçün enerji qaynağına ehtiyac vardır. Piramidaların yerləşdiyi Giza vadisi yeraltı su kanalları ilə örtülmüşdür. Piramidalar arası su ilə dolu olan əhəng daşı süxurunun üstündə yüksəlir. Yeraltı suları yuxarı daşıdığı zaman elektrik cərəyanını da yuxarı ötürən bu xüsusi süxur qatlarına akifer deyilir. Akiferlərdən keçən Nil çayının yüksək axın sürəti elektrik cərəyanı yaradır. Buna fizio-elektrik deyilir. Piramidanın yeraltı otaqları bu fizio-elektrik yüklü süxurların içində qurulmuş qranit keçiricilərdir. Elektrik axını piramidanın qranitlə örtülü yeraltı otaqlarından üst qatlara doğru ötürülür. Qranit elektrik cərəyanını yüksək səviyyədə ötürmə qabiliyyətinə malikdir. Piramidanın zəminində formalaşan elektromaqnit sahə mərkəzləşmiş şəkildə piramidanın üst qatlarına çatdırılır. Piramidanın zirvəsində yüksək keçiriciliyi olan qızıldan təbəqə vardır. Bu təbəqə bu gün yerində yoxdur. Bu səbəbdən, piramidanın zirvəsi qüsursuz geometrik formasını itirib. Bu qızıl təbəqənin neqativ ionların ionosferə ötürülməsində əhəmiyyətli rolu vardır. Bu şəkildə bir elektrik dövriyyəsi baş tutmuş olur.

**Yaxşı, bəs akiferin köməyi ilə elektromaqnit sahəni torpağın üstünə ötürmək nə işə yarayır?**

Misirdə beş min il bundan əvvəl isitifadə olunan texnologiyanın eynisini 1900-cü illərin əvvəlində elektrik texnologiyasının ixtiraçısı kimi tanınan Nikola Tesla Amerikada inşa etdirdiyi binada tətbiq etmişdir. Alternativ cərəyan, elektrik motoru, radio, lazer, radar

Misirdə beş min il bundan əvvəl isitifadə olunan texnologiyanın eynisini 1900-cü illərin əvvəlində elektrik texnologiyasının ixtiraçısı kimi tanınan Nikola Tesla Amerikada inşa etdirdiyi binada tətbiq etmişdir.

kimi əsas elektrik texnologiyasının ixtiraçısı olan Nikola Tesla 1901-1917-ci illərdə inşa etdiyi Vordenklif (Wardenclyffe) qülləsində səs və görüntünü qitələr arasında eyni zamanda ötürərkən bayırdan gələn elektrik qaynağından istifadə etməmiş, hətta kabelsiz enerji ötürmə texnologiyasını tətbiq etmişdir. Tesla da bu qülləni akifer üzərində inşa etmişdi və akiferin neqativ ionlarını qülləyə daşıyırdı. Teslanın məhşur Vordenklif qülləsində istifadə olunan elektromaqnit texnologiya piramidaların inşasında istifadə edilən elektromaqnit sahənin eynisidir. Hər iki qurğu neqativ ion hazırlayan və elektrik kabelinə ehtiyacı olmayan ötürücü sistemlərdir.

**Bəs misirlilər elektrikdən nə məqsədlə istifadə edirdilər?**

Misirlilərin kabelsiz elektrik qaynağı ilə yanan və əldə daşınan ampula tipli lampalardan istifadə etdikləri divar rəsmlərində açıq şəkildə görünür. Bu lampalar Nikola Teslanın alternativ cərəyanın zərərsiz olduğunu göstərən təqdimatlarından bizə tanışdır. 1983-cu ildə Çikaqodakı dünya sərgisində Nikola Tesla alternativ cərəyanı bədənindən keçirərək əlindəki lampanı heç bir kabel olmadan



yandırmışdır.

Böyük piramidanın ətrafında aparılan elektromaqnit hesablamaların cəmi dünyanın hər hansı bir yerində ildırımla dolu olan fırtınada aparılan hesablamalarla eynidir. Piramidanın ətrafında yüksək elktromaqnit sahə vardır. Bunu aparılan ən bəsit təcrübə ilə də anlamaq olar. Piramidanın zirvəsində nəm parçaya bürünmüş bir şüşə ilə dayansaq, sanki yüksək gərginlikli sayğacın üstündəki kimi şüşədən qığılcımlar çıxar.

## Piramidalardan qəbir kimi istifadə olunmayıb

Bu günə qədər piramidaların firon qəbirləri olduğu haqqında çoxlu məlumatlar var. Lakin böyük piramidanın dəhlizlərində bu haqda heç bir işarə və ya yazı yoxdur. Bu tikili abidə deyil, əksinə müəyyən məqsədlər üçün istifadə olunan binaları xatırladır. Arxeoloqlar piramidanın kral otağı adlandırılan mərkəzi otağında içi boş daş sandıq tapıblar. Bu daş sandığın içində əvvəllər fironun tabutu olduğunu, lakin oğurlandığı üçün boş qaldığını iddia edirlər. Lakin daş sandığın ölçüsü və onun otaqda yerləşmə yerinə baxsaq, başqa həqiqət ortaya çıxır. Bu sandıq piramidanın xüsusi ötürücü formasının və yerdə qalan bütün dizaynın tamamlanması üçün çatışmayan elementin yerində yerləşir.

Burada bir super ötürücü maddə olduğu təqdirdə piramida bütün Misirə kifayət edəcək qədər elektrik enerjisi hasil edə bilir. Qədim zamanlarda Misirdə olduğu bilinən, ölçüləri isə tam olaraq daş sandığın içinə yerləşəcək qədər olan bu super ötürücü maddənin tabutu-səkinə (müqəddəs əhd sandığı) olduğu güman edilir.

Hz. Musa firon tərəfindən övladlığa götürülmüşdü. Tarixi qaynaqlara görə, üstün əxlaqlı, ağıllı və bacarıqlı olduğu üçün Misirin idarəçisi kimi yetişdirilmişdi.

Qədim Misirdəki idarəçilərə verilən təhsil pilləsindən biri də Misirin bütün gizli sirlərinin və enerji elminin öyrədilməsidir. Müxtəlif qaynaqlarda müqəddəs sandığın digər xüsusiyyətləri ilə yanaşı kondensator kimi funksiyası haqqında və bu kondensatorun Misirin enerji qaynağı olması barədə məlumat var. Hz. Musa Misirdən çıxdığı zaman müqəddəs sandığı da özü ilə apardığı təxmin edilir. Tarixi mənbələrə görə, fironun son ana qədər hz. Musanı təqib etməsi və var gücü ilə ona yetişmək istəyinin səbəblərindən biri də müqəddəs sandığın onda olmasıdır. Firon bilirdi ki, elektrik enerjisindən istifadə olunmazsa, Misirin sahib olduğu zənginlik və ehtişam yox olacaqdı. Tarixi qeydlərə nəzər salsaq, hz. Musa ilə eyni vaxtda yaşayan II Ramzes dövründə Misir ən yüksək mədəniyyət səviyyəsində idi. Ondan sonra 10 il içində mədəniyyət tamamilə çökmüşdü, hətta sakinlər Gizanı tərk etmişdilər.

Növbəti sülalənin gəlib buraya yerləşməsinə qədər bir zamanlar mədəniyyət mərkəzi olan şəhər boş qalmışdı. Bəs bu dövrdə kabelsiz elektrik texnologiyasını bilən sadəcə misirlilər idimi?

Mayyalılardan və assuriyalılardan qalan izləri araşdırdığımız zaman piramidalarda tətbiq olunan texnikanın eynisini təsvir edən rəsmlərə rast gəlirik. Bütün bu məlumatlar bir daha göstərir ki, keçmişdə təkamülçülərin iddia etdiyi kimi, ibtidai insanlar və icmalar yaşamayıb. Tarixin hər dövründə mədəniyyət baxımından inkişaf etmiş və geri qalmış cəmiyyətlər eyni vaxtda yaşayıblar. Minlərlə il bundan əvvəl yaşamış xalqlar XX əsrdəki xalqlardan daha üstün daha üstün texnologiyaya sahib olmuşdular.

Bu da göstərir ki, inkişaf təkamül nəticəsində baş verməyib, yəni tarix boyu ibtidai cəmiyyətdən aliyə doğru bir inkişaf yolu olmayıb.





*"Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"!*

*Heydər Əliyev*

# HZ. MUSA (ə.s) KİMİ İMAN ETMƏK, HZ. MUSA (ə.s) KİMİ ALLAHA GÜVƏNMƏK, HZ. MUSA (ə.s) KİMİ ALLAHIN KÖMƏYİNDƏN ƏSLA ÜMİD KƏSMƏMƏK...

**İki dəstə bir-biri ilə qarşılaşdığı zaman Musanın camaatı dedi: "Artıq yaxalandıq! (Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə yol göstərəcəkdir!" (Şüəra surəsi, 61-62)**

**Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə: "Allahın köməyi nə vaxt gələcək?" – demişdilər. Bilin ki, Allahın köməyi yaxındır! (Bəqərə surəsi, 214)**

Hz. Musa (ə.s) və onunla birlikdə olan möminlər iki dənizin birləşdiyi yerə gəlib çatanda bir tərəfdə dəniz, digər tərəfdə isə fironun əsgərləri var idi. O vaxt fironun yanındakı adamlardan bəziləri hz. Musaya (ə.s) və səhabələrinə fironun qalib gəldiyini və hz. Musanın (ə.s) artıq heç bir şey edə bilməcəyini düşünə bilərdi. Hətta hz. Musanın (ə.s) yanında olan, ona və onun gətirdiyi haqq dinə iman etmiş insanlardan bəziləri də "artıq yaxalandıq" deyirdilər.

Halbuki Allah belə bir vəziyyət yaradaraq onları imtahan edirdi. Fironu da, əsgərlərini də idarə edən yalnız Allah idi. Digər tərəfdən də dənizin sularına hökm edən yeganə güc də yenə yalnız Rəbbimizə aid idi. Allah hz. Musanın (ə.s) və ona inananların Allahdan başqa bir gücün olmadığını və Allahın hər şeyə güc çatdıra biləcək qüdrət sahibi olduğunu başa düşmələri üçün belə vəziyyət yaratmışdı. O an xilas ola bilməyəcəklərini fikirləşənlər isə qəflətə düşmüşdülər. Düşdükləri belə vəziyyətdən yalnız öz gücləri ilə xilas ola biləcəklərini zənn edirdilər. Mövcud şəraitə qarşı öz güclərinin çatmayacağını görəndə isə "çarəsiz" olduqlarını düşünmüşdülər. Əgər "bütün gücün Allaha aid olduğunu" daha yaxşı qavrasaydılar, şərtlər nə qədər çətin olsa da, Allaha sığınıb Ondan kömək istəyə biləcəklərini unutmazdılar. Allahın hakimiyyətinin və qüdrətinin sərhədsiz olduğunu, istədiyi təqdirdə ən imkansız kimi görünən hadisələrə belə çarələr yarada biləcəyini bilərdilər.



Halbuki hz. Musa (ə.s) o çətin anda bu həqiqətin fərqində idi. O, yanındakı bəzi insanlar kimi "yaxalandıq" demədi. Həmin insanların etdiyi hərəkətə qarşı çıxdı. "Xeyr, şübhəsiz Rəbbim mənimlə bərabərdir; mənə yol göstərəcəkdir", -dedi. Bir çox



insanın panikaya və qorxuya qapılaraq, həyacanlandığı bir anda hz. Musa (ə.s) Allaha dərin imanla güvənirdi. Zahirən heç bir xilas yolu görünmədiyi halda, o, Allahın yardımından qətiyyən ümidini kəsmədi. Allahın bir çıxış yolu yaradacağından qəti şəkildə əmin olaraq gözəl əxlaq göstərdi. Özünün heç bir gücü olmadığını, ancaq Allahın dilədiyi hər şeyi etməyə qadir olduğunu bilirdi. Allahın yaxşıları, qəlbən iman edənləri mütləq qoruyacağına, ondan kömək istəyənə mütləq yol açacağına güvənirdi. Bu səbəbdən də belə çətin şəraitə düşdüyü zaman hz. Musanın (ə.s) ilk etdiyi Allaha sığınmaq, Allahın adını ucaltmaq, Allaha dua etmək və Allahın köməyinin çox yaxın olduğuna qəti şəkildə inanmaq oldu.

Allah hz. Musanın (ə.s) bu dərin imanına və Allaha olan təslimiyyətinə qarşılıq olaraq insanların heç gözləmədikləri və heyrətlə izlədikləri bir möcüzə yaratdı:

**Onda Musaya belə vəhy etdik: "Əsanla dənizə vur!" (Musa əsasını dənizə vuran kimi) o dərhal yarıldı və hər hissə böyük bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bunda bir ibrət vardır. Lakin onların əksəriyyəti iman gətirmədi. Həqiqətən, sənin Rəbbin yenilməz qüvvət, mərhəmət sahibidir! (Şüəra surəsi, 63-68)**

Allahın Quranda bildirdiyi bu hadisədən insanların götürməli olduğu ibrətlə var. Allah Quranın bir çox ayəsində qullarına "dua etmələrini, dua edənin duasına mütləq cavab verəcəyini" xəbər vermişdir. Allah "səmimi iman edən qullarına mütlərq kömək edəcəyini" vəd etmişdir. "Allahdan lazımi qədər qorxub çəkinənlərə mütləq bir çıxış yolu göstərəcəyini" bildirmişdir. "Əgər Allah onların qəlblərində xeyir və gözəllik görərsə, o qullarına olduqları vəziyyətdən daha gözəli ilə qarşılıq verəcəyini" xəbər vermişdir.

**Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər. (Bəqərə surəsi, 186)**

**Möminlərə kömək etmək Bizə vacibdir!.... (Rum surəsi, 47)**

**Ya Peyğəmbər! Əlinizdə olan əsirlərə de: "Əgər Allah ürəklərinizdə bir yaxşılıq olduğunu bilsə, sizə sizdən alınandan daha yaxşısını verər və sizi bağışlayar. Axı Allah bağışlayandır, rəhm edəndir". (Ənfal surəsi, 70)**

Allah Quranın hər bir ayəsini bir çox hikmətlə yaratmışdır. Şübhəsiz ki, hz. Musanın (ə.s) əxlaqında

çox vacib bir sirr var. Allaha qəlbən güvənən hər insan üçün Allah qatından xüsusi yardım var. Allaha təvəkkül edərək, tam təslim olaraq inanmaq həqiqi imanın göstəricisidir. Allaha olan belə inam həyatının sonuna qədər möminin xilasıdır. Allah bu əxlaqına görə onu həyatının sonuna qədər qoruyacaq, hər sıxıntını və çətinliyi dəf etməsinə kömək edəcək. Belə bir insan həyatı boyunca hansı maneələrlə qarşılaşsa da, bunların heç biri onun üçün əngəl olmayacaq. Allaha olan inamı Allahın ona mütləq çıxış yolunu göstərməsi ilə nəticələnəcək.

**Kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə, o artıq ən möhkəm ipdən yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır! (Loğman surəsi, 22)**

**Dində məcburiyyət yoxdur. Artıq doğruluq azğınlıqdan ayırd edildi. Hər kəs Taqutu inkar edib Allaha iman gətirsə, o, artıq ən möhkəm bir ipdən yapışmış olur. Allah eşidəndir, biləndir! (Bəqərə surəsi,22)**

Bu səbəbdən, insan həyatı boyu hər hansı sıxıntı ilə qarşılaşırsa qarşılaşsın, Quranda bildirilən bu sirri unutmamalıdır. Allah istəyəndə dənizi iki yerə yaran, suları dayandırıb möminlərə keçə biləcəkləri yol açandır. Allah istəyəndə sayca çox az mömin topluluğunu çox böyük, güclü və təchizatlı ordulara qalib gətirəndir. Allah istəyəndə insanların görə bilmədiyi minlərlə mələklə möminlərə kömək edəndir. Allah istəyəndə insanların bəsirətlərini bağlayaraq möminlər əleyhində hərəkət etmələrini əngəlləyəndir. Allah istəyəndə ən çətin xəstəliklərə şəfa verəndir. Allah istəyəndə yaşı ötmüş və sonsuz da olsa, dilədiyi quluna övlad bəxş edəndir.

Allahın yaratmaqdakı sərhədsiz gücünü insanların qavraya bilmələri üçün Rəbbimiz Quranda bir çox nümunələr vermişdir. Əlbəttə ki, Allah bütün hadisələri imtahanın tələbi olaraq adətullaha (Allahın qanunlarına) uyğun yaradır, insanların dualarına, onların ağıllarının ixtiyarını qaldırmayacaq şəkildə qarşılıq verir. Ancaq vacib olan insanın Allahın bu gücünün sərhədsizliyini qavraya bilməsi, Rəbbimizi lazımi qədər dəyərləndirə bilməsidir. Allaha dua edərkən Onu düzgün dəyərləndirərək və bunu nəzərə alaraq etməlidir. Allahın səmimi quluna mütləq yardım edəcəyindən qəti şəkildə əmin olmalı, əsla şübhəyə düşməməlidir. Allah istəsə, insanı imtahan etmək üçün duaya dərhal qarşılıq verməyə bilər, ya da Allah insanın qarşılaşdığı sıxıntısını dərhal ortadan qaldırmaya bilər. Mömin bunda da Allahın təqdir etdiyi bir çox xeyir və hikmət olduğunu bilməli, həyatının sonuna qədər bir an belə şübhəyə düşmədən Allaha güvənməyə, Allaha dua etməyə, yardımı Allahdan istəməyə davam etməlidir.



# Fosillər Təkamülü TƏKZİB EDİR



Günəş balığı (Coris Julis) fosili
Dövr: Eosen
Tapıldığı yer: Green River
Formalaşması: Kemmerer, Wyoming, ABŞ

54-37 milyon illik günəş balığı fosili. Dövrümüzdə dənizlərdə günəş balıqlarının bir çox növü yaşayır. Rəsmdəki günəş balığı fosili bu canlıların təkamül keçirmədiyini sübut edir. Aradan milyonlarla il keçməsinə baxmayaraq balığın fiziologiyasında heç bir dəyişiklik baş verməmişdir. 55 milyon il əvvəlki günəş balıqlarının görünüşü və forması dövrümüzdəkilərlə eynidir.



Budaqlı qarağac yarpağı
Dövr: Sinozoy, Eosen dövrü
Yaş: 54-37 milyon il
Formalaşması: Cache Creek, Kanada

Fosil qeydlərində bir bitki növünün kiçik dəyişikliklər nəticəsində başqa bir bitkidən təkamül yolu ilə əmələ gəldiyini göstərən heç bir nümunə də yoxdur. Tapılmış saysız-hesabsız fosil nümunəsi bitkinin özünəməxsus xüsusiyyətlərlə yaradıldığını və mövcud olduğu müddət boyu hər hansı dəyişikliyə məruz qalmadığını göstərir. Bu faktı dəstəkləyən tapıntılardan biri də rəsmdəki 54-37 milyon illik budaqlı qarağac yarpağı fosilidir.

## Fosil nədir?

**Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.**
**Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.**
**Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar.**
**Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.**



Su böcəyi (Hydrophilidae) fosili
Yaş: 108-92 milyon il
Dövr: Kretas
Tapıldığı yer: Crato (formalaşma), Ceara, Braziliya
Su böcəkləri əsasən suda yaşayırlar. Şimali Amerikada 500, dünyada isə 5000 növü var. Su üzündə qanadlarının altında hava qabarcığı əmələ gətirir, suyun altında bundan istifadə edib nəfəs ala bilirlər. Çox kompleks sistemlərə malik olan bu canlılar milyon illərdən bəri eyni qüsursuz xüsusiyyətlərə malikdirlər. Rəsmdəki 108-92 milyon illik su böcəyi fosili bu canlıların milyon illər ərzində dəyişmədiyini, yəni təkamül keçirmədiyini sübut edir.



# Hz. Mehdinin (ə.s) REALLAŞAN Zühur Əlamətləri

*Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) qiyamətdən əvvəl baş verəcək əlamətləri 1400 il bundan əvvəl hədislərdə ətraflı şəkildə təsvir etmişdir. Hədislərə görə, müharibələr, hərc-mərclik, yoxsulluq, cinsi degenerasiya, təbii fəlakətlər çoxalacaq, insanlar gözəl əxlaqdan uzaqlaşacaq və saxta peyğəmbərlər ortaya çıxacaq. Bütün bunlardan sonra Allah hz. Mehdi vasitəsi ilə İslam əxlaqını bütün dünyaya hakim edəcək.*

Qiyamət günü dünya həyatının son günü olmaqla yanaşı, axirətdəki sonsuz həyatın da başlanğıcıdır. Qiyamət günü yaşanacaq bir-birindən dəhşətli hadisələr zamanı Allahın qüdrəti bütün insanlar tərəfindən dərk ediləcək.

Peyğəmbərimizin (s.ə.v) hədislərində qeyd edilən bu məlumatların həqiqi olmasını bizə göstərən ən əhəmiyyətli dəlil bu hadisələrin vaxtında, tam təsvir edildiyi kimi və bir-birinin ardınca baş verməsidir. Hədislərdə bildirilən bir çox əlamət 1979-cu ildən (hicri təqvimi ilə 1400-cü il) dövrümüzə qədər bir-birinin ardınca baş vermişdir.

## Əfqanıstanın Rusiya tərəfindən işğalı (1979)

***"Taliqana (Əfqanıstana) heyif oldu. Şübhəsiz, Allahu-təalanın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allahı haqqı ilə tanıyan insanlar vardır. Onlar axır zamanda hz. Mehdinin köməkçiləridir". (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 59)***

Hədisdə Əfqanıstanın axır zamanda işğal olunacağına işarə edilir. Həqiqətən də rusların Əfqanıstanı işğalı 1979-cu il – hicri 1400-cü ildə, digər bir ifadə ilə hicri 14-cü əsrin başlanğıcında da baş vermişdir. Həmçinin bu rəvayətdə Əfqanıstanın maddi zənginliklərinə diqqət çəkilmişdir. Bu gün Əfqanıstanda müxtəlif səbəblərə görə istifadə edilməyən böyük neft yataqları, dəmir hövzələri və kömür mədənləri aşkar edilmişdir.




*Qiyamət əlamətləri bir-birini izləyərək meydana gələr. Boyunbağdakı muncuqların ardıcıl qopması kimi. (Ramuz əl-əhadis, 277/6; Camiüs-səqir, 3/167)*

## Kəbədə qan axıdılması (1979)

***“Onun çıxacağı il insanlar həccə başlarında bir əmir olmadan gedəcəklər... Birlikdə Beyti-şərifi təvaf edəcəklər, sonra Minaya endiklərində bir-birinə hücum edəcək, hacılar soyulacaq, qanlar Akabə cəmrəsinin (şeytan daşlanan yer) üzərinə axacaq”. (Qiyamət əlamətləri, səh. 168-169)***

“İnsanlar başlarında bir imam olmadan həccə gedərlər. Minaya endiklərində böyük döyüşlər olar. Belə ki, ayaqlar qan gölü içində qalar”. (Kitabül-bürhan fi əlamətil- Mehdiyyil-axır zaman, səh. 35)

Hədislərdə “onun çıxacağı il” cümləsindən istifadə edilərək hz. Mehdinin çıxış tarixində həcc əsnasında meydana gələcək bir qırğına diqqət çəkilmişdir. 1979-cu ildə həcc ziyarəti zamanı baş verən Kəbə basqınında eyni ilə belə bir qırğın yaşanmışdır. Çox maraqlıdır ki, bu qanlı Kəbə basqını da axır zamanın başlanğıcının və hz. Mehdinin çıxışının digər əlamətlərinin reallaşdığı dövrün düz əvvəlində, yəni hicri 1400-cü ilin ilk günündə - məhərrəm ayının 1-i 1400-cü il (21 noyabr, 1979) tarixində meydana gəlmişdir.

Hədisdə qanların axacağından bəhs edilərək ölüm hadisəsinə diqqət çəkilmişdir. Basqın əsnasında Səudiyyə əsgərləri ilə təcavüzkar məmurlar arasında meydana gələn döyüşdə 30 nəfərin öldürülməsi bu rəvayətin qalan hissəsini də təsdiq etmişdir.

## İran-İraq müharibəsi (1980)

***Şəvval ayında qiyam, zilqədədə hərb danışıqları, zilhiccədə isə hərb baş verəcək”. (Qiyamət əlamətləri, Bərzənci, səh. 166)***

Hədisdə göstərilən şəvval, zilqədə və zilhiccə ayları İran-İraq müharibəsinin qızğın vaxtları ilə eyni tarixə düşür. Məlum olduğu kimi, İran şahına qarşı ilk qiyam hədisdə göstərilən 5 şəvval, 1398-ci ildə (8 sentyabr, 1976) olmuşdur. Hicri 1400-cü ilin zilhiccə (1980 oktyabr) ayında İran-İraq arasındakı müharibə artıq başlamışdır.

## Zəlzələlərin çoxalması

***“Bu hadisələr meydana gəlmədikcə qiyamət qopmayacaq... zəlzələlər çoxalacaq...”. (Ramuz əl-əhadis, 476/11)***

***“Qiyamətdən əvvəl iki böyük hadisə vardır... və sonra da zəlzələli illər”. (Ramuz əl-əhadis, 187/2)***

Son bir neçə il ərzində meydana gələn böyük və aramsız zəlzələlər dünya ictimaiyyətinin gündəmində ilk sıralarda yer almışdır. Amerikan Milli Zəlzələ İnformasiya Mərkəzinin məlumatlarına baxsaq, 1999-cu ildə dünyada



*“Mehdinin zühurundan əvvəl bir ramazan içində Günəş iki dəfə tutulacaq”. (Ölüm-qiyamət-axirət və axır zaman əlamətləri, səh. 440)*

*“... Günəşin oruc ayının ortasında, Ayın isə sonunda tutulması...”. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 37)*

*Tozlu, dumanlı, qaranlıq bir fitnə görünəcək; bunu digərləri təqib edəcək... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 26)*

20.832 zəlzələ qeyd edilmişdir. Bu zəlzələlərdə təxminən 22.000 insan həyatını itirmişdir. (Əfqanıstan və İndoneziya zəlzələlərində ölən təxminən 500 min nəfər bu statistikaya daxil edilməmişdir)

Amerika Milli Zəlzələ İnformasiya Mərkəzi tərəfindən aparılan hesablamalara görə,1556-cı il ildən 1975-ci ilə qədər 400 illik dövrdə meydana gələn zəlzələ sayı: 110 (5.0 baldan yüksək)
1980-cı idənl ilə 2003-cü ilə qədər 23 illik dövrdə meydana gələn zəlzələ sayı: 1685 (6.5 baldan yüksək)

Bununla yanaşı, 400 ildə qeydiyyatda olan zəlzələrin sayı 110 olsa da, hz. Mehdinin çıxış əlamətlərinə işarə edən 23 illik dövrdə 1685 zəlzələ qeydə alınmışdır.
(Geological Survey National Earthquake Information Center, “Earthquake Facts and Statistics”, 2000, http://wwwneic.cr.usgs.gov/neis/eqlists/eqstats.html http://wwwneic.cr.usgs.gov/neis/bulletin/1999_stats.html)

## Ramazan ayında Günəş və Ay tutulmaları (1981-1982)

***“Mehdi üçün 2 əlamət vardır ki... Bunun birincisi, ramazanın birinci gecəsi Ayın, ikincisi isə ayın ortasında Günəşin tutulmasıdır”. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 47)***

***“Ramazanın birinci gecəsi Ay, ortasında Günəş tutulacaq”. (Qiyamət əlamətləri, səh. 199)***

***“Onun səltənəti dövründə ramazan ayının on dördündə Günəş tutulacaq, o ayın birincisində isə Ay qaralacaq...”. (Məktubati-Rəbbani, 380-ci məktub, 2/1163)***



***"Mehdinin zühurundan əvvəl bir ramazan içində Günəş iki dəfə tutulacaq". (Ölüm-qiyamət-axirət və axır zaman əlamətləri, səh. 440)***

***"... Günəşin oruc ayının ortasında, Ayın isə sonunda tutulması...". (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 37)***

***"Ramazanda iki dəfə Ay tutulması olacaq". (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 53)***

***"Mehdinin gəlişi ramazan ayında Ayın iki dəfə tutulmasına səbəb olacaq". (Qiyamət əlamətləri, səh. 200)***

Yuxarıdakı rəvayətlərdə diqqəti cəlb edən ən əhəmiyyətli nöqtələr ramazan ayının ortasında həm Günəş tutulması, həm də bir ay içində Ayın və Günəşin iki dəfə tutulmasıdır.

Əgər bu hədislərdə təsvir edilən hadisələr diqqətlə araşdırılsa, rəvayətlərdə müxtəlif fərqlərin olduğu görünər. Yuxarıdakı 1, 2 və 3-cü rəvayətlərdə Ayın ramazanın birinci günü, 4-cü rəvayətdə isə sonuncu günü tutulacağı bildirilmişdir. Bu halda eyni hadisəyə işarət edən fərqli rəvayətlərin ortaq yönləri təsbit edilməlidir. Buna görə, yuxarıdakı hədislərin cəmindən çıxan ortaq nəticələr bunlardır:

***1. Ramazan ayında Ay və Günəş tutulmaları olacaq.***
***2. Bu tutulmalar orta hesabla 14-15 gün ara ilə olacaq.***
***3. Bu tutulmalar iki dəfə təkrarlanacaq.***

Bu təsbitlərə uyğun 1981-ci ildə (hicri 1401-də) ramazan ayının 15-ci günü Ay, 29-cu günü də Günəş tutulmuşdur. Yenə "ikinci olaraq" 1982-ci ildə (hicri 1402-də) ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Bundan başqa, bu hadisədə Ayın ramazanın tam ortasında bədr (14 gecəlik ay) halında tutulması və insanların diqqətini çəkən bir əlamət olaraq meydana çıxması da çox mənalıdır.

Bu hadisələrin hz. Mehdinin digər zühur əlamətləri ilə eyni dövrdə meydana gəlməsi və hicri 14-cü əsrin əvvəllərində ard-arda iki il (1401-1402) möcüzəvi şəkildə təkrar-lanması rəvayətlərin işarəsinin bu hadisələr ola biləcəyini qüvvətləndirir.

## Tozlu, dumanlı fitnə (2001)

***Tozlu, dumanlı, qaranlıq bir fitnə görünəcək; bunu digərləri təqib edəcək... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 26)***

Bu hədisdə hz.Mehdinin çıxışından əvvəl tozlu, dumanlı və qaranlıq bir fitnənin görünəcəyindən bəhs edilir. Fitnə sözünün "insanın ağlını və qəlbini birbaşa haqq və həqiqətdən azdıran, müharibə, qarışıqlıq, ixtilaf, döyüş" kimi mənaları var. Hədisdə bu fitnənin arxasında toz və duman buraxacağı ifadə edilir. Bundan əlavə, bu fitnənin "qaranlıq" olaraq xarakterizə edilməsi haradan gəldiyi müəyyən olmayan, gözlənilməyən bir hadisə olduğuna işarə ola bilər.

Bu nöqteyi-nəzərdən baxıldığında həmin hədisin 11 sentyabr, 2001 tarixində ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində meydana gələn, dünya tarixinin ən böyük terror hadisəsi kimi xarakterizə edilən hücuma işarə etməsi mümkündür. Televiziya ekranlarından və qəzetlərdən də göründüyü kimi, bu iki böyük terror hadisəsindən sonra böyük toz buludu və duman ətrafı bürümüşdür.



Nyu-Yorkda Dünya Ticarət Mərkəzinə və Vaşinqtonda Pentaqon binasına çırpılan təyyarələrin yanacaqlarının səbəb olduğu partlayışlar nəticəsində böyük bir duman meydana gəlmiş və bu duman şəhərin hər yerindən və hətta ətraf şəhərlərdən görünə biləcək qədər yüksəlmiş və yayılmışdır. Partlayışlar nəticəsində çökən binalar isə daha böyük bir toz buludunun meydana gəlməsinə səbəb olmuş, hətta ətrafdakı insanlar tamamilə bu tozla örtülmüşdür.

Bu hadisə həm dünya tarixinin ən böyük terror hücumlarından biri olması, digər əlamətlərlə yaxın dövrlərdə baş verməsi, həm də hədisdə verilən tərifə bənzər xüsusiyyətləri ehtiva etməsinə görə çox əhəmiyyətlidir. Bu səbəbdən, minlərlə günahsız insanın ölümünə və yaralanmasına səbəb olan insanlıq tarixinin bu dəhşətli terror hadisələrindən biri hədisdə xəbər verilən və hz.Mehdinin zühurunun bir əlaməti olaraq bildirilən "tozlu dumanlı, qaranlıq fitnə" ola bilər. (Ən doğrusunu Allah bilir)

## Bağdadın alovlarla yox edilməsi

***Axır zamanda Bağdad alovlarla yox edilər... (Risalətül-xürucul-Mehdi, cild 3, səh. 177)***

2003-ci il İraq müharibəsində müharibənin ilk günündən etibarən Bağdad ən çox bombardman edilən şəhərlərdən biri olmuşdur. Ağır bombardman gecə vaxtları Bağdadın eynilə hədisdə xəbər verildiyi kimi, alovlanıb yanmasına səbəb olmuşdur. Bağdadın qəzet və televiziya xəbərlərində əks olunan görüntüləri yuxarıdakı hədisdə diqqət çəkilən hadisə ilə tam eynilik təşkil edir. Bu da axır zamanda olduğumuzu göstərən açıq əlamətlərdən biridir.

## İraqın üç yerə bölünməsi

***İraq xalqı üç firqəyə ayrılar. Bir qismi soyğunçulara qatılar. Bir qismi ailələrini tərk edib qaçar. Bir qismi döyüşər və öldürülər. Siz bunları gördüyünüz vaxt qiyamətə hazırlaşın. (Fəraidu-fəvaidil-fikr fil imam əl-Mehdi əl-müntəzər)***

Axırzaman əlamətlərindən biri də İraq xalqının üç yerə ayrılmasıdır. Hədisdə xəbər verildiyinə görə, xalqın bir qrupu "soyğunçulara" qatılacaq. İraqda müharibədən sonra çoxlu soyğunlar edilmiş, xalqın bir qismi oğurluq, talan kimi "soyğunçuluq" olaraq adlandırılan işlərlə məşğul olanlara qoşulmuşdur.



***"Qabın su ilə dolması kimi yerüzü də sülhlə dolacaq". Səhih-i Müslim, 1/136***

***"Var-dövlət o qədər çoxalacaq ki, heç kim mal qəbul etməyəcək". Sünən-i Ibn-i Macə, 10/340***

Hədisdə xalqın bir hissəsinin olduqları yerdən təcili qaçmağa başlayacaqları, hətta ailələrini belə düşünə bilməyəcək halda olacaqları xəbər verilmişdir. Qəzetlərdə bu barədə yer alan xəbərlər diqqəti çox cəlb edir.

Xalqın bir hissəsinin müharibəyə qatılacağı və öldürüləcəyi bildirilir. İraq müharibəsi əsnasında da bir çoxları müxtəlif bölgələrdəki qarşıdurmalara qatılmış və həyatını itirmişdir.

Bundan əlavə, hədisin ilk hissəsində diqqət çəkilən "İraqın üç yerə bölünməsi" mövzusu fiziki mənada da reallaşmışdır. Körfəz müharibəsindən sonra İraq coğrafi olaraq üç hissəyə bölünmüşdür. 32-ci və 36-cı paralellərin arası, 32-ci paralelin cənubu və 36-cı paralelin şimalı olaraq təyin olunan bu üç bölgənin yaradılması hədisin işarə etdiyi hadisələrdən biri ola bilər. (Ən doğrusunu Allah bilir)

**Zühur vaxtı və əlamətləri Peyğəmbərimizin (s.ə.v) hədislərindən açıq şəkildə məlum olan hz. Mehdi İslam dünyasını birləşdirəcək, Quran əxlaqının dünyaya hakim olmasına səbəb olacaq.**



# Müsəlmanlara BİRLƏŞMƏK VACİB



Müsəlmanların birliyi yalnız mövcud gərgin vəziyyətin sona çatması üçün lazım olan siyasi tələbat deyil, eyni zamanda müsəlman olmağın tələblərindən biridir. Müsəlmanlar həyatlarının hər anında olduğu kimi, daxili və beynəlxalq siyasətdə də Quran əxlaqına uyğun hərəkət etməlidirlər. Quran əxlaqı isə İslam dünyasının ittifaq etməsini tələb edir. Quran əxlaqının prinsip olaraq mənimsənilməsi bu ittifaqın daimi olmasını və gözlənilən aktiv rolun yerinə yetirməsini təmin edəcəkdir.

İslam əxlaqı müsəlmanların daim bir yerdə, həmrəylik və birlik içində din qardaşları olmasını tələb edir. Allah Quranda möminlərə **"bir-birinizlə çəkişməyin" (Ənfal surəsi, 46)** əmrini verir və bunun müsəlmanları zəiflədəcəyini bildirir. Bir başqa ayədə də bu şəkildə əmr edilir:

**Açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf törədənlər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar. (Ali-İmran surəsi, 105)**

Vicdan və ağılla hərəkət edən, öz mənfəətlərini deyil, ədaləti əsas götürən möminin digər iman edənlərlə ittifaqı təmin edə bilməməsi, daimi anlaşılmazlıq içində olması mümkün deyil. Bu, ayrı-ayrı fərdlər üçün əsas meyar olduğu kimi, cəmiyyətlər və millətlər üçün də əsas meyardır. Allah Quranda müsəlman cəmiyyətlərin bir-birilərinə qarşı ədalətsizlik və düşmənçilik etməsini qadağan etmişdir. Quranda belə hərəkət edənlərin qarşısının alınması və fərqli müsəlman cəmiyyətlərin "uzlaşdırılması" bildirilmişdir:

**Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə qayıdana qədər vuruşun. Qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər! (Hucurat surəsi, 9)**

Əlbəttə, hər müsəlman cəmiyyət arasında regional, mədəni və ənənə

# AYRILMAQ HARAMDIR

baxımından bəzi anlayış və metod fərqləri ola bilər. Fərqli şərhlərin, fərqli fikirlərin, fərqli məzhəblərin olması təbiidir. Lakin bu fərqliliklərə görə bir müsəlman cəmiyyətin və ya qrupun digərinə qarşı çıxması, onunla dialoqu kəsməsi, ortaq dəyərlərdə razılaşma əldə edə bilməyib digərini yad, hətta rəqib kimi görməsi düzgün deyil.

Allah Quranda müsəlmanları bu səhvə yol verməmələri üçün xəbərdar etmiş və kitab əhlinin bu barədə səhvlərini də ibrət olaraq göstərmişdir. Quranda kitab əhlinin (xristian və yəhudilərin) səhvləri bildirilərkən bu cəmiyyətlərin öz aralarında parçalanıb ayrılığa düşmələri də ifadə edilir. “Beyyinə” surəsinin 4-cü ayəsində kitab əhlinə açıq-aşkar dəlillər gəldiyinə baxmayaraq, təriqətlərə ayrıldıqları xəbər verilir. Digər ayələrdə isə bu ayrılmanın səbəbləri arasında “aralarındakı zülm və həsəd”, “paxıllıq”, “haqqa baş qaldırma” kimi pis əxlaq xüsusiyyətləri göstərilir. Bu ayələrdən bəziləri belədir:

**Onlara məhz elm gəldikdən sonra, öz aralarındakı paxıllıq ucbatından, ixtilafa düşdülər…. (Şura surəsi, 14)**

**Həqiqətən, Allah dərgahında din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, (bilsin ki,) Allah tez haqq-hesab çəkəndir. (Ali-İmran surəsi, 19)**

Kitab əhli tarixində çoxsaylı böyük qarşıdurmalar olması bu ayrılıqlar səbəbindəndir. Xristianlığın ilk 1600 illik tarixi bir-birləri ilə mübahisə edən fərqli xristian məzhəblərinin tarixi sayıla bilər. Hətta bu məzhəblər təfsirlərdəki kiçik fərqlərə görə bir-birilərini inkarçılıqda günahlandırırdılar. Bu çəkişmələr dövründə Roma katolik kilsəsi üstünlük əldə etmiş, ancaq sonrakı əsrlərdə həmin kilsə “azğın” (heretik) saydığı fərqli dini məzhəblərə (bunlar arasında dosetism, montanizm, adoptionizm, sabelianizm, arianizm, pelagianizm və gnostisizm sayıla bilər) qarşı böyük təzyiqlər etmişdir. Papanın 11-ci əsrdən etibarən katharlar və bogomillər kimi fərqli dini cərəyanlara qarşı göstərdiyi təzyiqlər, eləcə də protestantlarla katoliklər arasında baş verən və bir əsrdən çox davam edən qanlı döyüşlər Avropa tarixinin ən qaranlıq dövrünə düşür. Maraqlısı odur ki, Avropa mədəniyyətinin yüksəlişi ancaq həmin münaqişələrin bitməsindən sonra başlamışdır. Siyasi tarixçilərin qəbul etdiyi kimi, müasir Avropa fərqli xristian məzhəblərinin bir-birlərinə qarşı dözümlülük göstərməsini əsas götürən məşhur Vestifalia sülhündən (1648) sonra qurulmuşdur.

İnsanların dində parçalanmasının əsasında Allahın əmr etdiyi əxlaqı lazımi şəkildə yaşamamaları dayanır. Bu əxlaq təvazökarlığı əsas götürür. Təvazökarlıqdan uzaqlaşanlar özlərinin və fikirlərinin mütləq doğru olduğuna inanır, fərqli düşünənləri aşağı səviyyəli hesab edərək onlara düşmən münasibəti bəsləyirlər. Fikirlərinin doğru olduğundan heç şübhə etmədikləri üçün özlərini heç bir zaman hesaba çəkmir və inkişaf edə bilmirlər. Yalnız öz fikrini bəyənib bununla öyünənlərin vəziyyətinə Quranda **“… onlar işlərini öz aralarında (fərqli) kitablar halında böldülər; hər bir qrup, öz əllərində olanla kifayətlənib sevinməkdədir” (Mumi-nun surəsi, 53)** ayəsində diqqət çəkilmişdir. Allahdan qorxub çəkinənlər və axirət günündə hesab

***Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz (bir-birinizə) düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində (bir-birinizlə) qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz. (Ali İmran surəsi 103)***



verəcəyinə iman edənlər bu vəziyyətdən çəkinib qorunmalıdırlar. Bu mövzunun əhəmiyyətini dərk edənlər digər möminləri də parçalanmaqdan, dağılmaqdan, ayrılmaqdan çəkindirməli, müsəlmanların Quran əxlaqına uyğun ittifaq etmələrini təmin etmək üçün cəhd göstərməlidirlər.

Nümunəvi müsəlmanlar insanlara Rəbbimizin təcəllisi olaraq sevgi, mərhəmət və şəfqətlə baxarlar. Özlərilə eyni inancı paylaşan, Qurana iman edən, Allahın əmrlərini yerinə yetirən və Peyğəmbərimizin (s) sünnəsinə tabe olanları, eləcə də əhli-beyti sevənləri qardaşları olaraq görər, bir-birlərinin vəliləri olduqlarını unutmazlar. Əsas məsələ fərqli müsəlman toplulupları arasında mümkün mədəni və ənənəvi fərqi və bəzi fikir ayrılıqlarını ön plana çıxarıb ixtilafa zəmin hazırlamaq əvəzinə, Quran əxlaqını yaşamaqla ittifaqı dəstəkləməkdir. Müsəlmanlar ittifaqda bir-birlərini dəstəkləməli, ixtilaflı mövzularda da xoşgörülü olmalı, anlayışlı davranmalıdırlar.

Yuxarıda da qeyd etdiyimiz kimi, xüsusilə bu mövzunun əhəmiyyətinin fərqində olan səmimi müsəlmanlar və İslam dünyasının qabaqcıl ziyalıları bu sahədə səy göstərməli, müsəlmanlar arasında birlik və bərabərliyi təşviq etməlidirlər. Müsəlman dünyası içində sevgi, hörmət, mərhəmət, xoşgörüşə (tolerantlığa) əsaslanan həmrəylik qurmalıdırlar.

Bir daha xatırlatmaq lazımdır ki, İslam əxlaqında ixtilaf və ayrılıqları deyil, inanc birliyini və ümumi dəyərləri əsas götürən anlayış mövcuddur. Haqq dinə uyğun davranmaq və ayrılığa düşməkdən çəkinmək Rəbbimizin bütün inananlara əmridir. Allah ayədə bu şəkildə buyurmuşdur:

**Allah: "Dini doğru-dürüst tutun, onda ayrılığa düşməyin!" – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya, və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin müşriklərə ağır gəldi. Allah istədiyi kimsəni özünə seçər və tövbə edib Ona tərəf qayıdan kimsəni də doğru yola yönəldər! (Şura surəsi, 13)**



# Bir Ayə Bir Açıqlama

"Quran oxunan zaman onu dinləyin və susun ki, (onun sayəsində) sizə rəhm olunsun! ." (Əraf Surəsi, 204)

Ayədəki qəti ifadədən də aydın olduğu kimi, Quran oxunarkən susub dinləmək Allahın fərz etdiyi davranışdır. Ayənin davamındakı ifadədən də bu əmrə diqqətlə yanaşmağın möminlərə rəhm olunmasına səbəb olacağı görünür.

Qurani-kərim Allahın sözüdür. Buna görə, Allahın Zatına göstərilməli olan hörmət eyni şəkildə Allahın sözünə qarşı da göstərilməlidir. Bu hörmətin bir göstəricisi Allahın sözünü eşitdikdə susub, o sözə qulaq asmaqdır. Qurana istər ərəbcə, istər azərbaycanca, istərsə də, fərqli bir dildə oxunduqda eyni hörmətin göstərilməsi vacibdir.

Cəmiyyətdə insanların çoxu Allahın bu əmrini bilmir. Televiziyada və ya radioda Quran oxunarkən insanlar gündəlik işlərini görür, bir tərəfdən də söhbət edirlər. Lakin bu zaman susub dinləmək lazımdır. Əgər səssizlik təmin edilə bilmirsə, o zaman televiziya və ya radio söndürülə bilər. Çünki əksini etmək Allahın fərz etdiyi bir hökmü yerinə yetirməmək olur. Bəzi yerlərdə isə heç kim dinləmədiyi halda, arxa planda kasetdən və ya radiodan davamlı Quran oxunması əhəmiyyətli ibadət və təqva əlaməti hesab olunur. Hər kəsin fərqli işlərlə məşğul olduğu mühitdə xəbər vermədən Allahın ayələrini oxumaq, yaxud oxunmasına səbəb olmaq insanların istəmədən bu ayənin hökmünə girməsinə səbəb ola bilər. Bu səbəblə, lazımi mühiti təmin etmədən Allahın kəlamını oxumaq Qurana uyğun davranış deyil.

Unutmaq olmaz ki, Quran hörmətlə hər sözünün diqqətlə dinlənməsi, yadda saxlanması, üzərində düşünüb öyüd alınması və tabe olunması lazım olan "üstün və şərəfli" kəlamdır.

# Səhvi ÖZÜNDƏ axtarmaq gözəl əxlaqın göstəricisidir

Adətən, insanlar bir problemlə qarşılaşdıqları zaman səhvi öncə özlərində deyil, qarşı tərəfdə axtarmağa meyillidirlər. Belə düşündükləri təqdirdə, həqiqətən özlərini haqlı çıxarmağa çalışaraq dəlillər də tapmağa cəhd göstərirlər. Bu dəlillərə əsaslanaraq hadisələri və ya mövzuları birtərəfli şəkildə qiymətləndirirlər.

Halbuki çox vaxt hər hansı bir hadisədə hər iki tərəfin də haqlı olduğunu göstərən dəlil tapmaq çətin deyil. Bəzən bir insan tam haqlı ola bilər. Amma çox vaxt az da olsa qarşı tərəfin də özünə görə haqlı olduğunu düşünə biləcəyi bir səbəb var. Bu az bir hissə də nə qədər cüzi olsa belə onun tamamilə haqlı olduğuna inanması üçün kifayətdir. Az da olsa haqlılığına dair bir dəlil olması digər tərəfin daha çox haqlı olduğuna aid dəlilləri görə bilməməsinə səbəb olur.

Bəzən də iki fərqli aspektdən yanaşdıqda bir hadisənin iki fərqli tərəfi ola bilər. Məsələn, bir nəfər uzaqdan baxdıqda birini yemək yeyərkən gördüyünü sanır. Halbuki burada göz yanılması var. Yaxından baxdığı zaman əslində hə-min insanın yalnız yeməkdən bir qaşıq götürüb qoxuladığını, sonra isə yerinə qoyduğunun fərqinə varır. Bəzən insanlar bu cür vəziyyətdə qarşı tərəf haqqında məlumatsız olduqlarından öz bildiklərində israr edə və hətta digər tərəfi doğru danışmamaqda ittiham edə bilərlər.

Bəzən də bir insan tamamilə haqlı ola bilər. Amma buna baxmayaraq, qarşı tərəf bəzən qürurundan, bəzən nəfsini müdafiə etdiyindən və ya hirsindən tam əksini iddia edə bilər.

Bu vəziyyətlərdə ən gözəl davranış, insanın haqlı olmasına baxmayaraq səhvi əvvəlcə özündə axtarmasıdır. Bu, hər şeydən öncə Quran əxlaqının tələbidir. Yəni təvazökarlığın, səmimiyyətin, nəzakətin tələbidir. İnsan nə qədər haqlı olursa olsun, qarşı tərəfi birbaşa günahlandıran üslubdan istifadə etməməlidir. Allah möminlərə bir-

biriləri üçün "sözün ən gözəlini söyləmələrini" bildirir və bu cür vəziyyətlə qarşılaşarkən gözəl olan davranış qarşı tərəfi təhqir edərək və ya əsəbləşərək haqlı olduğunu sübut etmək deyil. Mömin mütləq təvazökar üslubla "mən səhv etmiş ola bilərəm", "yəqin mənə elə gəlib ", "mən unutmuş və ya yanılmış ola bilərəm", "səhv xatırlaya bilərəm" və s. kimi səmimi üslublarla əvvəlcə səhvin səbəbini özündə axtarar.

Həqiqətən də insan acizdir. O, çox rahatlıqla unuda, yanıla bilər, hadisələri, adları bir-birilə qarışdıra bilər. Bu səbəbdən, aciz olduğu halda, özünün səhvsiz olduğunu iddia etməz.

Həmçinin mömin əxlaqında nəzakət çox böyük əhəmiyyət kəsb edir. Bir mövzuda doğru olanı müdafiə etmək qarşı tərəfi incitmək, narahat etmək, çaxnaşma və ya mübahisə mühiti yaratmaq demək deyil. Mömin xatırlatma və ya tənqid etdiyi zaman, yaxud da həqiqəti söylədiyi zaman mütləq qarşı tərəfi ən az narahat edəcək tərzdə, mühiti gərginləşdirməyən, mübahisə yaratmayan və mülayim bir üslub seçməlidir.

Həmçinin belə bir əxlaq göstərərkən, yəni haqlı olduğu zaman səhvi öz üzərinə götürən insan təvazökar, sevgi dolu bir üslubla yaxınlaşarsa, səhvi olan insan da qarşılaşdığı bu gözəl davranışdan utanıb eyni təvazökarlıqla cavab verməyə cəhd edər. Belə bir davranış səhvi olan insanın öz səhvini çox asanlıqla görüb qəbul etməsinə gözəl zəmin hazırlayır. Bu səbəbdən, müsəlman, əxlaqı ilə gözəl nümunə olaraq qarşı tərəfin də eyni əxlaqla hərəkət etməsinə səbəb olar. Hirslənərək, mübahisə edərək qarşı tərəfə haqlı olmadığını göstərməkdənsə, bu səmimi əxlaqın yaşanması Allahın diləməsilə daha gözəl bir nəticəyə səbəb verə bilər.

**Bəndələrimə de, gözəl sözlər söyləsinlər! Şeytan onların arasına fitnə-fəsad sala bilər. Həqiqətən, şeytan insanın açıq-aşkar düşmənidir! ( İsra surəsi 53 )**

**Yaxşılıqla pislik eyni ola bilməz! Sən (pisliyi) yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!**
**( Fussilət surəsi 34 )**







# Kainatın Yaradılışı



İnsanlar əslərdir ki, «kainat necə yaranıb?» sualına cavab axtarırlar. Tarix boyunca bununla bağlı minlərlə nəzəriyyə irəli sürülüb. Lakin bu nəzəriyyələr araşdırılanda bəlli olur ki, hamısı təməldə iki modeldən birinin üzərində qurulub. Bunlardan biri artıq heç bir elmi dayağı və əsası olmayan «sonsuz kainat», ikincisi isə hazırda bütün elmi dairələrdə qəbul olunan «böyük partlayış» modelidir. Birinci model kainatın başlanğıc və sonunun olmadığını, ikincisi isə əksinə, böyük bir partlayış nəticəsində yarandığını və fasiləsiz genişləndiyini nəzərdə tutur.

Kainatın sonsuzluğu fikri həmişə dinsizliyin və Allahı inkar edən ideologiyaların dayaq nöqtəsi olub. Çünki kainatın başlanğıcının və sonunun olmaması haqqında müddəalar eyni zamanda onu yaradanın da olmaması fikrinə gətirib çıxarırdı. Amma elmin inkişafı materialistlərin bu iddialarının əsassız olduğunu sübut edərək, kainatın «Böyük partlayış» adlandırılan proses nəticəsində yoxdan var edildiyini tutarlı arqumentlərlə ortaya qoydu. Yoxdan var edilmənin isə bir adı var: Yaradılış! Yəni bütün kainat sonsuz qüdrət sahibi olan Allah tərəfindən yaradılıb.

**Kainatın genişlənməsi və «Big bang» həqiqəti**

XX əsrdə Astronomiya elmi xeyli inkişaf etdi. Əvvəlcə 1922-ci ildə rus fiziki Aleksandr Fridman kainatın durğun (statistik) quruluşa sahib olmadığını aşkar etdi. Eynşteynin nəzəriyyələrinə əsaslanan Fridman hesabladı ki, kainat hərəkətdədir və bu hərəkət genişlənmə, yaxud yığılma ola bilər. Fridmanın hesablamalarının əhəmiyyətini dərk edən ilk alim isə Belçikanın ən məşhur astroloqu Corc Lemetr (Georges Lemaitre) oldu. Lemetr dəqiqləşdirdi ki, kainatın bir başlanğıcı olub və həmin başlanğıcdan bəri müntəzəm şəkildə genişlənir. Belçikalı alimin fikirlərindəki daha bir önəmli məqam isə o idi ki, həmin başlanğıc anındakı partlayışdan «artıq» qalan radiasiya olmalıydı və bu hesablana bilərdi. Lemetr əvvəlcə elmi dairələrdə ciddi qarşılanmayan və dəstək almayan bu fikirlərin doğruluğuna əmin idi. Çünki kainatın genişlənməkdə olmasına dair başqa arqumentlər də bir-bir ortaya çıxırdı.

Bu arada Edvin Habbl (Edwin Hubble) adlı amerikalı astronom nəhəng teleskopla səmanı incələyərkən ulduzların uzaqlaşmaları ilə bağlı olaraq qırmızımtıl işıq yaydıqlarını üzə çıxardı. O, Kaliforniyadakı Maunt Vilson (Mount Wilson) rəsədxanasındakı bu kəşfi ilə sabit kainat nəzəriyyəsini ortaya atan və illərlə dəstəkləyən bütün elm adamlarına meydan oxuyaraq həmin təsəvvürləri kökündən sarsıtdı. Habblın kəşfi göstərirdi ki, müşahidənin aparıldığı nöqtəyə doğru hərəkət edən işığın spektri bənövşəyi, uzaqlaşan işığın spektri isə qırmızı rəngə doğru dəyişir. Yəni Kaliforniyadakı Maunt Vilson rəsədxanasından izlənən ulduzlar Yer kürəsindən uzaqlaşmaqda idilər. Məntiqi olaraq başa düşmək çətin deyil ki, ulduzlar təkcə bizdən yox, həm də bir-birlərindən uzaqlaşırlar. Bu isə elə kainatın genişlənməsi



deməkdir!

Kainatın genişlənməsilə bağlı faktlar artdıqca yeni iddiaların da ardı-arası kəsilmirdi. Bu həqiqəti əsas tutaraq yola çıxan elm adamları Lemetrin dediyi kimi, «zamanı geriyə fırladanda» getdikcə kiçilən, sonda nöqtə boyda qalan kainat modeli ilə qarşılaşdılar. Riyazi hesablamalar bütün kainatdakı maddənin qaynağı olan bu nöqtənin böyük cazibə qüvvəsi səbəbindən «sıfır həcmə» sahib olacağını göstərdi. Deməli, kainat sıfır həcmə malik bir nöqtənin partlaması ilə ortaya çıxmışdı. Bu partlayışa «Big bang» (Böyük partlayış) adı verildi.

«Big bang»in göstərdiyi önəmli bir həqiqət vardı: «sıfır həcm» elə yoxluq demək olduğuna görə, kainat yoxdan var olub. Bu isə kainatın bir başlanğıcı olduğu deməkdir! Beləliklə, materializmin «kainat əzəli və əbədidir» iddiası darmadağın edildi.

### «Böyük partlayış»ın dəlilləri

Kainatın böyük bir partlayış nəticəsində yaranmağa başladığı həqiqəti təsdiqini tapandan sonra astrofiziklər bu istiqamətdə araşdırmalarını sürətləndirdilər. Corc Qamova (George Gamov) görə, əgər kainat bir partlayışdan yaranıbsa, deməli, həmin partlayışdan sonra «artıq qalan» radiasiya fəzaya dağılmalıdır. Bu versiyanın yayıldığı illərdə bütün elmi tapıntılar «Big bang»i təsdiqləyəcək şəkildə ard-arda sıralanırdı. 1965-ci ildə Arno Penzias (Arno Penzias) və Robert Uilson (Robert Wilson) adlı iki tədqiqatçı həmin radiasiya dalğalarını kəşf etdilər. «Kosmik fon radiasiyası» adı verilən bu radiasiya fəzadakı bəlli bir qaynaqdan yayılan hər hansı radiasiyadan fərqlənirdi. Başqa sözlə desək, konkret mənbəyi yox idi, bütün kainata yayılmışdı. Beləcə, uzun müddətdir kainatın hər yerində bərabər ölçüdə istilik dalğaları şəklində təsbit olunan bu radiasiyanın «Big bang»in ilk dövründən qaldığı ortaya çıxdı. Üstəlik, bu rəqəm elm adamlarının əvvəlcədən proqnozlaşdırdıqları rəqəmə çox yaxın idi. Penzias və Uilson «Big bang»i təcrübə yolu ilə sübuta yetirən ilk alimlər olduqları üçün Nobel mükafatına layiq görüldülər.

Bir müddət sonra isə Corc Smut (George Smoot) və onun NASA-dakı komandası kosmosa göndərilən COBE süni peyki vasitəsilə cəmi səkkiz dəqiqə ərzində Penziasla Uilsonun ölçmələrinin doğru olduğunu təsdiqlədilər. Peykdəki həssas cihazların göstəriciləri «Big bang»in həqiqət olduğunu bir daha qəti şəkildə təsdiqlədi. Həmin cihazlar «Big bang»in ilk anlarındakı hərarət və sıxlığının qalıqlarını qeydə ala bilmişdilər. Beləliklə, COBE «Big bang»in həqiqət olduğunu aşkar dəlillərlə ortaya qoymuşdu və elmi çevrələr artıq bu açıq həqiqəti etiraf etməyə məcbur idilər.

Bir başqa dəlil isə fəzadakı hidrogen və helium qazlarının miqdarının hesablanması zamanı ortaya çıxdı. Belə ki, kainatdakı hidrogen və heli-



um qazlarının nisbəti «Big bang»dən «artıq» qalan hidrogen-helium nisbətinin nəzəri göstəricilərinə çox yaxın idi. Bu dəlillərin ortaya çıxması «Big bang»in elm aləmində qəti qəbul olunması ilə nəticələndi. Məşhur elmi jurnal olan «Scientific american» 1994-cü ilin oktyabrında «Big bang» modelinin «əsrimizin qəbul olunmuş yeganə modeli» olduğunu yazmışdı.

**Allah kainatı yoxdan var edib**

Beləliklə, elm inkişaf etdikcə ortaya çıxardığı dəlillər «sabit kainat» nəzəriyyəsini tarixin arxivinə göndərdi. Bunun ardınca isə daha önəmli suallar meydana çıxmağa başladı ki, onların da ən vacibi «böyük partlayışdan əvvəl nə var idi?» sualıdır.

«Böyük partlayışdan əvvəl nə var idi?» sualının bircə cavabı mövcuddur: yerləri və göyləri böyük nizam içində yaradan üstün güc və qüdrət sahibi olan Allah inanıb-inanmamasından asılı olmayaraq, əksər elm adamları bunu qəbul etmək məcburiyyətindədirlər.



Hətta elmi platformada bunu qəbul etməyi özlərinə sığışdırmasalar belə, bəzi fikir və ifadələri onları ələ verir. Məsələn, məşhur ateist filosof Entoni Flu (Anthony Flew) etirafın insanın ruhuna xeyirli olduğunu deyərək bunları bildirir:

**- Etiraf etməyin insan ruhuna müsbət təsir etdiyini deyirlər. Mən də bir etiraf edəcəyəm: ateizm baxımından «Big bang» modeli olduqca xoşagəlməzdir. Çünki elm faktiki olaraq dinin iddiasını sübuta yetirib ki, kainatın bir başlanğıcı var. Mən hələ də ateizmə inanıram, amma etiraf edim ki, «Big bang»in qarşısında ateizmi müdafiə etmək olduqca çətindir.**

Entoni Flu 2004-cü ildə 88 yaşında ateizmi tərk etdiyini açıqlamışdır.

***-Ateizmi könüllü şəkildə tərk edirəm… Kainatın bir Ağıl tərəfindən yaradılması labüddür. Bir super Ağılı qəbul etmək, həyatın başlanğıcının və təbiətin kompleksliyinin ən doğru açıqlaması olduğunu düşünürəm. (http://www.biola.edu/anthonyflew/flew-interview.pdf)***

İngilis materialist fizik H.P.Lipson kimi bəzi elm adamları isə «Big bang» nəzəriyyəsini istər-istəməz qəbul etmək məcburiyyətində olduqlarını etiraf edirlər:

***- Məncə, bu nöqtədən daha da irəliyə getməyə və yeganə izahın yaradılış olması ilə razılaşmağa məcburuq. Bunun özüm də daxil olmaqla, əksər fiziklər üçün çox xoşagəlməz və hətta ağır olduğunun fərqindəyəm, amma əgər təcrübə ilə əldə olunmuş faktlar bir nəzəriyyəni təsdiq edirsə, xoşumuza gəldi-gəlmədi, onunla razılaşmalıyıq.***

Nəticədə istəsələr də, istəməsələr də, elm materialist alimlərin qarşısına tək bir həqiqəti qo-

yur: maddə və zaman sonsuz güc sahibi olan, göyləri, yeri və ikisinin arasında olanları qüsursuz yaradan bir Yaradıcı, hər şeyə qadir olan Allah tərəfindən yaradılıb.

**«Yeddi göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, hər şeyi öz elmilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında nazil olar». («Talaq» surəsi, 12)**

## Quranın işarələri

«Big bang» modeli bəşəriyyətin kainatı tanımasına yardımçı olmaqla yanaşı, çox önəmli bir funksiyanı da həyata keçirib. Əvvəl sitat gətirdiyimiz ateist filosof Entoni Flunun dediyi kimi, «Bing bang»la birlikdə «elm dinin iddiasını sübuta yetirib». Dini qaynaqların irəli sürdüyü bu həqiqət kainatın yoxdan yaradılmasıdır. Bu elmi kəşfdən min illərlə əvvəl Allahın insanlara yol göstərmək üçün göndərdiyi müqəddəs kitablarda yazılıb. Tövrat, İncil və Quran kimi ilahi kitabların hər birində kainatın və ümumiyyətlə, bütünlükdə maddənin Allah tərəfindən yaradıldığı xəbər verilib.

Bu ilahi qaynaqlar arasında təhrif edilməmiş yeganə kitab olan Quranda isə kainatın yoxdan yaradılışı ilə bağlı məlumatlar verilib. 14 əsr əvvəl vəhy edilən bu bilgilər XX əsrin elmi məlumatları ilə tamamilə üst-üstə düşür.

Hər şeydən əvvəl kainatın yox ikən var edilməsi Quranda belə xəbər verilir:

**« O, göyləri və yeri (yoxdan) var edəndir...» («Ənam» surəsi, 101).**

14 əsr əvvəl insanların kainatla bağlı məlumatları çox məhdud olan dövrlərdə Quranda bildirilən bir başqa həqiqət isə eynilə «Big bang» nəzəriyyəsinin irəli sürdüyü kimi, bütün kainatın çox kiçik həcmdə bir yerdən ayrılıb genişlənməklə ortaya çıxması idi:

**«Məgər kafir olanlar göylə yer bir-birinə bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi? Yenə də iman gətirməzlər?» («Ənbiya» surəsi, 30)**

Bu ayənin ərəbcə orijinalında çox önəmli bir kəlmə seçimi var. Ayədəki «bir-birinə bitişik ikən» şəklində tərcümə edilən «ratk» kəlməsi ərəbcə lüğətlərdə «bir-birilə iç-içə, ayrılmaz halda, qaynayıb-qarışmış» mənalarına gəlir. Yəni tam bir bütün halında olan iki maddəni anlatmaq üçün işlədilir. Ayədəki «ayırdıq» ifadəsi isə ərəbcə «fatk» felidir ki, bu da «ratk» halındakı bir maddəni yarıb, parçalayıb, bayıra çıxarmaq anlamına gəlir. Məsələn, toxumun cücərərək torpağı yarıb çıxması bu fellə ifadə edilir.

Bunu biləndən sonra yenidən ayəyə baxaq. Orada göylə yerin «ratk» halında olduğundan bəhs edilir. Ardınca isə bildirilir ki, onlar «fatk» feli ilə ayrılıblar. Yəni biri digərini yararaq ayrılıb. Həqiqətən də «Big bang»in ilk anını xəyalımızda canlandıranda «kosmik yumurta» deyilən nöqtənin (gələcək) kainatın bütün maddəsini içinə aldığını görürük. Yəni hər şey, başqa sözlə, «göylər və yer» bu nöqtənin içində «ratk» halındadırlar. Ardınca həmin «kosmik yumurta» şiddətlə partlayıb, bu yolla maddələr «fatk» olub - yəni yumurtanı yarıb bayıra çıxaraq bütün kainatı əmələ gətiriblər.

Quranda bildirilən bir başqa həqiqət isə elm tərəfindən ancaq 1920-ci illərin sonlarında məlum olan kainatın genişlənməsi faktıdır. Bir qədər əvvəl bəhs etdiyimiz kimi, ilk dəfə Habblın ulduzların işıq spektrinin qırmızıya doğru sürüşməsinə əsaslanaraq kəşf etdiyi bu həqiqət Quranda belə təsvir olunub:

**«Biz göyü qüdrətimizlə yaratdıq və şübhəsiz, Biz onu genişləndirməkdəyik». («Zariyat» surəsi, 47)**

Qısacası, müasir elmin kəşfləri bir tərəfdən materializmin ehkamlarını darmadağın edərkən, digər tərəfdən Quran ayələrində xəbər verilən həqiqətləri bir daha təsdiqləyir. Çünki kainat materialistlərin sandığı kimi, maddi dünyadakı təsadüflərlə deyil, Allahın qüdrəti ilə yaradılıb və Allahdan gələn bilgi, şübhəsiz ki, kainatın yaradılışı haqqında ən dolğun bilgidir.



# MƏNFİ DÜŞÜNCƏLƏRDƏN UZAQLAŞMAQ

İnsan nəfsində yaxşılıqlar və pisliklər bir yerdədir. Bu da Allahın insanlar üçün yaratdığı imtahanın bir başqa xüsusiyyətidir. İnsan həyatının son saniyəsinə qədər nəfsindəki pisliklərə qarşı mübarizə aparmalıdır. Nəfsini özbaşına buraxdığı halda gözəlliklər heç vaxt pisliklərə öz-özünə qalib gələ bilməz.

İnsanın bu mübarizəsində əldə etməli olduğu bir xüsusiyyət də "müsbət düşünməkdir". Yaxşılıqları və pislikləri özündə cəmləşdirən nəfsin "insanları mənfi düşünməyə təşviq etmə xüsusiyyəti" də var. Əlbəttə ki, nəfs müxtəlif yollarla əsl üzünü gizlədir. Müsbət düşünməyin müəyyən mənada "özünü aldatmaq" olduğunu, "mənfi düşünməyin isə insanı həmişə daha yaxşı və tədbirli etdiyini", "daha ağıllı addımlar atmasına səbəb olduğunu", "belə insanın təhlükələrə və risklərə daha çox hazırlıqlı olduğunu" göstərməyə çalışır. Nəfs insanları mənfi düşünməyin "realizm" olduğuna, müsbət düşünmənin isə "özünü aldatmaq" olduğuna inandırmağa cəhd edir.



İnsan belə bir vəziyyətdə Quran əxlaqına görə davranmağa çalışmalıdır. Allah Quranda müsəlmanlara "təvəkkül etməyi, hər hadisəni xeyirə yozmağı, Allahın qədərdə hər şeyi xeyirlə yaratdığını düşünməyi, hər nə olursa olsun hər mövzuda Allahdan ümidini kəsməməyi" bildirmişdir. Mömin Qurana əsasən davrandığı üçün şeytan və ya nəfs əksini istəsə də, istədiyi davranışı düzgün göstərmək üçün bəzəsə də, mömin müsbət düşünməkdən uzaqlaşmaz.

Eyni zamanda əgər insan istəsə, müsbət və mənfi düşünməyin ona gətirəcəyi fayda və zərəri də sürətli və asan şəkildə müqayisə edib qavraya bilər.

Hər şeydən əvvəl mənfi düşünmək insanın Allah rızasına uyğun düşünməsinə və Allahın razı olduğu əxlaqı yaşamasına mane olur. Allahı və Allahın sonsuz gözəlliyə sahib isimlərini unutmağına səbəb olur (Allahı tənzih edirik). Allahın ağlını, şəfqətini, mərhəmətini, sevgisini, ədalətini, qullarına olan yaxınlığını, dualara cavab verən olduğunu, səmimi olan qullarını bağışlayacağını, axirətdə hər şeyin qarşılığını ən gözəli və artıqlaması ilə verəcəyini unutdurar. Dünyada olan hadisələrin Allahdan müstəqil şəkildə reallaşdığını (Allahı tənzih edirik) düşünməsinə səbəb olar. Bütün bunlar da insanı cahil düşüncə tərzinə gətirib çıxarar. Bu da insanı əbədi olaraq qəm-qüssəyə salar. Hər hadisəyə mənfi tərəfdən baxan insan sıxıntılı, içinəqapalı, bədbəxt insan olar. Belə insan sahib olduğu yalnış məntiqə görə ətrafındakı insanlara və yaşadığı problemlərin həllində mühüm həll yolları göstərə bilməz. Ətrafındakı insanlara qarşı həmişə mənfi fikirlərlə yanaşdığı üçün şübhəçi, ön mühakiməli, və soyuq davranış göstərər. Mənfi düşünən, mənfi danışan, mənfi addımlar atan bir insan kimi ətrafındakı insanların sevgisini, hörmətini, etibarını itirər. Dostlarının yanında narahat olan və dostluğu bilinməyən bir insan olar. Heç kimi həqiqi mənada sevə bilməz, heç kimə şübhə duymadan yaxınlaşa bilməz. Həyatı

həmişə narahat, qəm-qüssə və ümidsiz fikirlər içində keçər. Bütün bunların nəticəsində də həm mənəvi, həm də fiziki olaraq gücsüz olar.

Müsbət düşünən insan bu xüsusiyyəti ilə hər şeydən əvvəl Allahın razı olacağı əxlaqı göstərər. Çünki müsbət düşünmək Allahın bəyəndiyi əxlaqın, səmimi imanın, Allaha qarşı olan inamın və təslimiyyətin bir tələbidir. Bu əxlaqı yaşayan insanın vicdanı rahatdır. Çünki Qurana uyğun əxlaq yaşayır. Yaşadığı hadisəyə, ətrafındakı insanlara Allahın istədiyi və bəyəndiyi baxışla baxır. Hər hadisəni xeyirə yozan, hər şeyin gözəl tərəfini görən bir yanaşması var. Yaşadığı hadisələrdəki mənfi cəhətləri görüb, bunlara kədərlənib, sıxılıb pessimizmə qapılmağın yerinə çox kiçik gözəlliyi belə görən, bu nemət üçün Allaha şükür edən və bunun sevincini yaşayan əxlaq yaşayır. Allahın hər insan üçün olduğu kimi, onun üçün də saysız nemət yaratdığının fərqindədir. Mənfi kimi görünən bütün hadisələrin Allahın bir imtahanı olduğunu və "Allahın istədiyi kimi davrananda" bunların hər birinin dünyada və axirətdə onu xeyirlərə qovuşduracaq səbəblər olduğunu bilir. Ən çətin, ən qarışıq, ən mürəkkəb hadisələr olsa belə, mənfi fikirlərə düşməz. Çünki "Allahın səmimi qullarına qəti şəkildə kömək edəcəyini" unutmaz. Gücünün çatmadığı bir hadisədə özünü itirməz. Çünki Allahın sonsuz güc sahibi olduğunun fərqindədir. Hadisələrin özözünə baş vermədiyini, Allahın hər şeyi xeyir və hikmətlə yaratdığını bildiyi üçün hər hadisədə bir gözəllik görər. Bütün bu həqiqətləri bilməsi ona dünyada əbədi rahatlıq və xoşbəxtlik verər. Hər nə olursa olsun Allahdan ümidini kəsmədiyi, Allaha çox inandığı, Allahın kömək edəcəyinə əmin olduğu üçün çox rahat olar. Hər məsələdə müsbət və ağıllı baxışa sahibdir. Hadisələrdə və ya insanlarda olan mənfi tərəflərdən, nöqsan və qüsurlardan, əlbəttə ki, xəbərdardır. Amma bunun həll yolunun hər şeyə pessimist dünyagörüşü ilə baxıb, kədərlənib, sıxılmaq olmadığını bilər.

**Nəfs insanları mənfi düşünmənin "realizm" olduğuna, müsbət düşünmənin isə "özünü aldatmaq" olduğuna inandırmağa cəhd edir.**

Bu nöqsanları düzəltmək üçün atacağı hər addımı Allaha güvənərək, müsbət düşünərək, ümidvar olaraq, gözəllikləri görüb bunları əsas alaraq atar. Bu səbəbdən də ən çox sevilən, ən çox inanılan, sözünə ən çox etimad edilən, ən çox məsləhət alınan, dost olaraq ən çox seçilən kəslər məhz belə müsbət düşüncəyə, belə gözəl əxlaqa sahib olan insanlardır.

Üstəlik "müsbət düşünmək" "özünü aldatmaq" və ya "realist olmamaq" demək deyil. Əksinə, bir çox insanın görə bilmədiyi həqiqəti görmək, "Allahın sonsuz gücünü lazımi qədər təqdir etmək, Allahın gücünə şahid olmaq" deməkdir. Əsl realizm budur. Bunun əksi insanın özünü aldatmasıdır. Çünki əksini düşünən insan hadisələri özünün və ya qarşısındakı insanın etdiyini düşünür. Öz gücünün və insanların gücünün nə qədər məhdud, yaradılanların nə

qədər aciz olduğunu gördükcə özünə görə mənfi düşüncələrə qapılır. Halbuki öz gücü onsuz da heç bir şeyə çatmaz. İnsana müsbət düşünmə, ümidvar olma, hər hadisənin nəticəsindən bir gözəllik görmə gücünü verən “Allahın gücünə olan inancı” və “Allahın gücünü lazımi qədər qavramağıdır”.

Bütün bu həqiqətləri diqqətlə nəzərdən keçirən bir insan “Allahın razılığının müsbət düşünməkdə olduğunu” görməlidir. Bununla yanaşı, mənfi düşünməyin insana heç bir faydası olmadığını, əksinə insanın həyatını çox pis və mənasız hala gətirdiyini, çətinləşdirdiyini qavramalıdır. İnsanı bir kədərdən digərinə sürüyən, hər yerdə, hər hadisədə insana bədbəxtliyin qapısını açan, nə özünə, nə də başqalarına heç bir faydası olmayan şeytani dünyagörüşü olduğunu anlamalıdır. Quran əxlaqı insanın, Allahın insanlar üzərindəki böyük lütfünü görməsinə, ətrafındakı gözəlliklərin sevincini və xoşbəxtliyini yaşamasına, bütün bunlar üçün Allaha şükür etməsinə və ən çətin şəraitdə belə Allahdan gözəllik ümid etməsinə səbəb olar. Beləliklə, əsl realizm budur.

Bununla yanaşı, mənfi düşünməyin “tədbir almaq” olduğunu düşünən bir insan bu mövzuda da yanılır. Bu cür pessimist, çökmüş, içinə qapanmış, bədbin, ümidsiz insanın həqiqi mənada tədbir alması da mümkün deyil. Doğru düşünmə, hadisələri olduğu kimi görüb qiymətləndirmə və tədbir alma qabiliyyətini, yaşadığı ruh halı ilə birlikdə onsuz da itirmiş vəziyyətdədir. İnsan tədbir almağı ancaq müsbət düşünməyin gətirdiyi rahat, ağıllı, pozitiv ruh halı ilə reallaşdıra bilər. İnsanları, hadisələri və təhlükələri doğru analiz etmək və həll yollarını tapmaq ancaq belə məqbul dünyagörüşünə sahib olanda həyata keçirmək mümkün olur.

Allahın Quranda insanlara bildirdiyi bir sirr var. İnsan ətrafındakı gözəllikləri, nemətləri gördüyü və bu dünyagörüşü ilə düşündüyü halda, Allah bu insanın nemətini daha çox artırır. Əksi olduqda, yəni insan həmişə yaşadığı şəraitdən, hadisələrdən, ətrafındakı insanlardan şikayət etdiyi, yalnız nöqsan və qüsurları gördüyü, gözəllikləri isə lazımi şəkildə qiymətləndirmədiyi halda isə özünün səbəb olduğu bədbin həyatı yaşayır.

Beləliklə, hər insan Allahın bildirdiyi bu məlumat haqqında yaxşı düşünməlidir. Ən çətin şəraitlərdə belə həyatda sevinəcəyi, xoşbəxt olacağı, şükür edəcəyi çox saylı nemət və gözəllik var. Əgər az nemətə də şükür etməyi,



qüsurlu hallarda belə ümidli olmağı bacarırsa, Allah ona dünyada və axirətdə daha artığını verəcək. Allah Quranda insanlar üzərindəki nemətinin bənzərsizliyini və nemətə şükür etməyin əhəmiyyətini belə bildirmişdir:

**"Yadınızı salın ki, o zaman Rəbbiniz bunu bildirmişdi: "Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, (unutmayın ki) Mənim əzabım, həqiqətən şiddətlidir!" (İbrahim surəsi, 7)**

**(Allah) sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, həm də çox nankordur. (İbrahim surəsi, 34)**

**Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)**

İnsan həyatı boyu ən çətin anlarda belə bu həqiqətləri unutmamalıdır. Həyatının sonuna qədər müsbət düşünməli və hər nə olursa olsun bu xüsusiyyətdən əl çəkməməlidir.

Ancaq bunu da heç vaxt unutmaq olmaz ki, insan gözəl əxlaq göstərməyi, müsbət düşünməyi, Allahdan ümidvar olmağı nemətə qovuşmaq üçün deyil, Allahın razılığını qazanmaq üçün etməlidir. Allah dərgahında qəbul ediləcək davranışlar bunlardır. Çünki Allahın razılığı dünyada və axirətdə olan bütün nemətlərdən üstündür. Allah razı olanda onsuz da nemətini lütf edəcək. Lakin bu gözəl əxlaq ancaq Allahın razılığının heç bir nemətlə müqayisə edilməyəcək qədər böyük bir lütf olduğunu qavrayan insanlara nəsib olacaq.





# Maye içində üzən Beynimiz

Həm həssas quruluşu, həm də çox əhəmiyyətli funksiyaları olan beynimiz hərtərəfli müdafiə olunmuşdur. Bunlardan ən maraqlısı beynimizin maye içində üzməsidir.

Hiss etmə, hərəkət etmə, eşitmə, görmə, dad və qoxu bilmə, ürəyin döyünməsi, nəfəs alma kimi həyati funksiyaların hamısını beynimiz reallaşdırır. Bundan əlavə, beyin hormon sintez edərək bədənin ehtiyaclarını tənzimləyir. Çox həssas sistemə sahib olan bu orqanımız elektrik siqnalları ilə fəaliyyət göstərən sinir hüceyrələri, bunları nizamlayan və qidalanmalarına kömək edən köməkçi hüceyrələr və qan damarlarından ibarətdir.

### Beynimizin suyun içində üzdüyünü bilirdinizmi?

Beynin çəkisi təxminən 1,4 kq-dır. Əgər beyin mayenin içində olmasaydı və birbaşa kəllə sümüyü ilə təmas etsəydi, öz ağırlığının altında əzilərdi. Bu da beyində təzyiqin meydana gəlməsinə səbəb olub ölümlə nəticələnə bilərdi. Ancaq bu cür problemlə xəstəlik halları istisna olmaqla qarşılaşmırıq. Çünki beynimizin öz ağırlığı üzdüyü mayenin içində olarkən 1400 qr-dan 50 qr-a qədər azalır. Yəni beyində ağırlığı otuz dəfə azaldan sistem var. Bu sistem belə çalışır:

Beynin daxilində bəzi boşluqlar və bu boşluqların daxilində də yalnız beyində olan xüsusi damar yığınları var. Bunların vəzifəsi bədəndən beynə gedən qandakı zərdabı süzməkdir. Qan zərdabı əvvəl beyin daxilindəki boşluqları doldurur, sonra müxtəlif yollardan beynin xaricinə çıxır. Ən sonda da bu maye beynin üst hissəsində yerləşən tək istiqamətli valf sistemi (araknoid villus) sayəsində ümumi dövrana (qan dövranına) geri dönür. Bu valfların çox mühüm vəzifəsi var: mayenin beynə olan təzyiqini nizamlamaq.



Əgər bu nizamlama olmasaydı və təzyiq artsaydı, o zaman beynə düşən təzyiq beynin funksiyalarına təsir edərdi və bu vəziyyət bir çox xəstəliyə səbəb olardı. “Hidrosefali” adlandırılan xəstəliyi buna nümunə olaraq göstərə bilərik. Bu xəstəlik növündə qan dövranındakı hər hansısa bir problemə görə beyində bir müddət sonra maye yığılmağa başlayır və yaranan təzyiq beynin funksiyalarına təsir edir. Əgər müdaxilə olmasa, yəni əməliyyatla bu maye boşaldılmasa, artan təzyiq ağıl zəifliyi, hərəkət edə bilməmə, korluq, hətta ölümlə nəticələnən problemlərə səbəb olar.

**Beyindəki mayenin təzyiqi normadan daha az olduğu zaman da dözülməz baş ağrıları olur və beyin zədələnməyə başlayır.**

Bəs onda beyindəki bu dizayn necə meydana gəlmişdir? Beynimizin ən funksional şəkildə işini təmin edən bu dizaynın təsadüfən ortaya çıxması, əlbəttə ki, mümkün deyil. Bütün bu funksiyaları gelə bənzər ət parçası olan beynin özü də yerinə yetirə bilməz. Bunu iddia etmək ağıl və məntiqdən tamamilə uzaqlaşmaq deməkdir. Beynimiz kəllə sümüyü ilə mühafizə edilmişdir. Bundan əlavə, ağırlığını daşıması üçün bu kifayət etmədiyinə olmadığına görə, içində üzdüyü maye də yaradılmışdır. Bu şəkildə ağırlığı 50 qr-a, yəni həqiqi ağırlığından otuz dəfə aşağı düşür.

**Bütün bu həssas tarazlıqları qüsursuz nizam içində yaradan hər şeyin yaradıcısı olan Allahdır.**

# Nəfsə Uyğun Din Planları

Bəzi insanlar Allahdan lazımı qədər qorxmadıqlarına görə Quranı özünə rəhbər tutmur və buna görə də Allahın bildirdiyi əxlaqı tam yaşamırlar. Quran ayələrində bu insanların soruşulanda Allaha iman etdiklərini söylədikləri, ancaq daha dərin imanı və Allaha lazımi qədər qulluq etməyi qəbul etmədikləri bildirilir:

**“De: “Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? Hər işi düzüb qoşan kimdir? Onlar: “Allahdır!” - deyəcəklər. De: “Bəs onda Allahdan qorxmursunuz?”” (Yunus surəsi, 31)**

**“And olsun ki, əgər onlardan özlərini kimin yaratdığını soruşsan, mütləq: “Allah!” - deyə cavab verəcəklər! Elə isə necə döndərilirlər?” (Zuxruf surəsi, 87)**

Bu insanlar Qurana tam tabe olmaq və bu nemətdən istifadə etməkdənsə, dini öz ağılları, nəfsləri və ya din əxlaqından uzaq yaşayan cəmiyyətlərin müəyyən ənənələrinə uyğun şəkildə şərh etməyə çalışırlar. Bu yolla haqq dindən uzaqlaşır, fərqli və batil din anlayışını müdafiə edirlər. "Nəfsə uyğun din" olaraq adlandıra biləcəyimiz bu din anlayışının ən mühüm xüsusiyyəti insanların nəfsani istəkləri və dünyadakı mənfəətlə zidd düşməyən inanc olmasıdır.

Belə səhv anlayışlı insanların həyatında Quran əxlaqı çox az yer tutur və onlara heç bir narahatlıq vermir. Bunun nəticəsində də belə insanlar yeri gələndə nəfslərinin istəklərini narahat olmadan yerinə yetirə bilir, ədalətdən, səmimilikdən, yaxşılıqdan uzaqlaşmaqdan qorxmurlar.

Bu anlayış o insanların yaşadıqları cəmiyyətdə heç kimin fikirləri ilə uyğunlaşmadan, axirəti düşünmədən, istək və əyləncələrə mane ol-



madan və heç bir mövzuda narahat olmadan rahat yaşamalarını təmin edir. Cəmiyyətdəki insanların iman edib Allaha qulluq etməməyi və Quran əxlaqını yaşamamağı onları maraqlandırmır. Quran əxlaqına zidd olan bu dinin müdafiəçilərinə görə, ən əsası yaxın insanların dünyagörüşləri ilə zidd düşməmək üçün lazım olan hər məsələdə güzəşt etmək olar.

*Bu saxta inanca sahib insanlar dinin az hissəsinə inanır və tətbiq edirlər, bu hissə onların vicdanlarını rahatladır, bununla yanaşı, heç vaxt öz dünyəvi istəklərindən güzəştə getmirlər. Bu batil din anlayışı heç vaxt onların mənfəətləri ilə ziddiyyət təşkil etmir, onları maddi-mənəvi heç bir mənada çətinliyə salmır, həyatın heç bir sahəsində fədakarlıq etməyi tələb etmir. İbadətlərin bəzilərini yerinə yetirə və asanlıqla da əl çəkə bilirlər.*

Nəfsə uyğun bu dinin müdafiəçiləri insanları Allahın bəyəndiyi həyatı və Quran əxlaqını yaşamağa dəvət etmək yerinə, ətraflarına da bu saxta dini təbliğ edirlər. Həm özlərini, həm də ətraflarındakı insanları bu yanlış din anlayışına inandırmağa çalışırlar. Halbuki nəfsə uyğun belə bir din anlayışının heç bir əsası yoxdur. Allah bir ayədə **"de: “Siz dininizi Allahamı öyrədirsiniz?” Halbuki Allah göylərdə və yerdə nə varsa, bilir. Allah hər şeyi biləndir!" (Hucurat surəsi, 16)** bildirir. İnsan üçün hər şeyin ən doğrusunu bilən yalnız sonsuz elm sahibi olan Rəbbimizdir.

**Allah Quranın "mən özümü təmizə çıxartmıram, çünkü həqiqətən nəfs Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, pis işlər görməyi əmr edər...” (Yusif surəsi, 53)** ayəsi ilə nəfsin insanları pisliyə yönəldən xüsusiyyətini bildirmişdir. **Allah "de: “Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162**) ayəsi ilə iman edənlərin həyatlarının hər anının, etdikləri hər işin ancaq Allahın əmr etdiyi şəkildə olduğunu bildirmişdir.

Allahın razılığını qazanmaq bəzən insanın nəfsinə qarşı çıxmağı tələb edə bilər. Allah Quranda dünya həyatının insanların sınanmaları üçün yaradıldığını, buna görə də bir çox hadisələrlə imtahan olunacaqlarını bildirmişdir:

**Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, bağışlayandır. (Mülk surəsi, 2)**



İnsan dünyada qarşılaşdığı nemətlər və çətinliklər qarşısında Quran əxlaqına uyğun şəkildə davranmaqla və Allahın razılığını qazanmaqla məsuliyyət daşıyır. Allah başqa ayələrdə **"insanlar yalnız: "İman gətirdik!" - deməklə imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik..." (Ənkəbut surəsi, 2-3)** şəklində bildirmişdir. Belə ki, həqiqi iman Allahın sevgisini, razılığını, dostluğunu qazana bilmək üçün hər şeyi gözə almağı tələb edir. Allahın razılığını qazanmaq lazım olduqda nəfsin istəklərini məğlub etməyi, səbir göstərməyi, bəzi şeylərdə güzəştə getməyi və çətinliklərə sinə gərməyi tələb edə bilər.

Allah Quran ilə bütün insanları "bir-birini yaxşılığa çağırıb pislikdən çəkindirməyi" bildirmişdir. İmanlı bir insan sırf insanlar "narahat olmasın" deyə bu məsuliyyətini yerinə yetirməkdən çəkinməz. İnsanların özlərinə və ya ətrafındakılara zərər verdiklərini, gözəl əxlaqdan, ədalətdən, dürüstlükdən uzaqlaşdıqlarını və ya pis bir iş etdiklərini gördüyü halda, "narahat etməmək üçün" buna laqeyd qalmaz. Quranda möminlərin bu mövzuda göstərməli olduqları əxlaq belə bildirilir:

**İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar, həqiqətən nicat tapmış şəxslərdir. (Ali-İmran surəsi, 104)**

Müsəlmanların bu məsuliyyətlərini yerinə yetirməməyi, başqalarından çəkinməyi, özlərinin də dini lazımi qədər yaşamamağı Quran əxlaqına uyğun deyil. Quranda iman edənlərin Allahın razılığına uyğun həyat yaşarkən qınanmaqdan çəkinmədikləri bildirilir.

Bir insanın səmimi dindar olması, həyatını Allahın razılığına uyğun şəkildə keçirməsi cəmiyyətdəki bəzi insanlar tərəfindən qəbul olunmaya bilər. Lakin unudulmamalıdır ki, səmimi din anlayışında əsas "insanların razılığı" deyil. Həqiqi iman edənlər ətrafdakı insanların razılığını qazanmağı Allahın razılığından üstün görməzlər. Hər insan axirətdə Allahın qarşısına tək çıxacaq, dünya həyatında etdiklərinə görə tək hesab verəcək. Nə yaşadığı cəmiyyətin insanları, nə də onların razılığı axirətdə insana heç bir fayda qazandırmayacaq. İnsan ancaq Allahın razılığını qazanmaq üçün etdiyi saleh əməllərlə Rəbbimizin rəhmətini və cənnətini qazana bilər.

Bunu da unutmamaq lazımdır ki, insanların belə batil din anlayışı ilə çatmaq istədikləri hədəf "rahat həyat yaşamaqdırsa", bunu belə yolla əldə etmək mümkün deyil. Əksinə, Allah bu insanlar üçün dünyada "çətin həyat" olduğunu bildirir. Əsl dinclik, xoşbəxtlik və rahatlıq ancaq Allahın insanlar üçün seçib bəyəndiyi din əxlaqını yaşamaqla əldə edilə bilər. Allah Quranda bu həqiqəti insanlara belə bildiririr:

**"Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərsə, güzəranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!" (Taha surəsi, 124)**

Belə batil din anlayışı cəmiyyətə rahatlıq, dinclik və xoşbəxtlik qazandırmaz. İnsanların nəfsani hisslərlə hərəkət etdiyi, nəfsinin bütün istəklərini sərhədsiz yerinə yetirdiyi cəmiyyət modeli ancaq dağıdıcı xüsusiyyətlər daşıyır. Bu məntiqə sahib olan insanlar nəfslərində sərhəd tanımadan hər cür pisliyi və ya əxlaqsızlığı normal qəbul edirlər. Mənfəətləri üçün hər cür saxtakarlıq, oğurluq, yalançı şahidlik edir, sözündə sadiq deyil

və digər insanların hüquqlarını əzirlər. Nəticədə cəmiyyətə ədalətsizlik, bərabərsizlik, haqsızlıq, əxlaqsızlıq, çəkişmə, kin, intiqam, üsyan və zülm kimi mənfi xüsusiyyətlər hakim olur. Cinayətlərin, soyğunların, sui-qəsdlərin, zorakılığın, narkotika, qumar, fahişəlik kimi əxlaqsızlıqların qanuni hesab edildiyi və bütün bunlara heç kimin "dur" deyə bilmədiyi mühit formalaşır. Quran əxlaqını yaşamadıqları üçün ən yaxın insanlar belə bir-birinə düşmən olur. İnsanlar kədər, pessimizm, çətinlik, tənhalıq, qorxu, stress, etibarsızlıq, vicdansızlıq, narahatlıq, qəzəb, qısqanclıq, aclıq, yoxsulluq, düşmənçilik, cinayət, ölüm qorxusu kimi çətinliklərlə iç-içə yaşamaqdan xilas ola bilmirlər. Cəmiyyət ciddi xaosa və degenerasiyaya məruz qalır və bunların nəticəsində də dünya heç vaxt müharibələrdən, qarşıdurmalardan və zülmdən xilas ola bilmir.

Bu səbəbdən, bütün müsəlmanlar bu cür "nəfsə uyğun din anlayış"ına qarşı diqqətli olmalı, bunun insanları haqq dini özündən uzaqlaşdıraraq dünyada və axirətdə ciddi təhlükəyə səbəb olduğunu unutmamalıdırlar.

Nəfsin istəkləri, rahatlığı və məmnuniyyəti üzərinə qurulan həyat insanları dünyada və axirətdə ancaq uçuruma aparar. Həqiqi din əxlaqı nəfsin deyil, Allahın məmnuniyyətini və razılığını qazanmaq üzərində qurulmalıdır. Bu əxlaq isə ancaq insanın bütün həyatını Allahın təyin etdiyi və Quranda bildirdiyi şəkildə yaşanması ilə mümkün ola bilər.

**Hər nəfs ölümü dadıcıdır. Biz sizi şərlə də, xeyirlə də sınayırıq və siz Bizə çeviriləcəksiniz. (Ənbiya surəsi, 35)**

**And olsun ki, Biz içərinizdəki mücahidləri və səbir edənləri ayırd edib bilmək üçün sizi imtahana çəkəcək və sizə dair xəbərləri də yoxlayacağıq. (Muhəmməd surəsi, 31)**

**Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, Allah elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, biləndir! (Maidə surəsi, 54)**

**Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 97)**

Həqiqi din Rəbbimizin Quran ilə bizə bildirdiyi Quran əxlaqının tam olaraq tətbiq olunması ilə yaşana bilər. İnsanları dünyada və axirətdə qurtuluşa çatdıran da yalnız Allahın bildirdiyi bu doğru yoldur. Allah Quranda belə buyurur:

**Haqq sənin Rəbbindədir, buna heç vaxt şübhə edənlərdən olma! (Bəqərə surəsi, 147)**





# "QUŞBEYİN" DEYİB KEÇMƏYİN

**Təxminən 10 min növü olan quşların bir çox möcüzəvi xüsusiyyətləri var. Hər yerdə bu canlıların müxtəlif növləri ilə qarşılaşır və bu növlərin hər birində fərqli heyrətamiz xüsusiyyətlər görürük. Bu canlıların estetik görünüşləri, qüsursuz uçuş mexanizmləri, köç edərkən mahir davranışları, yuva qurma qabiliyyətləri və fədakarlıqları yaradılış həqiqətinə dəlildir.**

İndiyə qədər müəyyən edilmiş ən güclü yaddaşa sahib olan quş sidrquşudur. Bu quş Şimali Amerikada böyük qayalıqların, dağların ətrafında və Böyük Kanyonda yaşayır. Sidrquşu şam ağacının toxumları ilə qidalanır. Lakin bu toxumlar yalnız sentyabr ayının bir neçə həftəsi ərzində yeyilməli olur. Nəticə etibarilə, quş başqa həftələrdə qidalanmaq üçün tədarük görməlidir. Hər şeydən əvvəl toxumları gizlətmək üçün yer müəyyən edir. Bəzən müəyyən edilən yer şam ağaclarından 20 km uzaqda olur. Sidrquşu ağaclardan topladığı toxumları gizlətmək məqsədilə bu toxumları yerə basdırır. Toxumu ilk cəhddə torpağa batırır və bəzən də işarə kimi toxumun basdırıldığı yerə kiçik bir daş qoyur.

Sidrquşu sentyabr ayının 3 həftəsi ərzində dayanmadan toxum toplayır. Çox möcüzəvidir ki, bu quş uçduğu zaman getdiyi yerləri, ağacları, qayaları, yamacları xatırlayır. Belə güman edilir ki, quş bütün bunları beynində canlandırdığı xəritəyə əlavə edir. Sidrquşu məhsuldar işlədiyi qısa zaman ərzində Böyük Kanyon ərazisinə yüzlərlə kilometr sahəyə 100 minə yaxın toxum basdırır. O, bu toxumların yerini əzbərləməlidir, çünki növbəti aylarda qidalanmaq üçün canlandırdığı xəritəsinə ehtiyacı olacaq. Əgər basdırdığı toxumların yerini xatırlamazsa, yaşaya bilməz. Amma bir problem də qalır. Qoyduğu işarələrin yerini ayrı-ayrı yadda saxlaması çətinləşir, çünki qar yağandan sonra görüntü tamamilə dəyişir. Yəni qar yağarkən qoyduğu işarələr də itir. Lakin bu vəziyyət quşu çaşdırmır və sidrquşu basdırdığı 100 minə yaxın toxumun 90%-ni tapır. (Wikipedia, Clark's Nutcracker) Məsələnin digər hikmətli tərəfi ondan ibarətdir ki, quşun tapa bilmədiyi toxumlar həm də ağacların sayının artmasını təmin edir.



Bir quş bəsləndiyi qidanın ilin müəyyən vaxtında bitəcəyindən və yaşamaq məqsədilə qidanı gizlədib daha sonra gizlətdiyi yerləri müəyyən edəcəyindən xəbərdar ola bilməz. Quşa qida maddəsini qış üçün tədarük görmək və qidanı müəyyən yerlərə basdırmaq öyrədilməyib. 100 min toxumun da yerini bir-bir hafizəsində saxlamağın lazım olduğunu bilməsi də mümkün deyil. Lakin bu canlı bütün bunları çox mükəmməl şəkildə icra edir, çünki o da yer üzərindəki hər bir varlıq kimi Allahın ilhamı ilə hərəkət edir. Bir il ərzində gizlətdiyi toxumların yerini heç bir çətinlik çəkmədən tapmağı ona ilham edən, onu yaradıb var edən Allahın qoruması və köməyinə ehtiyacı var.

Yaratdığı varlıqlara nəzarət edən, onlara saysız-hesabsız və bilmədikləri yerlərdən ruzilər bəxş edən Allahdır. Kiçik bir quşda vəsf olunan bu xüsusiyyətlər Allahın böyüklüyünü və ucalığını bir daha ən gözəl şəkildə nümayiş etdirir.

**"Ruzisini daşıya bilməyən neçə-neçə canlılar vardır. Onların da, sizin də ruzinizi Allah verir. O, eşidəndir, biləndir". (Ənkəbut surəsi, 60)**





# Səhv Etməkdən QORXMAMAQ

Səhv etməkdən qorxmamaq üçün əvvəlcə səhvin nə olduğunu yaxşı düşünmək lazımdır. Səhv insanın "istəmədən etdiyi" hərəkətlərdir. Lazımi şəkildə düşünmədiyi, lazımi tədbirləri almadığı, lazımi şəkildə iradə göstərmədiyi, səhlənkarlıq etdiyi, unutduğu və ya yanıldığı üçün istəməyərək səbəb olduğu vəziyyətlərdir.

Bir də qəsdən, qarşı tərəfə zərər vermək məqsədi ilə edilən, kin, qəzəb, qısqanclıq, intiqam, rəqabət hissi ilə, pislik etmək üçün xüsusi olaraq edilən davranışlar var.

Qəsdən edilən bu davranışlarda həmin insana qarşı tədbirli və diqqətli olmaq çox normal, hətta zəruridir.

Ancaq yaxşı niyyətli insanın istəmədən etdiyi, hətta ortaya çıxan nəticədən ən çox özünün narahat olduğu bir vəziyyətdə o insana qarşı haqsız qəzəb duymaq vicdana uyğun deyil. Çünki hər şeydən əvvəl həmin insan yalnız qədərində olanı edir. Allah dilədiyi üçün o səhv hərəkət baş vermiş, Allah dilədiyi üçün o insanın səhv edəcəyi şərait hazırlanmışdır.

İnsan Allaha aid varlıqdır. Allahın sonsuz gücü qarşısında acizdir. Allaha tam təslim olaraq qədərini yaşayır. Buna görə də həyatı boyu nə yaşayıbsa yaşasın, hansı vəziyyətlə qarşılaşıbsa qarşılaşsın, bütün bunları Allahın yaratdığını unutmamalıdır. İman edən insan üçün Allah nə yaradırsa yaratsın, bu, nə qədər əziyyətli və ya çətin görünsə də, mömin üçün xeyir və nemətdir. Allah dilədiyi üçün o insan o səhvi etmişdir. Deməli, bu vəziyyət o səhvin nəticəsində reallaşmışdır. Bunda isə mömin üçün mütləq gözəllik var. Allah hadisələrin başqa şəkildə inkişafını o insan üçün daha xeyirli görmüşdür. O zaman mömin də meydana gələn bu vəziyyətdən narahat olmaz, Allahın təqdir edib gözəl gördüyü hadisədə eyni gözəlliyi görər.

Məsələn, insan yolda gedərkən diqqətini tam cəmləmədiyi və önünə baxmadığı üçün qarşısına çıxan hər hansı bir şeyi sındıra bilər. Ya da zəhmətlə hazırlanmış saxsı qaba dəyib yerə sala bilər. Yatıb qaldığı üçün onu gözləyən insanların işini ləngidə bilər. Bütün bunlarda isə Allahın yaratdığı müxtəlif hikmətlər var. O qırılan əşyanı qıran Allahdır.  O əşya bəlkə gələcəkdə



daha təhlükəli və kiməsə zərər verəcək şəkildə qırıla bilərdi. Bəlkə də onun qırılması ilə Allah ondan daha gözəlinin alınmasını təmin edəcək. Eyni şəkildə yerə tökülən yeməyi tökdürən də Allahdır. Bəlkə o yeməkdə xarab bir şey var və onu yeyən birisinin narahatlığına səbəb olacaq. Bəlkə bu yeməyi yeyəcək insanın daha sağlam bir şey yeməsinə mane olacaq. Bunun kimi, yuxuya qaldığı üçün gedəcəyi yerə getməyən bir insanı yuxudan oyandırmayan da Allahdır. Çünki onu gözləyən yoldaşları gecikməlidir. Bəlkə bu, onları hansısa bir təhlükədən qoruyacaq, bəlkə daha vacib bir məsələni həll etmək üçün onlara imkan verəcək.

Bunlar sadəcə bir neçə nümunədir. Amma mömin gün boyu yaşadığı bütün hadisələri və etdiyi səhvləri də bu dünyagörüşü və hikmət gözü ilə qiymətləndirməlidir. Allah Quranda belə bildirmişdir:

**Onların etdiyi hər şey dəftərlərdədir! Hər bir kiçik və böyük (əməl) yazılmışdır!" (Qamər surəsi, 52-53)**

Ancaq bu həqiqəti düşünməyən bir çox insan səhv etdiyi zaman narahat olur. Səhvin dərəcəsinə görə narahatlığı və kədəri daha da artır. Xüsusilə də bu səhvin səbəb olduğu vəziyyətdən təsirlənən insanların mövqeyini düşündükdə bu narahatlıq daha da artır. Onların qəzəblənəcəyindən, pis fikirlərə düşəcəyindən çəkinməsi isə yaşadığı bu çətinliyi daha da artırır. Halbuki səhv edənin yaşadığı bütün bu çətinliklər tamamilə yersizdir. Bu hər şeydən əvvəl Quran əxlaqına uyğun deyil. Mömin "hər şeydə xeyir olduğunu bilərək" qəlbi aram tapmalıdır. Necə ki, başqa birisi səhv etdiyi zaman o səhvə sahib çıxmayıb belə bir çətinliyə düşmürsə, özü etdiyində də vəziyyət bundan fərqlənməməlidir. Çətinliyə düşməməli, ancaq səhvindən dərs almalıdır. Üzərində dərin düşünməli, bir daha təkrarlanmaması üçün hansı tədbirləri almalı olduğunu təsbit edib bunları planlamalıdır. Etdiyi səhvin səbəb olduğu vəziyyəti aradan qaldırmaq üçün əlindən gələn hər cür səyi göstərməlidir. Zərər verdiyi insanlar varsa, onlardan üzr istəməlidir. Gözəl sözlərlə Allahdan qorxan, gözəl əxlaqlı, vicdanlı insan olduğunu bu insanlara göstərərək o səhvi istəmədən etdiyini bildirərək qarşı tərəfi əxlaqı ilə rahatlaşdırmalıdır.

İnsan etdiyi səhvlə bəzən kiçik problemlərə, bəzən də çox böyük problemlərə yol aça bilər. Bu da insanı təlaşlandırmamalıdır. Nəticə maddi və ya mənəvi mənada zahirən düzəldilməsi mümkün olmayan miqyasda belə olsa və ya asanlıqla həll edilə bilən çətinliklərə də gətirib çıxarsa, bu, mömininin düşüncə tərzini dəyişməz. Mömin, əlbəttə ki, vicdan əzabı, peşmançılıq çəkər. Ancaq Allah onsuz da insanı vicdanından bu şəkildə istifadə etməsi, peşman olub tövbə etməsi, Allahdan bağışlanma diləməsi və o səhvi bir daha etməmək üçün xüsusilə səhv edəcək xarakterdə yaratmışdır.

Əlbəttə ki, insan səhv etməmək üçün əlindən gələni etməli, ağlından, vicdanından,



iradəsindən, qabiliyyətlərindən, imkanlarından tam istifadə edərək aldığı bir məsuliyyəti və ya edəcəyi bir işi ən qüsursuz və mükəmməl şəkildə yerinə yetirməyə çalışmalıdır. Amma səhv meydana gəldiyi zamanda da Quranda səhvə yol verən möminə xas əxlaqı yaşayaraq bu vəziyyəti düzəltməlidir.

Möminlərin hər mövzudakı ölçüləri Quran olduğu üçün səhv edən bir insana qarşı münasibətləri də yalnız Quran əxlaqına uyğun olar. Mömin qarşısındakı kimi özünün də hər an səhv edə bilən, aciz bir insan olduğunu bilir. Hər insana hər şeyi etdirənin Allah olduğunu bilir və Allahın diləməsilə bir insanın səmimi şəkildə, yoxsa qəsdən belə bir səhv etdiyini hiss edir. Səmimi insana qarşı münasibətində isə etdiyi bir səhvinə görə nə sevgisində, nə də hörmətində hər hansı bir dəyişiklik olmaz.

Üstəlik Allah Quranda möminlərə bağışlayıcı, xoşniyyətli və əfv edici olmağı əmr etmişdir. Beləliklə, müsəlman qardaşının kiçik və ya böyük hər hansı bir səhv etdiyi halda möminin bu əxlaqı göstərəcəyi anlardır. Səhv edən qardaşını narahat etmədən, etdiyi səhvlə onu minnət altında qoymadan doğru olanı göstərər, səhv yönlərini düzəltməsinə kömək olar. Sevgi və xeyirxahlıq nümayiş etdirərək, onu cəsarətləndirərək qardaşının o səhvdən xilas olmasını və daha çox islah olunmasını təmin edər.

**... Bununla belə hər kəs bağışlasa və barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz! (Şura surəsi, 40)**

**... Amma onları əfv etsəniz, keçsəniz və bağışlasanız (daha yaxşı olar). Çünki Allah bağışlayandır, rəhm edəndir!. (Təğabun surəsi, 14)**

**Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə verməyəcəklərinə and içməsinlər. Əfv edib vaz keçsinlər! Məgər siz Allahın sizi bağışlamağını istəmirsiniz? Allah bağışlayandır, rəhm edəndir! (Nur surəsi, 22)**

**Əlbəttə, hər kəs səbir edib bağışlasa, çox bəyənilən əməllərdəndir! (Şura surəsi, 43)**

**Əgər yaxşı bir əməli aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi əfv etsəniz (Allah onları bilər). Həqiqətən, Allah bağışlayandır, qüdrət sahibidir! (Nisa surəsi, 149)**









# SANİYƏDƏ 500 DƏFƏ

## Çırpınan Qanadlar

Ağcaqanad, qanadlarını "saniyədə" təxminən "500 dəfə" çırpır. İnsanın qolları ilə olduqca məhdud sayda reallaşdıra bildiyi bir əməliyyatı, o yalnız bir saniyədə 500 dəfə reallaşdırır. Saniyədə 500 dəfə fasiləsiz olaraq hərəkət edən belə güclü bir mexanizm süni olaraq yaradıla bilməz. Müxtəlif vasitələrlə yaradılan buna bənzər bir mexanizm, sürtünmənin şiddətindən qısa müddət sonra yanacaq. Amma bir ağcaqanad, həyatı boyu uçduğu hər saniyə qanadlarını bu tezliklə çırpır və heç bir problem olmur. Hətta bu üstün xüsusiyyətli qanadlar ona, yüksək sürətdə, istədiyi istiqamətə, istədiyi zaman uçma imkanı verir, eyni zamanda manevr və eniş qabiliyyətlərini də ən mükəmməl şəkildə reallaşdırmasını təmin edir. Qanadlarını bu sürətdə çırpa bilmək üçün ağcaqanadın çoxlu oksigenə ehtiyacı var. Bu səbəbdən ağcaqanad demək olar ki, hər hüceyrəsinə çatan xüsusi bir tənəffüs borusuna malikdir. Bu boru birbaşa hava ilə əlaqəli olduğundan, hüceyrələr oksigen mübadiləsini vasitəçi olmadan həyata keçirirlər. Bu xüsusi sistemin nəticəsində dəqiqədə beş yüz dəfə qanad çırpan ağcaqanad heç vaxt yorulmur. Böyüklüyü 1 sm belə olmayan bir canlıda saniyədə beş yüz dəfə çırpınan qanad və bunu mümkün edən tənəffüs sistemini yaratmaq Allahın heyrətamiz sənətini göstərir. Heç bir təsadüf, belə kompleks bir canlıda bu qüsursuzluqda mexanizm yaradıb onu mükəmməl səviyyədə işləyəcək hala gətirə bilməz. Heç bir təsadüf, eyni vaxtda hərəkət edən bir cüt qanada saniyədə 500 dəfə çırpınma imkanı verə bilməz. Bu qüsursuz canlının da, onun sahib olduğu heyrətamiz qanadların da Darvinin söylədiyi kimi təsadüfi mərhələlərlə meydana gəlməsi qeyri-mümkündür. Bu əsər, Sani (sənətçi) olan Allaha aiddir.

**"Xəbəriniz olsun; şübhəsiz göylərdə və yerdə olanların bütünü Allahındır. Allahdan başqasına inananlar belə, şirk qoşduqları varlıqlara və güclərə (gerçəkdə) inanmazlar. Onlar yalnız bir zənnə uyarlar və onlar ancaq 'zənn və təxmində olaraq yalan danışarlar." (Yunus Surəsi, 66)**

# Bəzi insanlardakı MƏNƏVİ BOŞLUĞUN əsl səbəbi

**Bəzi insanları mənəvi boşluğa salan səbəblər nələrdir? İnsanlar bu mənəvi boşluqdan necə xilas ola bilərlər?**

Elm və texnologiya sahəsində əldə edilən nailiyyətlər bəşəriyyətin önündə yeni üfüqlər açır və həyatımızı asanlaşdırır. Ancaq bütün bu texnoloji və elmi nailiyyətlər əsrin ən əsas problemlərindən biri olan mənəvi boşluğu da özü ilə birgə gətirir. İnkişaf edən texnologiya, elm və tibb sahəsindəki irəliləyişlər, insanların həyatını asanlaşdıran yeni kəşflər onları axtardırdıqları mənəvi rahatlıqla heç cür təmin etmir, bir çox insan bədbin həyatdan, stress və sıxıntıdan şikayət edir. Bunun ən mühüm səbəbi isə insanların xoşbəxtliyi yanlış yerdə axtarmasıdır.



## Bəzi insanların mənəvi boşluğa düşməsinin səbəbləri

İnsanların böyük əksəriyyətinin həyatdakı ən əsas məqsədi yaxşı təhsil almaq, ailə qurmaq, yaxşı iş sahibi olmaq və gələcəklərini zəmanət altına alan həyat standartını təmin etməkdir. Hər insan həyatdakı idealını müəyyən edərkən bunların ona rahatlıq və xoşbəxtlik gətirəcəyini düşünərək müxtəlif yollara əl atır. Başqa sözlə desək, əslində, hər insanın həyatdan gözlədiyi ən əsas dəyər, axtardığı ən mühüm amil həqiqi rahatlıq və xoşbəxtliyin sirrini tapmaqdır. Belə ki, insan universitetə daxil olarkən, yeni işə girərkən və sosial statusunu dəyişdirmək istəyərkən hər dəfə bunun ona xoşbəxtlik qazandıracağını düşünür.

Bu vəziyyət dünyada yaşayan hər insana aiddir. Dünyanın hər tərəfində yaşayan insanların yeganə məqsədi rahat və xoşbəxt həyata nail olmaqdır. Ancaq buna baxmayaraq, çox az insan bu məqsədinə nail olur. Bir çox insan həyatından şikayətlənir, sıxıntı və peşmançılıq çəkir. Belə ki, insanlara həyata dair suallar verdikdə həyatdakı çətinliklərin müsbət cəhətlərlə müqayisədə daha çox olduğunu deyirlər. Dövrümüzdə həyatın böyük nemət olduğunu, çox xoşbəxt yaşadığını, heç bir sıxıntısı olmadığını söyləyən və üzündə parlaq sevinc ifadəsi olan insanlara rast gəlmək, demək olar ki, qeyri-mümkündür.

Tarix boyu bir çox insan yaxşı və gözəl olanı tapmaq üçün yola çıxmış, ancaq doğru yolda getmədiyi üçün daima ziyana uğramışdır. Xoşbəxtliyi insanlar arasındakı maddi üstünlükdə, güclü iqtidarda, yüksək karyera və ya məşhurluqda axtaran milyonlarla insan maddi hədəflərinə qısa müddət ərzində nail olsalar da, həqiqi rahatlığı tapa bilməyiblər. Qəzetlərdə və

televiziya proqramlarında hər cür maddi imkana malik olmasına baxmayaraq, həqiqi rahatlığı əsla tapmadığını etiraf edən çox sayda insan görmək mümkündür. Eyni şəkildə, bəlkə də illərlə arzusunda olduqları şan-şöhrətə qovuşduqları halda daxilən mənəvi ehtiyaclarını təmin edə bilməyən və bunun sıxıntısını çəkən məşhurların xəbərləri mediada yayımlanır.

Son illərdə getdikcə artan narkotik maddə və spirtli içki aludəçiliyi, qumar düşkünlüyü kimi əxlaqi degenerasiyanın yayılması və cəmiyyətdə bu vəziyyətin normal qarşılanması bu problemin göstəricisidir. İqtisadi imkanları geniş olan çox sayda insan daima axtarış içində olur, sonra da bu mənəvi boşluğu doldurmaq üçün bu çirkabın içinə düşürlər. Şöhrətin zirvəsində olarkən narkotik maddəyə qarşı müalicə almağa başlayan, bütün sərvətini qumarda xərcləyib müflis olan, bir çox yola əl atmasına baxmayaraq, həqiqi xoşbəxtliyə nail olmadığı üçün ruhi xəstəlikdən əziyyət çəkən insanların sayı günbəgün artır. Bu cür insanlar ideallarındakı vəzifəni, pulu, evi, avtomobili, həyat yoldaşını bəlkə əldə edirlər, ancaq ümid etdikləri xoşbəxtliyi bunlarda tapmırlar. Allah bir ayəsində dünya həyatına dair hər şeyin boş bər-bəzəkdən başqa bir şey olmadığını, həqiqi gözəlliyin və xoşbəxtliyin cənnətə aid olduğunu qavramaq üçün ağıl işlətmək lazım gəldiyini belə bildirir:

**"Sizə verilən hər hansı bir şey ancaq bu fani (keçici) dünyanın malı və bərbəzəyidir. Allah yanında olan isə daha yaxşı və daha baqidir (əbədidir). Məgər ağıla gəlməzsiniz?!" (Qəsəs surəsi, 60)**

## İnsanların həyatın əsl məqsədini unutması və mənəvi dəyərlərdən uzaqlaşması bədbinliyin təməlidir

**"Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?" (Ənam surəsi, 32)** ayəsində xəbər verildiyi kimi, mənəvi dəyərləri bir kənara qoyub ruhunu maddi dəyərlərlə qidalandıracağını zənn edən hər insan yanılır. Çünki hər cür arzusunu ancaq dünyada reallaşdıracağını düşünən və bunun üçün yaşayan insana dünya həyatındakı boş bər-bəzək əsla axtardığı xoşbəxtliyi qazandırmaz.

Allah dünyanı çox qüsurlu yaratmışdır. Ona görə də, dünyadakı hər cür nemətin gözəl tərəfləri ilə yanaşı çatışmayan cəhətləri də var. Halbuki, insan ruhu hər şeyə ən gözəl və mükəmməl şəkildə sahib olmaq istəyir. Bu da axirətdən xəbəri olmayan və



dünya həyatını həqiqi və əbədi həyat hesab edən insanlarda böyük mənəvi boşluğa səbəb olur. Milyonlarla insanın sıxıntılı həyatının əsl səbəbi bu bixəbərlikdən və imansızlıqdan qaynaqlanır. Çünki insan müəyyən fitrət üzərində yaradılmışdır və bu fitrətə uyğun olan həyat tərzini insana təqdim edən sistem Quranda bildirilən əxlaq sistemdir.

## Mənəvi boşluğu aradan qaldırmağın və həqiqi xoşbəxtliyə qovuşmağın yeganə yolu Allah üçün yaşamaqdır

İnsan ancaq Allaha təslim olduqda, Onun rizasına uyğun yaşadıqda xoşbəxt olar. Ayədə belə buyurulur:

**“Allah Öz lütfünə sığınanları onunla əmin-amanlıq yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!” (Maidə surəsi, 16)**

İnsan ancaq Allahdan çox qorxub Onu özünə dost tutarsa, Quran əxlaqına uyğun yaşayarsa, fədakar, xoşməramlı, mərhəmətli, xeyirxah, vicdanlı, təslimiyyətli, təvazökar olarsa, özünü mənən rahat hiss edə bilər. Təkəbbürlü, egoist, narazı, üsyankar, azğın və əxlaqsız fərdlərdən ibarət cəmiyyətin xoşbəxt və rahat yaşaması qeyri-mümkündür. Bu əsrin gətirdiyi fəlakətlər, cəmiyyətdəki böyük mənəvi degenerasiya bunun ən başıca səbəblərindəndir. Xüsusilə də din əxlaqından uzaq yaşayan ölkələrdə bu mənəvi boşluq, hər cür əxlaqsızlıq, azğınlıq insanlar arasında sürətlə yayılmışdır. Narkotik maddə, spirtli içki, qumar, rüşvət, əxlaqsızlıq, oğurluq, saxtakarlıq, fırıldaqçılıq və mafiya bu cür ölkələrdə normal həyatın bir hissəsinə çevrilmişdir. Ancaq bu mənəvi boşluq özü ilə birlikdə XXI əsrin böyük müjdələrini də gətirmişdir. Çünki bu əsr eyni zamanda mənəviyyata yönəlmənin də sürətlə artdığı dövrdür. Dünyanın bir çox ölkəsində insanlar Allaha iman gətirməyə, din əxlaqına uyğun yaşamağa, mənəvi dəyərlərə sarılmağa başlamışdır. Xoşbəxt olmaq üçün bütün batil yollara əl atan və bunların heç birində həqiqi xoşbəxtliyi tapmayan insanlar həqiqi fitrətlərinə qayıtmağın yeganə və son çarə olduğunu çətin təcrübələrdən keçərək anlamağa başlayıblar. Dünyadakı bu çarəsizliyin həllinin yalnız Allaha üz tutmaq və Quran əxlaqına uyğun yaşamaqla mümkün olduğunu tam mənada dərk etdikdə (bu dövr Allahın iznilə çox yaxındır), onda bütün dünya sülh, qardaşlıq, rahatlıq və xoşbəxtlik içində yaşayacaq.

**“Onlara dünyada da, axirətdə də müjdə vardır. Allahın sözləri heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur!” (Yunus surəsi, 64)**



# Quran əxlaqı

### *Axirətin varlığına tam yəqinliklə inanırlar*

O kəslər ki, sənə göndərilənə və səndən əvvəl göndərilənlərə iman gətirir və axirətə də şəksiz inanırlar. (Bəqərə Surəsi,4)

O kəslər ki, namaz qılar, zəkat verər və axirətə tam yəqinliklə inanarlar. (Loğman Surəsi,4)

### *Çoxluğa deyil, haqqa tabe olarlar*

Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar! (Ənam Surəsi,116)

### *Pisliyə ən gözəl şəkildə qarşılıq verərlər*

Sən pisliyi yaxşılıqla dəf et! Biz (müşriklərin Bizə) aid etdikləri sifətləri (və sənin haqqında dedikləri nalayiq sözləri) daha yaxşı bilirik! (Muminun Surəsi,96)

Səbr etdiklərinə görə onlara iki dəfə mükafat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edər və özlərinə verdiyimiz ruzidən sərf edərlər. (Qəsəs Surəsi,54)

Yaxşılıqla pislik eyni ola bilməz! Sən (pisliyi) yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! (Fussilət Surəsi,34)





# Allahın üstün gücünün təzahürü "ATOMLAR"

**Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxardan Allahdır. Budur Allah! Axı siz Ondan nə cür döndərilirsiniz? (Ənam surəsi, 95)**

Dağları, dənizləri, yarpaqları, heyvanları, planetləri, ulduzları, hüceyrələri, DNT-ləri, əllərinizi, dərinizi, sizi, qısacası, hər şeyi atomlar meydana gətirir. Stəkanı tutduqda atomlara toxunursunuz, mənzərəyə baxdığınızda böyük bir atom toplusuna baxırsınız, yaşadığınız yer, yediyiniz yemək, içdiyiniz su atomlardan ibarətdir.

Ən ağırından ən yüngülünə qədər gördüyünüz, toxunduğunuz, hiss etdiyiniz hər şey atomlardan təşkil olunmuşdur. Əlinizdəki jurnalın hər səhifəsi milyardlarla atomdan ibarətdir. Atomlar elə kiçik hissəciklərdir ki, ən güclü mikroskoplarla belə onları görmək mümkün deyil. Atomun diametri, ancaq millimetrin milyonda biri qədərdir.

Bu cür kiçik olmasına baxmayaraq, atomun içində qüsursuz, bənzərsiz və kompleks bir sistem var. Bu kiçik atomlardan ibarət bədənlə havadakı atomlarla tənəffüs edir, qidalardakı atomları yeyir, suyun atomlarını içirsiniz. Gördükləriniz isə gözünüzdəki atomlara aid elektronların fotonlarla toqquşmasıdır. Bəs toxunduqda hiss etdikləriniz? Onlar da dərinizdəki atomların əşyalardakı atomlarla bir-birlərini itələməsindən ibarətdir.

Hazırda insanların çoxu bədəninin, kainatın, dünyanın, qısaca, hər şeyin atomlardan ibarət olduğunu bilir. Amma, bəlkə də, bu günə qədər "atom" adlandırdığımız bu varlığın hansı sistemə sahib olduğu haqqında düşünməmişdir.

Halbuki insan bu qüsursuz sistemlə yaşayır. Üstəlik bu elə bir sistemdir ki, ona çox ciddi bir müdaxilə olmadıqca təbii şərtlərdə əsla pozulmur.

## Atomun möcüzəvi xüsusiyyətləri

Atomu möcüzəvi edən fövqəladə kiçik ölçüsü və buna baxmayaraq sahib olduğu xüsusiyyətlərdir. Atomun radiusu millimetrin milyonda biri qədərdir. Bu böyüklüyü anlaya bilmək üçün belə bir nümunə verə bilərik. 100 milyon atomu yan-yana qoyduğunuzda əldə edəcəyiniz uzunluq yalnız 1 santimetrdir. Jurnalın bir səhifəsi təxminən 1 milyon atom "qalınlığındadır". Əlinizdə bir açar olduğunu düşünün. Şübhəsiz, bu açarın içindəki atomları görməyiniz mümkün deyil. “Atomları mütləq görmək istəyirəm”, -deyirsinizsə, əlinizdəki açarı dünyanın böyüklüyünə qədər böyütmək lazım olacaq. Əlinizdəki açar dünya böyüklüyündə olsa, o zaman açarın təşkil edən hər bir atom albalı böyüklüyündə olar və siz də onları görə bilərsiniz. (Jean Guitton, Tanrı və elm, Simavi nəşrləri, 1993, səh: 62)

Kainata baxdığımızda yaradılan hər şeyin zaman keçdikcə məhv olduğunu, xarici təsirlərlə köhnəldiyini və aşındığını görürük. Hər şeyin əsas elementi olan atomda isə belə bir pozulma xüsusi müdaxilələrlə reallaşdırılan nüvə reaksiyaları istisna olmaqla əsla olmur. Atom Rəbbimizin ayədə bildirdiyi kimi, "kamil" yaradılmışdır. (Nəml surəsi, 88)

## Elektronların atom içindəki hərəkəti

***- Elektronların orbiti: Hər atom bir nüvə və nüvədən çox uzaqdakı orbitlərdə hərəkət edən elektronlardan təşkil olunub. Elektronlar eynilə dünyanın Günəş ətrafında dönərkən eyni zamanda öz ətrafında da dönməsi kimi, atom nüvəsinin ətrafında dönən hissəciklərdir. Planetlərdə olduğu kimi, bu dövran bizim orbit adlandırdığımız yollarda çox böyük bir nizamla və fasiləsiz reallaşır.***

***- Saniyədə 1000 km sürət: ən güclü mikroskoplar tərəfindən belə görünə bilməyəcək bir sahədə, nüvənin ətrafında dövr edən elektronlar atomun içərisində qarışıq bir trafik meydana gətirir. Burada diqqəti cəlb edən isə nüvənin ətrafını elektrik yükündən yaranan bir zireh kimi əhatə edən elektronların atomun içərisində qəza törətməmələridir. Saniyədə 1000 km kimi fövqəladə bir sürətlə hərəkət edən elektronlar bir-birlərilə bir dəfə belə olsun toqquşmurlar.***

Elektronların hər birinin öz orbitlərində dövr etdikləri, heç bir səhvə yol vermədikləri və kiçik ölçülərinə baxmayaraq, yüksək sürətləri ilə niyə toqquşmadıqları kimi suallar bizi bir nöqtəyə aparır. Bu bənzərsiz nizam və həssas tarazlıqda qarşımıza çıxan tək həqiqət uca Allahın qüsursuz yaratmasıdır. Rəbbimiz bir ayəsində belə buyurur:

**"Dağlara baxıb onları donmuş zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi bacarıqla edən Allahın gördüyü işdir. Həqiqətən, O, etdiyiniz əməllərdən xəbərdardır!" (Nəml surəsi, 88)**



Atom ayədə bildirildiyi kimi, Allahın "hər şeyi bacarıqla" yaratması ilə hərəkət edir. Elektronlar Allahın özləri üçün təyin etdiyi orbitlərdə ayədə də bildirildiyi kimi, durmadan dövr edirlər. Orbitlərində ən kiçik bir dəyişiklik belə olmur.



## Atomların 99,9999999%-i boşluqdur

Bu çox kiçik möcüzə var olan hər şeyin səbəbidir. Ən maraqlı olan isə atomların 99.9999999%-nin boşluq olmasıdır. Atomlar müsbət yüklü protonlar, mənfi yüklü elektronlar və yüksüz neytronlardan ibarətdir. Neytron və protonlar bir-birləri ilə bitişik halda nüvəni təşkil edir, elektronlar isə saniyədə 1000 km kimi yüksək bir sürətlə, fasiləsiz olaraq nüvə ətrafında fırlanırlar. Atomun kütləsini təşkil edən nüvə atomun həcminin milyardda birinin yalnız milyonda birini meydana gətirir. Ancaq bu kütlə olduqca böyük sıxlığa malikdir. Çünki atomun ağırlığının demək olar hamısını ehtiva edir. Əgər Empire State binasını təşkil edən atomların içindəki boşluqları çıxarmaq mümkün olsaydı, binanın əvəzində kibrit qutusundan daha kiçik bir şey qalardı. Ancaq kütləsi dəyişmədiyi üçün bu qutunu ən güclü kranlar belə qaldıra bilməzdi.

Atomun sahib olduğu kiçikliyi anlamağımız canlı-cansız bütün varlıqlarda təzahür edən sənəti görə bilməyimiz üçün çox əhəmiyyətlidir. Boşluqlardan ibarət olan bədənimiz boşluqlardan ibarət kresloya oturur, boşluqlardan ibarət olan mənzərəni seyr edir və biz boşluqlardan ibarət kosmosun içində fasiləsiz şəkildə fırlanırıq. Az qala hamısı boşluq olan atomlardan ibarət nəhəng okeanlar, gözəlliklər və nemətlər Yaradan uca Allahın əsərləridir. Hər şeyi yoxdan var etməyə qadir olan Allah kainatın hər parçasında hakim olan bu sənəti uca qüdrətinin dəlillərindən etmişdir. Allah səbəblərdən münəzzəhdir. Diləsə, hər şeyi səbəbsiz yaratmağa qadir olduğunu bu örnəklə insanlara xatırladır:

**"... Nə göylərdə, nə də yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz. Bundan kiçik, yaxud böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!" (Səba surəsi, 3)**

## Atomun içindəki böyük gücü idarə edən uca Allahdır

Atomları hər saniyə idarə edən, onların qüsursuz hərəkətini təmin edən, bizləri qoruyan aləmlərin Rəbbi uca Allahdır. Bu qüsursuz nizamı yaradan, bütün kainatın Yaradıcısı olan Allah hər şeyi "kamil" şəkildə var etmişdir. "Yusuf" surəsinin 100-cü ayəsində bildirildiyi kimi: **"... Həqiqətən, Rəbbim istədiyinə qarşı lütfkardır. O, doğrudan da, biləndir, hikmət sahibidir!"** Allah atomu içindəki bu böyük güclə birlikdə yaratmışdır və bu gücü də idarə edir. Rəbbimiz atomu təbii halında əsla pozulmayacaq bir sistemlə var etmişdir.

Kainatdakı hər şeyin zaman keçdikcə məhv olmasına baxmayaraq, atom hər an möhkəmliyini qoruyur, nüvə və ətrafındakı orbitlərdə çox böyük bir sürətlə fırlanan elektronları ilə Allahın "kamil" yaratmasını və hakimiyyətini bizə göstərir.



# QURANİ KƏRİM

### Allah tərəfindən qorunur

Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq! (Hicr surəsi, 9)

Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, (hər şeyi) eşidəndir, biləndir! (Ənam surəsi, 115)

Nə öncə, nə də sonra batil ona yol tapa bilməz. O, hikmət sahibi, şükrə layiq olan tərəfindən nazil edilmişdir. (Fussilət surəsi, 42)

### Əsas istinad mənbəyidir

Onlar cahiliyyət dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?! (Maidə surəsi, 50)

Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma. (Nisa surəsi, 105)

Biz (Quranı) sənə haqq olaraq, özündən əvvəlki kitabı təsdiq edən və onu qoruyan olaraq endirdik. Sən onların arasında Allahın nazil etdiyi (Quran) ilə hökm et. Sənə gələn haqdan ayrılıb onların nəfslərinin istədiyinə uyma. (Maidə surəsi, 48)

O halda onların arasında Allahın nazil etdiyi Kitabla hökm et. Onların nəfslərinin istədiyinə uyma. Allahın sənə nazil etdiyinin bir qismindən səni tovlayıb yayındıra biləcəklərindən ehtiyat edib özünü onlardan gözlə. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Doğrudan da, insanların çoxu fasiqlərdir! (Maidə surəsi, 49)

### Açıq və anlaşılandır

Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərə müjdə verəsən və inadkar bir camaatı qorxudasan. (Məryəm surəsi, 97)

Biz (Quranı) beləcə açıq-aşkar ayələr şəklində nazil etdik. Allah dilədiyini doğru yola müvəffəq edər. (Həcc surəsi, 16)

Və Allah sizin üçün ayələrini (belə ətraflı, açıq-aydın) izah edir. Allah (hər şeyi) biləndir, hikmət sahibidir! (Nur surəsi, 18)

Allah sizə Kitabı (Quranı) müfəssəl surətdə nazil etdiyi halda, mən (haqq ilə batili ayırd etmək üçün) Ondan başqasınımı özümə hakim istəməliyəm?! Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər. Odur ki, şübhə edənlərdən olma. (Ənam surəsi, 114)

# Sevgidə Qətiyyətli Olmaq

Dünyanın hər tərəfində yaşayan insanlardan soruşsanız, hər biri özlüyündə sevginin və sevməyin nə olduğunu yaxşı bildiklərini və sevdikləri insanların hədsiz çox olduğunu deyəcəklər. Halbuki dünyada sevginin və sevməyin nə olduğunu qavrayan insanların sayı çox azdır.

Əlbəttə ki, insanların "sevgi" deyə zənn etdikləri hiss var. Ancaq müəyyən zaman keçdikdən sonra bu duyğunun sevgi olmadığı üzə çıxır.

Həqiqi sevgi sınaqlardan keçdiyi təqdirdə zərər görməyən, zamana, çətinliklərə, çatışmazlığa, yanlışlara qarşı səbirli və hər keçən gün daim artan duyğuya verilən addır.

Əgər insanın "sevgi" deyə adlandırdığı hissləri bu xüsusiyyətlərdən uzaqdırsa, belə olduqda bu duyğunun adı ancaq "keçici həvəs", "keçici bəyənmə", "keçici maraq", "vaxt keçirmək üçün əyləncə" ola bilər.

Belə hisslərin "sevgi" olmadığının əlamətləri də aşkardır. Bu hissləri yaşayan insan: "Çox sevirəm", -deyər, ancaq ən kiçik anlaşılmazlıqda asanlıqla küsər. "Çox sevirəm", -deyər, amma qısa müddətdə bezər. "Çox sevirəm", -deyər, amma nəfsinə və mənfəətlərinə uyğun gəlmədikdə dərhal sözündən dönər. "Çox sevirəm", -deyər, ancaq qarşısındakı insanın ən kiçik acizliyini gördükdə dərhal üz döndərər. "Çox sevirəm", -deyər, hər hansı vəziyyət qarşısında qaldıqda tərəddüdsüz sevdiyini unudar. "Çox sevirəm", -deyər, amma sevdiyi insana iftira atıldıqda dərhal buna inanar. "Çox sevirəm", -deyər, bir müddət uzaq qaldıqda tez unudar. "Çox sevirəm", -deyər, amma zaman keçdikcə bu



sevgini artırmaq yerinə, azaldar. “Çox sevirəm”, -deyər, ancaq çətin zamanlarında bu insanın çətinliklərinə ortaq olub ona dəstək olmaq yerinə, onu öz problemləri ilə yalnız buraxıb, həyatını yaşamağa davam edər.

Cahiliyyə cəmiyyətlərində “sevgi” adı verilən bu hisslərin əslində sevgi olmadığı insanlar tərəfindən çox yaxşı bilinən həqiqətdir. Yuxarıda da qeyd etdiyimiz kimi, insanların sevdiklərini iddia etdikləri insanları necə asanlıqla həyatlarından çıxardıqlarını göstərən əlamətlər cəmiyyətdə məlum olan, məşhur davranışlardır. Hətta bu davranışlar bu tip insanlar üçün həyatın qanunu kimidir. Atalar sözlərində insanlar tez-tez bu qanunları dilləri ilə bəyan edirlər. İnternetdə “sevgi” adı altında yazılan yazılarda, kitablarda, səhifələrlə yazılan məqalələrdə bu məşhur sevgi anlayışının əslində gerçək sevgi olmadığı açıq şəkildə ifadə edilir.

“Gözdən uzaq olan könüldən də iraq olar” və ya “Sev məni, sevim səni” kimi sözlər insanların sevgiyə olan yanlış baxış istiqamətini göstərən nümunələrdəndir.

Belə yalnış fikirlər həqiqətən, sevən insanlarda əsla meydana gəlməz. Həqiqi sevgidə ən əsas amillərdən biri də sevən insanın sevgisinə sadiq olmasıdır. Həyatında baş verən heç nə, ətrafında baş verən heç bir hadisə, sevdiyi insanın hərəkətlərində və hisslərində meydana gələn heç bir dəyişiklik bu insanın sevgisinə mənfi təsir göstərməz. Həqiqi sevgi hər şeyə qarşı mübarizə apara bilməkdir. Hətta mənfi təsirlər belə bu insanın sevgisini daha da artıran, coşduran ünsürlərdir. Küsmək, incimək, hirslənmək, bezmək, çətinlikdə sevdiyini yalnız qoymaq, tərk etmək və ya unutmaq kimi hərəkətlərin həqiqi sevgidə yeri yoxdur.

Çünki həqiqi sevgi Allah sevgisinə əsaslanan sevgidir. Bu cür sevgi anlayışı yalnız imanın və Quran əxlaqının yaşandığı təqdirdə qazanıla bilər. Allah ayədə də bildirdiyi kimi, iman edib saleh işlər görənlərin qəlblərində Öz sevgisini yaradacağını bu şəkildə bildirmişdir:

**Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)**

## Həqiqi sevgi Allahın yalnız iman edən qullarına nəsib etdiyi nemətdir.

Sevgisi Allah sevgisinə və imana əsaslanan insan əsla sevdiyinə vəfasızlıq, sədaqətsizlik göstərməz. Onun bu sevgisi mənfəətə bağlı deyildir. Pulun, mövqeyin, maddi dəyərlərin heç bir əhəmiyyəti yoxdur. Bu səbəbdən də nə dəyişən şərait, nə acizliklər, nə də öz mənafeyini güdmək kimi dünyəvi istəklər belə bir sevgiyə əsla zərər verə bilməz. Mömininin Allaha qarşı duyduğu dərin eşq, coşğulu sevgi və yaşadığı gözəl əxlaq özü ilə birlikdə insanlara qarşı daima sevgi yaradır.



# Hz. İsanın YAXINLAŞAN Zühuru

Hz. İsanın (ə.s) anadan olmasından Allah Qatına yüksəlməsinə qədər hər hadisəyə Quranda diqqət çəkilmişdir. Hər şeydən əvvəl, hz. İsa (ə.s) məlum səbəblərdən müstəqil olaraq doğulmuş və atasız dünyaya gəlmişdir. Bundan başqa, Quranda "Allahın kəlməsi" ifadəsi yalnız hz. İsa (ə.s) üçün istifadə edilmişdir. Allah hz. İsa (ə.s) hələ dünyaya gəlmədən əvvəl onun adını bildirmişdir. Bu, hz. İsanın digər insanlardan fərqli yaradılışla yaradıldığını göstərən dəlillərindəndir.

Allahın qiyamətə qədər qoruyacağını vəd etdiyi Qurani-kərim hz. İsa (ə.s) haqqında bizə yeganə doğru məlumatı verir. Allah Quranda hz. İsanın (ə.s) ölmədiyini, göyə yüksəldildiyini və qiyamətdən əvvəl axırzaman adlandırılan dövrdə ikinci dəfə dünyaya gələcəyini xəbər vermişdir.

## Hz. İsa (ə.s) öldürülməmiş, Allah qatına yüksəldilmişdir

Hz. İsanı(ə.s) tutan romalılar və yəhudi din adamları onu çarmıxa çəkdiklərini və beləliklə də öldürdüklərini iddia etmişdilər. Belə ki, bütün xristian aləmi də hadisəni bu cür qəbul edir, lakin hz. İsanın (ə.s) öldükdən sonra dirilərək göyə yüksəldiyinə inanırlar. Ancaq Quran ayələrinə baxdığımız zaman, əslində, hadisənin belə olmadığını görürük:

**Bir də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" (qətəlna) – dediklərinə görə (lənətə düçar edildilər.) Halbuki onu nə öldürdülər (ma qatəluhu), nə də çarmıxa çəkdilər (salubuhu). Onlara ancaq (İsanın) bənzəri göstərildi (şubbihə). Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər (ma qatəluhu). (Nisa surəsi, 157)**

## Həmin ayənin davamında hz. İsanın (ə.s) Allah Qatına yüksəldilməsi bu şəkildə xəbər verilir:

**Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır (rafuahu). Şübhəsiz, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Nisa surəsi, 158)**

Ayədə keçən "Onlara ancaq (İsanın) bənzəri göstərildi" ifadəsi bu həqiqəti bir daha təsdiq edir. Hz. İsa (ə.s) öldürülməmiş və Allah qatına yüksəldilmişdir. Allah bu iddianı irəli sürənlərin həqiqəti bilmədiklərini də xəbər verir. Allah insanlara hz. İsanın (ə.s) bənzərini göstərmiş və onu Öz qatına yüksəltmişdir.

## Quranda peyğəmbərlərin ölümü

Quranda peyğəmbərlərin ölümündən bəhs edilən qissələrdə istifadə edilən sözlərlə hz. İsanınv (ə.s) öldürülmə cəhdinin izah edildiyi ayələrdə keçən sözlərin araşdırılması hz.İsa (ə.s) ilə bağlı vacib həqiqəti üzə çıxarır. Quranda peyğəmbərlərin ölməsi və ya öldürülməsi ilə əlaqədar "qatələ (öldürmək), məvti (ölmək), halukə (həlak olmaq), səhləbə (asmaq)" sözlərindən istifadə edilmişdir. Halbuki hz. İsa (ə.s) haqqında Qurandakı "onu nə öldürdülər (ma qatəluhu), nə də çarmıxa çəkdilər (salubuhu)" ifadə onun öldürülmədiyini bildirir. İnsanlara hz. İsanın (ə.s) bənzərinin göstərildiyi, onun isə Allah Qatına yüksəldildiyi bildirilir. Ali-İmran surəsində Allahın hz. İsanı (ə.s) vəfat etdirəcəyi və onu Öz Qatına yüksəldəcəyi bildirilmişdir:

**O vaxt Allah dedi: "Ey İsa! Mən sənin həyatına son qoyub (mütavaffiykə) Özümə tərəf qaldıracağam (rafiukə), səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm..." (Ali-İmran surəsi, 55)**

Quranda ölüm mənasını ifadə edən sözlərin araşdırılması hz. İsanın (ə.s) bildiyimiz mənada ölmədiyini açıq şəkildə ortaya qoyur. Ali-İmran surəsində keçən "vəfat etdirmə" sözünün istifadə formaları belədir:

### Təvəffa: Vəfat etdirmə

Maidə surəsinin 117-ci ayəsində ölüm hadisəsi bu şəkildə xəbər verilir:

**Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: "Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni (göyə qaldırıb dərgahına) qəbul etdikdən sonra (təvəffaytəni) onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!**

Bu ayə "göyə qaldırıb dərgahına qəbul etdikdən" kimi tərcümə edilən söz ərəb dilində "təvəffa" kökündən törəmişdir və bu söz ölüm mənasını deyil, "canın alınması" mənasını verir. İnsanın canının alınmasının isə həmişə ölüm mənasını vermədiyi Quranda bizə bildirilir. Məsələn, "təvəffa" sözünün keçdiyi bir ayədə insanın ölümündən deyil, yuxuda canının alınmasından bəhs edilir:

**Gecələr sizi yatızdıran (yətəvəffakum), gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın. Sonra isə dönüşünüz Ona olacaq. O, nə etdikləriniz barədə sizə xəbər verəcəkdir... (Ənam surəsi, 60)**

Bu ayədə "vəfat etdirmə" kimi tərcümə edilən sözlə Ali-İmran surəsinin 55-ci ayəsində işlədilən söz eynidir, yəni hər iki ayədə də "təvəffa" sözü keçir.

Allah Quran ayələrində hz. İsanın (ə.s) öldürülmədiyini, asılmadığını, insanlara onun bənzərinin göstərildiyini, onu vəfat etdirdiyini (yəni yuxudakı kimi canını aldığını) və Öz Qatına yüksəltdiyini bildirmişdir. Hz. İsa (ə.s) üçün "canın alınması" mənasını verən təvəffa feli istifadə edilərkən, digər peyğəmbərlər üçün normal ölümü ifadə edən "qatələ", ya da "məvti" kimi sözlərdən istifadə edilmişdir. Bu məlumatlara əsasən, hz. İsanın (ə.s) yuxudakına bənzər vəziyyətə salınaraq Allah qatına yüksəldildiyini, hadisənin bildiyimiz ölüm olmadığını, sadəcə bu ölçüdən ayrıldığını deyə bilərik (Doğrusunu Allah bilir).

**"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!" (Ənam surəsi, 162)**



# Müsəlmanlar və Elm

İslam əxlaqının bəşəriyyətə gətirdiyi nurlardan biri də elmi düşüncədir. İslamdan əvvəl ərəblər və digər Yaxın şərq xalqları kainatın və təbiətin necə yarandığı və hərəkəti barədə heç maraqlanmırdılar. Bu suallar üzərində düşünməyi, bunların cavablarını araşdırmağı ilk dəfə Qurandan öyrənmişdilər. Allah Quranda inananlara, göylərin və yerin necə var olduğunu araşdırmalarını əmr edir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru! (Ali-imran surəsi, 191)**



Bu şüur İslam mədəniyyətində böyük elmi yüksəlişi başlatmışdı. Bu, dünya tarixində əvvəllər rast gəlinməyən elmi inkişaf idi. İslamın elmi yüksəlişinin mərkəzi isə İslam imperiyasının paytaxtı olan Bağdad idi. İslam dünyasının dörd tərəfindən gələn elm adamları, mütəfəkkirlər, tədqiqatçılar Bağdadın məşhur Hikmət evində görüşür və Allahın yaratdığı kainatın sirlərini açmaq üçün tədqiqatlar aparırdılar.

Müsəlman elm adamlarının Quran əxlaqına riayət edərək əldə etdikləri bu şüur bəşəriyyətin həmin dövrə qədər mövcud olmuş ən böyük elmi nailiyyətlərini meydana gətirirdi. Həmçinin Quranda müsəlmanlara təlqin edilən açıq fikirli olmaq müsəlmanların digər mədəniyyətlərin elmi təcrübələrini ön mühakiməsiz şəkildə araşdırmalarına və inkişaf etdirmələrinə səbəb olmuşdur. Müsəlmanların elmi əsərləri elmi mövzularda aparılmış çoxsaylı araşdırma, müşahidə, təcrübə və hesablamalarla dolu idi.

Bu gün dünyada istifadə edilən onluq say sistemini və rəqəmləri icad edənlər müsəlman riyaziyyatçılar idi. Cəbr və triqonometriya müsəlman riyaziyyatçılarının kəşfidir. Müsəlman elm adamları astronomik müşahidələrə böyük əhəmiyyət verirdilər. Müasir astronomiya onların metodlarına əsaslanaraq qurulmuşdur. Müsəlman alimlər Ayın Dünya ətrafındakı hərəkətini də hesablamış və bunu riyazi düsturlarla göstərmişdilər. İslam dünyasının müxtəlif bölgələrindəki görkəmli arxitektura əsərləri bu elmi infrastruktur sayəsində qurulmuşdu.

Müsəlmanların ən mühüm kəşflərindən

bəziləri isə tibb sahəsində olmuşdu. O dövrdə avropalılar xəstəlikləri pis ruhların lənəti hesab edirdilər. Müalicə anlayışı Avropa təfəkküründə yox idi. Müsəlman elm adamları isə araşdırmaların nəticəsində xəstəliklərin gözlə görülməyən kiçik canlılardan (mikroblardan) yoluxduğunu müəyyən etmişdilər. Bunun nəticəsində də xəstələrin sağlam insanlardan təcrid edilərək müalicə edilməsinin vacibliyini başa düşmüşdülər. Beləliklə, dünyanın ilk müasir xəstəxanaları qurulmuşdu. Müsəlman xəstəxanalarında fərqli tipdəki xəstələr üçün ayrılmış xüsusi hissələr və elmi müalicə üsulları var idi. Hətta ruhi xəstəliklər musiqinin köməyi ilə müalicə edilirdi. Həmin dövrlərdə Avropada isə ruhi xəstələr şeytanın xidmətçisi kimi qəbul edilib diri-diri oda atılırdı. Müsəlman həkimlərin insan anatomiyası üzərindəki işləri o qədər dəqiq idi ki, 6 əsr boyunca Avropanın tibb fakültələrində əsas mənbə olaraq istifadə edilmişdi.

Məşhur ingilis tədqiqatçı Terri Cons tərəfindən BBC televiziyası üçün hazırlanan və İslam dünyasını tədqiq edən sənədli filmdə İslamın bu yüksək elmi səviyyəsindən belə danışılır:

"Harran şəhərindən olan islami mütəfəkkirlərdən biri Yerlə Ay arasındakı məsafəni dəqiq ölçmüşdü. Bir başqa müsəlman alim isə atomun parçalandığı təqdirdə, Bağdad böyüklüyündə bir şəhəri məhv edə biləcək qədər gücünün ortaya çıxacağını yazmışdı. Harveydən əsrlər əvvəl, 1154-cü ildə Şamda tikilən tibb fakültəsində həkimlər tərəfindən tələbələrə anatomiya, qoruyucu dərmanlar, gigiyenik əməliyyatlar və qan dövranı sistemi öyrədilirdi".

Avropalılardan əsrlər əvvəl qan dövranını bilən müsəlman həkimlər xəstələrin nəbzini sayaraq onları müayinə edirdilər. Doğuşlar dövrün ən gigiyenik üsulları ilə reallaşdırılırdı. Müsəlman cərrahların istifadə etdiyi və o dövrün tibb kitablarında göstərilən əməliyyat vasitələri kifayət qədər inkişaf etmiş tibb bilgisinin sübutu idi.

İslam dünyasının elmi məktəblərində kişilər kimi qadınlar da təhsil alır, elmin inkişafında onlar da iştirak Müsəlman elm adamları işığın quruluşu və optika mövzusunda da çox böyük nailiy-yətlərə imza atmış-dılar. Gözün quruluşunu təfərrüatlı şəkildə izah edən ilk müsəlman optik İbn əl-Heytəm idi. İbn əl-Heytəmin linzalar barəsində apardığı uğurlu araşdırmalar kameranın meydana gəlməsinə səbəb olmuşdu. Görmə qüsurlarının səbəbini kəşf edən müsəlman həkimlər avropalılardan düz 1000 il əvvəl uğurlu katarakta əməliyyatları aparırdılar.

İslamın böyük elmi mirası Avropanın 15-ci əsrdən etibarən başlayan elmi yüksəlişinin də ən əhəmiyyətli qaynağı idi. Xristian elm adamları müsəlmanlardan öyrəndikləri məlumatlar və üsullarla Avropa elmini qururdular. İslamın nuru onları da aydınlatmışdı.





# KLONLAŞDIRMA Təkamül Nəzəriyyəsinə DƏLİL DEYİL

## Canlıların klonlaşdırılması nədir?

Klonlaşdırma prosesi üçün klonlaşdırılacaq canlının DNT-sindən istifadə edilir. Canlının bir hüceyrəsində olan DNT-si mikroskop altına qoyulur və o növdən olan başqa bir canlıya aid yumurta hüceyrəsinin içinə yerləşdirilir. Bundan dərhal sonra ona şok verilir və yumurta hüceyrə şok nəticəsində bölünməyə başlayır. Bölünməyə davam edən rüşeym o növdən olan hər hansı canlının bətninə yerləşdirilir və inkişaf edib doğulması gözlənilir.

## Klonlaşdırmanın nə üçün təkamüllə əlaqəsi yoxdur?

Klonlaşdırma və təkamül anlayışları bir-birindən tamamilə fərqlidir. Təkamül nəzəriyyəsi cansız maddələrin təsadüflər nəticəsində canlı əmələ gətirməsi üzərində qurulmuşdur (bu iddianın həyata keçəcəyinə aid heç bir fakt yoxdur). **Klonlaşdırma isə canlı hüceyrəsinin genetik maddəsindən istifadə edilərək həmin canlının kopyalanmasıdır. Burada proses onsuz da canlı olan hüceyrədən başlanılır və bioloji proses laboratoriya mühitində süni üsulla həyata keçirilir. Yəni ortada təkamülün əsas iddiası olan "təsadüfi" proses və ya cansız maddənin canlanması kimi bir vəziyyət yoxdur.** Əslində klonlaşdırma prosesi təkamülə heç bir dəlil vermir, əksinə təkamül nəzəriyyəsini kökündən məhv edən bioloji qanunun çox açıq sübutudur. Bu qanun məşhur alim Lui Pasterin XIX əsrin sonuna yaxın ortaya qoyduğu "həyat həyatdan qaynaqlanır" prinsipidir. Bu aşkar həqiqətə baxmayaraq, klonlaşdırmanın təkamülə dəlil kimi göstərilməsi media yolu ilə həyata keçirilən yanıltma və yalandan ibarətdir.

Bu saxtakarlıq əslində təkamülçülərin klassik üsuludur. Təkamül nəzəriyyəsinin ortaya atılmasından sonra daha ilk illərdən başlayaraq nəzəriyyəni qəbul etdirmək üçün müxtəlif təbliğat üsullarının istifadə edildiyi, hətta bəzi təkamülçü alimlərin elmi saxtakarlıqlara əl atdığı məlumdur. Təkamülçü media da bu saxtakarlıqlara "ortaq" olmuşdur.



Mövcud olmayan dəlillər təlqin üsulu ilə cəmiyyətə təqdim edilmiş və insanların əksəriyyətinin bu yalanlara inanmasına nail olunmuşdur.

Ancaq xüsusilə son 40 il ərzində müxtəlif elm sahələrindəki irəliləyişlər canlıların meydana gəlməsinin təsadüf anlayışı ilə açıqlanmasının qeyri-mümkün olduğunu göstərmişdir. Təkamülçülərin saxtakarlıqları və qərəzli izahları aşkar olunmuş və beləliklə, təkamül nəzəriyyəsi elmi metodla araşdırıldıqda doğru olmadığı məlum olmuşdur. Bu həqiqət isə təkamülçülərin bir qismini fərqli axtarışlara sövq edir. Elə "canlıların klonlaşdırılması" kimi elmi nailiyyətlərin təkamülə dəlil olduğu təbliğatının aparılması da bu səbəbdəndir.

Elmi həqiqətlərə əsaslanaraq cəmiyyətə söyləyəcək sözü qalmayan təkamülçülərin insanların məlumat azlığından faydalanaraq nəzəriyyəni dirçəltməyə çalışmaları yalnız o nəzəriyyənin elmi tərəfdən acınacaqlı halda olduğunu göstərir. Digər bütün elmi nailiyyətlər kimi "klonlaşdırma" da canlıların yaradıldığını göstərir.

## Klonlaşdırma haqqında digər səhv anlayışlar

Klonlaşdırma barədə insanlarda yaranan digər **yalnış fikir isə klonlaşdırmanın "insan yaratmaq" kimi qavranılmasıdır. Ancaq əslində klonlaşdırmanın insan yaratmaqla əlaqəsi yoxdur. Klonlaşdırma mövcud olan canlı çoxalma sisteminə mövcud olan genetik məlumatı əlavə etməkdən ibarətdir. Mövcud olan insanın genetik məlumatı götürülür, bir ananın bətninə yerləşdirilir və ananın doğacağı yeni körpə genetik məlumatı götürülən şəxsin "eyni yumurta əkizi" olur.**

Klonlaşdırmanın nə olduğunu bilməyən bir çox insan isə bu barədə xəyali düşüncələrə malikdir. Məsələn, 30 yaşında bir insanın hüceyrəsinin götürülərək elə həmin gün yenə 30 yaşlı surətinin (kopyasının) əmələ gətirildiyini zənn edirlər. Ancaq sadəcə fantastik-elmi filmlərdə rast gəlinən belə "klonlaşdırma" forması mövcud deyil və olması da mümkün deyil. **Klonlaşdırma əslində bir insanın "eyni yumurta əkizinin" təbii yollarla (yəni ana bətnində) həyata gətirilməsidir. Bunun nə təkamül nəzəriyyəsi ilə, nə də "insan yaratmaq" anlayışı ilə heç bir əlaqəsi yoxdur.**

Bir insanı və ya başqa hər hansı bir canlını yaratmaq, yəni yoxdan var etmək sadəcə Allaha məxsusdur. Belə ki, elmi nailiyyətlər də bu yaratmanın insanlar tərəfindən həyata keçirilməsinin mümkün olmadığını göstərir. Bir ayədə belə buyurulur:

**Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol!" - deyər və o da olar. (Bəqərə surəsi, 117)**

# HƏR AN HƏR ŞEYİ EDƏN ALLAHDIR

**İnsan özünə daima belə bir sual verməlidir: hər an hər şeyi Allahın etdiyini mütəmadi şəkildə düşünürəmmi?**

- Müəyyən edilmiş vaxtda biri ilə görüşəcəkdiniz, lakin həmin insan vaxtında gəlmədi.
- Uğurlu bir iş gördünüz, amma qarşınızdakı şəxs bunu lazımi qədər təqdir etmədi.
- Çox əmək sərf edib qarşınızdakı insana gözəl bir şey təqdim edirsiniz, o isə buna əhəmiyyət ver
- Yaxşı niyyətlə bir söz söyləyirsiniz, lakin qarşınızdakı bunu səhv başa düşür.
- Saatlarla təmizlik işləri görüb ətrafı gözəlləşdirirsiniz, amma biri gəlib düşüncəsiz şəkildə hər yeri zibilləyir.
- Təcili surətdə birindən kömək istəyirsiniz, o isə sizi unudur.
- Yatmaq istəyirsiniz, amma biri düşüncəsiz şəkildə səs-küy salır.
- Birinə mühüm bir əşya əmanət edirsiniz, o isə əşyanı itirir.
- İllərlə universitet imtahanına hazırlaşırsınız, amma sonuncu gün xəstələnib imtahana gedə bilmirsiniz.
- Yeni paltar alıb geyinirsiniz, ani bir səhvlə üzərinizə yemək tökülür.
- Alış-verişə çıxıb keyfiyyətli mal alırsınız, amma evə gəldikdə aldadıldığınızı başa düşürsünüz.
- Çantanıza çoxlu pul qoyursunuz, amma pulqabınız oğurlanır.
- Yola çıxırsınız, naşı bir sürücü gəlib sizi vurur.
- Tələsirsiniz, amma yolda tıxac olduğuna görə saatlarla istədiyiniz yerə çata bilmirsiniz.
- Yaxın qohumunuz anidən xəstələnir, lakin təcili yardım gec gəldiyi üçün xilas olmayıb vəfat edir.
- Müalicə almaq üçün xəstəxanaya gedirsiniz, lakin səhlənkarlıq ucbatından bədəninizə başqa bir mikrob düşür və yeni xəstəliyə tutulursunuz.
- Bütün bu yaşadıqlarınıza görə zərər çəkdiyinizi düşünür və bütün günahın qarşınızdakı şəxslərdə olduğunu zənn edirsiniz. Qəzəblənir və bu hirsinizi onlara yönəldirsiniz.

Belə hallarda bir çox insan qəzəblənir və gileylənir. Sanki həmin insan o səhvi və ya davranışı etməsəydi, hər şey onun tam istədiyi kimi olacaqdı.

Halbuki bu, o qədər böyük yanlışdır ki, əgər insan bu həqiqəti qavrayarsa, həyata baxışı tamamilə dəyişər. Allah bir Quran ayəsində yerdən göyə hər şeyi nizamlayanın Zatı olduğunu belə xəbər verir:

**Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta qədər dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl**



**izah edən məhz Allahdır. Rəbbinizlə qarşılaşacağınıza, bəlkə, inanasınız! (Rəd surəsi, 2)**

## Dünyada bir toz zərrəsini belə Allahdan başqa hərəkət etdirə bilən güc yoxdur

Dünyada baş verən hər şey yalnız Allah istədiyi üçün reallaşır. Bir insanın həyatı boyu yaşadıqlarını bir film kimi təsəvvür edin: bu filmə hər dəfə baxdıqda eyni görüntülərlə qarşılaşırsınız, belə ki, insan həyatının da bundan heç bir fərqi yoxdur. Bu film yüz illər boyu saxlansa da, eynilə qalar. Odur ki, insanın ömrü boyu yaşayacaqları da bunun kimi heç vaxt dəyişmir. Əgər bir insan gedəcəyi yerə gecikməlidirsə, mütləq gecikəcək. Bunun səbəbi yoldakı tıxac, xəstəlik və ya unutqanlıq ola bilər. Amma nəticə heç vaxt dəyişmir. Eyni şəkildə ölüm vaxtı çatan bir insanın ölümünə heç bir amil mane ola bilməz; təcili yardım gecikə bilər, yol qəzası ola bilər, həkim səhlənkarlıq edə bilər. Amma bu nəticə qəti şəkildə reallaşar.

Buna görə də insanın gündəlik qarşılaşdığı hadisələrə baxışı fərqli olmalıdır. Məsələn, əgər pulqabısı oğurlanırsa, deməli, həmin insanın pulunun olmaması lazım idi və Allah bunun üçün bir səbəb yaratmışdır. Əgər bir insan universitet imtahanına gedə bilmirsə, deməli, Allah həmin il onun universitetə daxil olmamasını, başqa işlə məşğul olmasını istəmişdir. Əgər qarşı tərəf gecikdiyinə görə görüş baş tutmursa, bu, Allahın bu görüşün olmamasını istədiyi üçündür. Allah istəmədikcə heç kim gecikə bilməz; heç kim unutmaz; heç kim səhlənkarlıq edə bilməz; heç kim bir şeyi səhv anlaya bilməz; heç kim verilən əmanəti itirə bilməz; heç kim tıxaca düşməz; heç kim avtomobili pis idarə etməz... Bu mövzuda bir həqiqəti bilmək lazımdır: insanın yaşadığı hər hadisəni yaradan Allahdır və Allah reallaşması zəruri olan hadisə üçün mütləq bir səbəb

yaradır. Ancaq bu səbəb də öz-özünə meydana gəlmir. Heç kim Allah istəmədən bunu etmək iqtidarında deyil. Rəbbimiz Quranda bu həqiqəti belə bildirir:

**"Allah istəməsə, siz istəyə bilməzsiniz. Həqiqətən, Allah biləndir, hikmət sahibidir!" (İnsan surəsi, 30)**

**"Aləmlərin Rəbbi olan Allah istəməsə, siz istəyə bilməzsiniz!" (Təkvir surəsi, 29)**

**"Onları siz öldürmədiniz, Allah öldürdü. Atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri yaxşı bir imtahandan keçirtdi. Allah eşidəndir, biləndir!" (Ənfal surəsi, 17)**

## Baş verən hadisələrin hamısı dünya həyatının imtahan yeri olmasından qaynaqlanır

Allah insanları imtahan etmək üçün onların xoşlarına gələn və gəlməyən müəyyən hadisələr yaradır. Bununla da insanlar həmin hadisələr qarşısında hansı əxlaqı göstərəcəkləri ilə sınağa çəkilir. Allah bütün yaratdığı hadisələrdə bizim heç bilmədiyimiz sirlər, hikmətlər, nemətlər və müxtəlif sınaqlar gizlətmişdir. Məsələn, başqasının düşüncəsizliyi səbəbi ilə bir yerə gedə bilməyən bir insan bəlkə də buna görə böyük təhlükələrdən qorunur. Yolda onu vuracaq avtomobil, yolda başına gələcək oğurluq və ya yoluxacağı xəstəlik bəlkə də bu vasitə ilə əngəllənir.

Bu səbəblə, insan hadisələrin ardında bir çox sirr və hikmətlərin olduğunu bilərək hər an Allaha tam güvən və təslimiyyət içində yaşamalıdır. Qarşılaşdığı yaxşı və pis hadisələrə, nemət və çatışmazlıqlara baxmayaraq, Allaha şükr etməli, Allahın ən xeyirlisini yaratdığını düşünməlidir. Allah bir ayədə bunu belə bildirir:

**... Yoxlamaq məqsədilə Biz sizi şər və xeyirlə imtahana çəkərik. Və siz ancaq Bizim hüzurumuza qaytarılacaqsınız! (Ənbiya surəsi, 35)**

Bu səbəblə, insan gündəlik qarşılaşdığı hadisələrin heç birinin insanlardan qaynaqlandığını düşünməməlidir. Hamısını yaradanın yalnız Allah olduğunu unutmamalıdır. Ona yaxşılıq və ya pislik edən, zərər verən və ya lehində hərəkət edən yalnız Allah əmr etdiyi üçün belə davranır. Dolayısılə, bir insanın başına gələnlərə görə başqalarına qəzəblənməsinin, gileylənməsinin, küsməsinin və inciməsinin mənası yoxdur. Mömin nemət və ya çətinliklə qarşılaşdığında bunların yalnız Allahdan olduğunu bilməlidir. Əlbəttə, insan pis insanlara qarşı ehtiyatlı olmalı və yaxşı insanlarla gözəl davranmalıdır. Amma həyatının hər anındakı hadisələri yaradanın Allah olduğunu heç vaxt unutmamalıdır. Bu həqiqəti bilən müsəlmanların əxlaqı Quranda belə bildirilmişdir:

**De: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O, bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

# Yaşadığımız hər saniyə Allahın bizə verdiyi böyük fürsətdir

İnsanın nəfsi təxirə salmağa meyillidir. Ona görə bəzi insanlar Allahın istədiyi kimi yaşamağı, səmimi olmağı daima təxirə salırlar. Halbuki “yaşlandıqda namaza başlayaram”, “bu yaxınlarda Quran oxumağa başlayaram”, “bütün səhvlərimi düzəldərəm”, “ali məktəbi də bitirim, dərhal namaz qılmağa başlayaram”, “bir az yetkinləşim, sonra dərin-dərin düşünərəm”, “təhsilimi tamamlayım, ehtiyacı olanlara sonra kömək edərəm”, “yaxşı karyera qurum, zülmə məruz qalan müsəlmanlar haqqında o zaman düşünərəm” deyən bir çox insan var. Allah onlara güc və imkan verdikdə bunları etməz, ancaq anidən bunları edə bilmyəcək hala düşərlər. Allah insanın canını anidən və heç gözləmədiyi anda alıb onu ölüm mələkləri ilə üzləşdirə bilər.

Allahdan qorxan səmimi müsəlman yaşadığı hər saniyənin, aldığı hər nəfəsin Allahın ona verdiyi böyük fürsət olduğunu düşünərək hərəkət etməlidir. Gözəl və xeyirli işləri təxirə salmaq üçün vaxtı olmadığını bilməlidir. Çünki Allah istəsə, növbəti anı yaratmaz. İnsan bu mühüm həqiqəti dərk etməli və buna görə yaşamalıdır.

Hər şeyin, sonsuz gücə malik olan Rəbbimiz Allah növbəti saniyəni bizə bəxş edərək çox böyük lütf edir.

Çünki yaşadığımız hər an:

- Allahı daha çox sevib, Allah qorxumuzu daha  çox artıra bilərik.
- Allahın rizasını qazanmaq üçün daha çox cəhd edə bilərik.
- Allaha səmimi şəkildə dua edə bilərik.
- Allahdan daha çox bağışlanma diləyə bilərik.
- Əvvəlki andan daha səmimi ola bilərik.
- Daha dərin imanlı, daha təqvalı ola bilərik.
- Vicdanımızı daha çox dinləyə bilərik.
- Ağlımızı daha da artırar,  əxlaqımızı daha da gözəlləşdirərik.
- Quran əxlaqını təbliğ etmək və yayılması üçün daha çox səy göstərə bilərik.
- Şəxsiyyətimizi daha da kamilləşdirə bilərik.
- Sevgini daha dərindən yaşaya bilərik.
- Daha dərin düşünə bilərik.
- Səhvlərimizi və qüsurlarımızı aradan qaldırmaq üçün daha çox çalışa bilərik.

Unutmamalıyıq ki, təxirə salmadan, vaxtında edilən ibadət, gecikdirilməyən əxlaqlı davranış müsəlman üçün qazancdır. Möminin Allaha olan təslimiyyətini, sevgisini, inancını, imanını göstərməsi üçün bir lütfdür. Çünki Quranda bildirildiyi kimi, **“Təxirə salmaq ancaq küfrü artırır...” (Tövbə surəsi, 37)**



# Ölümə Tələsən Erkək ARILAR

Arı ailəsində hər arının öz işi var. Ancaq erkək arılar istisnadır. Erkək arılar nə pətəyin qorunmasında, nə təmizliyində, nə də qida tədarükündə iştirak edirlər. Onların pətəkdəki yeganə funksiyası ana arını mayalandırmaqdır. Cütləşmə orqanlarından başqa heç bir xüsusiyyətə malik olmadıqlarına görə ancaq ana arını mayalandırmaqla məsuliyyət daşıyırlar.

Qış aylarında pətəkdə ancaq ana və işçi arılar olur. Çünki qış gəlməmiş erkək arılar ya pətəkdən bayıra atılır, ya da öldürülürlər. Lakin qış çıxdıqda işçi arılar erkək arılar üçün pətək inşa etməyə başlayırlar. Ana arı isə şan qovuqcuğuna erkək arıları yetişdirən yumurtalarını qoyur. May ayının əvvəlində erkək arılar qovuqcuqlardan çıxmağa başlayırlar.

Ümumiyyətlə, bu aylar qoca ana arının yeni arı ailəsi qurmaq üçün pətəkdən ayrıldığı və pətəkdə yeni ana arıların yetişdirildiyi aylardır. Məhz bu dövrdə yeni yetişmiş ana arı yumurta qoymaq üçün cütləşmə uçuşuna çıxır. Bu da işçi arıların erkək arı yetişdirilmə səbəblərindən biridir.

### Xüsusi xidmət göstərən işçi arılar

Erkək arılar heç bir iş bacarmadıqları halda, ana arı ilə cütləşənədək işçi arılar onlara çox qayğı göstərirlər. Pətəkdə yaşayan və sayı 400-500-ə qədər olan erkək arılardan sadəcə birini bəsləmək üçün 5-6 işçi arı heç dayanmadan işləməlidir. Yəni pətəkdəki 2-3 min işçi arının müəyyən müddət vəzifəsi erkək arıları bəsləməkdir.

Əslində ana arının cütləşməsi üçün ən çox 10 erkək arı bəs edir. Buna baxmayaraq, arı ailəsində yüzlərlə erkək arı yetişir. Pətəkdə görüləcək işlər çox olsa da, işçi arıların bir qismi bütün vaxtlarını ancaq erkək arıların qulluğuna sərf edirlər. Bu, çox vacib vəzifədir. Çünki ana arı cütləşmək üçün uçduqda mütləq erkək arı tapmalıdır. Arıların cırcırama kimi düşmənlərinin olmasını və erkək arıların özünümüdafiə üçün zəhər və ya iynəsinin olmamasını nəzərə alsaq, onların çox



olmasının əhəmiyyətini anlayarıq. Heç bir işə yaramayan erkək arıların işçi arılar tərəfindən xüsusi diqqətlə qorunması pətəyin təhlükəsizliyi baxımından görülmüş vacib tədbirdir. Əlbəttə, bu tədbirin məqsədi var. Burda əsas məqsəd arıların nəslinin davamını təmin etmək və ana arıların cütləşməsini riskə atmamaqdır.

Amma bir sual ortaya çıxır: arılar bu mühüm qərarı necə verirlər? Onlar bu planı birlikdə müəyyən ediblər?

Yoxsa bunu təsadüfən kəşf etmiş və çox mükəmməl strategiya olduğunu görüb həyata keçirməyə qərar veriblər?

Əlbəttə, arılar bunların heç birini özbaşına etmirlər. Arıların qərar vermə mexanizmləri, strategiya müəyyən edib sonra onu həyata keçirmə üçün şüurları yoxdur. Onlar da yer üzündəki bütün canlılar kimi Allaha boyun əyirlər.

## Erkək arıları gözləyən son

Ana arı ilə erkək arı hündür yerdə görüşürlər. Cütləşmə zamanı erkək arının sperma kisəciyi və bütün erkəklik orqanları bədənindən ayrılır. Onlar cütləşmə baş verdiyi an tələf olurlar. Ana arı ilə cütləşə bilməyən digər erkək arılar da çox yaşamırlar. Erkək arılar ancaq yazda və yayın əvvəlində yaşayırlar. Sonra işçi arılar tərəfindən məhv edilirlər. Cütləşmə dövrü başa çatdıqda istilər artır, çiçəklərdəki şirə azalmağa başlayır və işçi arıların erkək arılara münasibəti də dəyişir. İşçi arılar cütləşmə dövründə erkək arıların qayğısına xüsusi diqqət edirlər. Cütləşmə dövrü bitdikdən sonra erkək arıların qanadlarını qoparıb onlara hücum etməyə başlayırlar. Onlar bir şey yemək istədikdə işçi arılar onları qüvvətli çənələri ilə bığcıqlarından və ya ayaqlarından tutub pətəyin bir kənarına sürüyür və çölə atırlar. Pətəkdən qovulan erkək arılar ac qaldıqları üçün çox qısa müddətdə ölürlər, çünki qida axtarmaq qabiliyyətindən məhrumdurlar. Dişi arılar (ana və işçi) erkək arılar pətəkdən çıxarıldığı andan gələn yaya qədər olan müddət ərzində tək qalırlar.



## Arılar Allahın vəhyi ilə hərəkət edirlər

Bir canlının öz təhlükəsizliyini düşünmədən birlikdə yaşadığı qrup üzvlərinin təhlükəsizliyini və rahatlığını təmin etməyə çalışmasının ancaq belə açıqlaması ola bilər: arı pətəyindəki bu nizam üstün ağıl sahibi olan Yaradan tərəfindən müəyyən olunub. Bu Yaradan pətəkdəki arılara ayrı-ayrı vəzifələr verib. Arılara nə edəcəklərini ilham edən uca Yaradıcı Allahdır.

Yer üzündəki bütün canlılar kimi erkək arılar da onları yaradan Allahın əmrinə itaət edərək cütləşmə uçuşuna çıxır və ölsələr də, arı nəslinin davamlılığını qoruyurlar.

Allah arıların digər bütün canlılar kimi Onun vəhyi ilə hərəkət etdiyini ayələrində belə açıqlayır:

**"Rəbbin bal arısına belə vəhy etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik. Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat get! (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!" (Nəhl surəsi, 68-69)**





# ALLAH CANLILARI TƏKAMÜLLƏ YARATMAMIŞDIR

Kainatdakı canlı və cansız bütün varlıqlardakı üstün yaradılış açıq şəkildə ortaya qoyulmasına və bu cür mükəmməl sistemlərin məqsədsiz təbii amillərlə, təsadüflərlə meydana gəlməsinin mümkün olmadığı elmi cəhətdən sübut edilməsinə baxmayaraq, bəzi insanlar bir Yaradanın var olduğunu qəbul edir, ancaq canlıları təkamül prosesi ilə yaratdığını iddia edirlər.

Bütün kainatı və canlıları sonsuz qüdrət sahibi Allahın yaratdığı çox aydındır. Yaradılışın mərhələli və ya birdən-birə olması isə Allahın təqdiridir. Biz bunun nə şəkildə olduğunu, ancaq Allahın bizə bu mövzuda verdiyi məlumatdan (yəni Qurandakı müvafiq ayələrdən) və təbiətdə göstərdiyi elmi dəlillərdən anlaya bilərik.

Bu iki mənbəyə baxdıqda "təkamüllə yaradılış" kimi bir faktın mövcud olmadığını görərik. Quranda insanın, canlıların və kainatın yaradılışı ilə bağlı bir çox ayə var və bu ayələrin heç birində təkamüllə yaradılışa dair heç bir məlumat yoxdur. Yəni canlıların bir-birlərindən törəyərək əmələ gəlməsinə işarə edən heç bir ayə yoxdur. Əksinə, ayələrdə canlıların və kainatın Allahın "Ol!" əmri ilə yoxdan var edildiyi bildirilir.

Elmi faktlar da yenə "təkamül yolu ilə yaradılışın" olmadığını göstərir. Fosillər (daşlaşmış canlı qalıqları) müxtəlif canlı qruplarının bir-birlərindən törəyərək deyil, bir-birlərindən asılı olmadan birdən-birə və özünəməxsus quruluşları ilə meydana gəldiyini göstərir. Yəni hər canlı qrupu bir-birindən fərqli yaradılmışdır.

Əgər "təkamül yolu ilə yaradılış" olsaydı, onun sübutlarına dövrümüzdə rast gələrdik. Allah bütün yaratdıqlarını bir nizama görə səbəblər və qanunlar çərçivəsində yaratmışdır. Məsələn, gəmiləri dənizdə üzdürən, şübhəsiz, Allahdır. Ancaq səbəbini araşdırdıqda suyun səthi gərilmə qüvvəsinin buna səbəb kimi yaradıldığını görərik. Quşların uçması da Allahın qüdrəti ilədir. Belə ki, onun səbəblərini araşdırdıqda aerodinamika qanunları ilə qarşılaşırıq. Beləliklə, əgər canlılar müəyyən bir proseslə mərhələli şəkildə təkamül yolu ilə yaradılsaydılar, mütləq bu keçidləri açıqlayan qanunlar və genetik məlumatın inkişafını təmin edən sistemlər olardı. Habelə bütün fiziki, kimyəvi, bioloji qanunlar kimi onlar da açıq şəkildə məlum olardı. Laboratoriya şəraitində bir canlı növünün digər canlı növünə çevrilməsini göstərən sübutlar tapılardı. Bir canlıda olmayan, ancaq bu canlıya tətbiq edildikdə ona fayda verən sekresiya, hormon və digər molekulların



əmələ gəlməsini təmin edən genetik məlumatın o canlının genetik məlumatına tətbiq edilməsi ilə mümkün olardı. Bununla yanaşı, aparılan təcrübələrlə o canlıda bu günə qədər müəyyən edilməyən yeni bir orqanoid və buna bənzər formalar əmələ gətirilərdi.

Laboratoriya şəraitində mutasiya keçirən və bundan fayda götürən canlılara rast gəlmək olardı. Hətta bu mutasiyaların sonrakı nəsillərə ötürülərək o növün xüsusiyyətinə necə çevrildiyi öyrənilərdi. Daha da irəli getsək, tarixdə yaşamış bu cür ara keçid canlılarının milyardlarla fosil nümunələrinə rast gəlmək olar, dövrümüzdə də inkişafını tamamlamamış keçid canlılar olardı. Qısacası, ətrafımızda bu cür prosesə aid saysız-hesabsız faktlar olardı.

Allah canlıları tamamilə metafizik formada, sadəcə "Ol!" əmrilə yaratmışdır. Canlıların yer üzündə birdən-birə ortaya çıxdıqlarını sübut edən müasir elm isə bu həqiqəti təsdiq edir.

"Allah canlıları təkamül yolu ilə yarada bilər" fikrinin tərəfdarları əslində bununla darvinizm və yaradılış arasında bir "uyğunluq" olduğunu göstərmək istəyirlər. Ancaq böyük səhvə yol verirlər. Darvinizmin təməl məntiqini və hansı fəlsəfəyə xidmət etdiyini nəzərdən qaçırırlar. Darvinizm "canlı növlərinin bir-birinə çevrilməsi" anlayışından ibarət deyil. Darvinizm əsl mənada "canlı növlərinin mənşəyinin sırf maddi səbəblərlə açıqlamaq" cəhdidir. Başqa sözlə desək, canlıların təbiətin məhsulu olduğu iddiasını elm adı altında qəbul etdirmək cəhdidir (Allahı tənzih edirik). Bu cəhdlə Allah inancı arasında hər hansı "ortaq cəhət" ola bilməz. Bu cür ortaq cəhət tapmağa səy göstərərək darvinizmə ciddi yanaşmaq, onun "elmi nəzəriyyə" olduğu iddiasını müdafiə etmək çox böyük səhvdir. Darvinizm 150 illik tarixinin də sübut etdiyi kimi, materialist fəlsəfəni və ateizmi dirçəldən vasitədir və heç bir "ortaq cəhət" tapma axtarışı bu həqiqəti dəyişdirməyəcək.

*Bir növün digərinə çevrildiyini göstərən bir fakt belə yoxdur. Elmi sübutlar və arxeoloji məlumatlar canlı növlərinin birdən-birə, heç bir əcdadı olmadan meydana gəldiyini göstərir. Bu həqiqət canlıların təsadüflər nəticəsində meydana gəldiyini iddia edən təkamül nəzəriyyəsinin əsassız olduğunu göstərməklə yanaşı, Allahın canlıları təkamül yolu ilə yaratdığı iddiasının da elmi cəhətdən səhv olduğunu sübut edir.*



# Allah Dərgahında Heç Bir Anın İtmədiyinin Elmi Sübutu : HİPNOZ

***Hipnoz seansları Allah qatında heç bir anın itmədiyini elmi cəhətdən necə sübut edir?***

***Aparılan hipnoz təcrübələrində hipnoz altında olan insanlar necə reaksiya verir?***

***Hipnoz dünya həyatının hisslərdən ibarət olduğunu anlamağa necə kömək edir?***

Uşaqlıq və gənclik illərində insanın zehni aydın olur. İnsan o illərdə etdiklərinin hamısını əbədiyyən xatırlayacağını zənn edir. Hadisələr, insanlar, baş verənlər onun üçün o qədər vacibdir ki, bunların hamısını anbaan xatırlayacağını, hamısının həyatında mühüm yer tutacağını düşünür. Lakin zaman keçdikcə çox mühüm və aydın olduğunu zənn etdiyi bütün hadisələr getdikcə aydınlığını itirir, hətta yox olur. İllər sonra uşaqlıq və gənclik illərində başına gələnlərin sadəcə bir neçəsi hafizəsində qalır. Halbuki şahid olduğumuz və olmadığımız bütün hadisələr və səslər Allah qatında hər an hazırdır və hər an canlı şəkildə yaşanır. Bunların heç biri əsla itmir. Bu həqiqəti elmi cəhətdən sübut edən təcrübələrdən biri hipnozdur.

## İnsanın yaşadığı heç bir an Allah qatında itmir

Hipnoz haqqında ətraflı məlumat verməzdən əvvəl bildirməliyik ki, Allah istəsə, dünyada da bütün hadisələri mühafizə edə bilər. Rəbbimiz Baqidir (davam edən, fani olmayan).

Allahın qədərdə yaratdığı bütün hadisələr də Rəbbimizin dərgahında əbədiyyən mövcuddur. Allah istədiyi təqdirdə bu dünyada da hadisələri mühafizə edə bildiyini müxtəlif səbəblərlə insanlara göstərir. CD-yə qeyd etdiyimiz ad günü yığıncağı illər keçsə də, insanlar yaşlanıb ölsə də, nəsillər dəyişsə də, o CD-də qalar. O CD-yə nə vaxt baxsaq, eyni ad günü yığıncağı yenə eyni detalları ilə qarşımıza çıxar. O görüntünün içindəki insanların hamısı danışır, yeriyir, əylənir, hərəkət edir. Hamısı bu günkü kimi canlıdırlar. Eyni görüntünü nə vaxt seyr etsək, yenə eyni şeyləri edəcəklər. Bu, Allahın istədiyi təqdirdə hər hansı səbəblə baş vermiş bir hadisəni əbədiyyən bu dünyada da saxlayacağına dəlildir. Allah istəsə, o anlar bizim hafizəmizdə daima mövcud olar.



Bunların hamısı Allahın dərgahında mövcuddur və şübhəsiz, bunları bizim zehnimizdə yaratmaq Allah üçün çox asandır.

Allah aciz yaradılmış insana da hadisələri mühafizə etmək qabiliyyəti vermişdir, istədiyi vaxt istədiyi anı, istədiyi insanları kamerada, CD-də saxlamağa qadirdir. O görüntülərə hər dəfə tamaşa etdikdə eyni hadisəni yenidən yaratmağa gücü çatır. Elə isə baş vermiş hadisələrin itib getdiyini iddia etmək böyük səhvdir. Bunu iddia etmək yoxluq deməkdir. Aydındır ki, belə bir şey mümkün deyil. Bu göstərir ki, Allahın gücü və qüdrəti dərk edilmir. Bu qədər təfərrüatı yaradan, insanın zehnində və ya bir CD-də keçmiş hadisələrin hamısını eynilə meydana gətirən Rəbbimiz, şübhəsiz ki, bütün detalları sonsuz hafizəsində əbədiyyən yaradıb hifz etməyə qadirdir. Hadisələr insanın məhdud hafizəsində yox olub gedir, amma sonsuz ağıl sahibi Allahın qatında əbədiyyən qalır. Rəbbimiz bir ayədə belə buyurur:

**Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah sayıb yazmış, onlar isə unutmuşlar. Allah hər bir şeyə şahiddir! (Mücadilə surəsi, 6)**

Burada bir şeyi xatırlatmalıyıq: məqalə boyu "Allahın hafizəsi" ifadəsi mövzunun başa düşülməsi üçün işlədilir. Yoxsa, əlbəttə, Allah sonsuz bilik sahibidir, hər cür nöqsandan uzaqdır. Allah sonsuzdur və Onun yaratdığı məlumatlar da Allahın dərgahında əbədi olaraq qalacaq.

## Hipnoz seansları baş vermiş hadisələrin yox olmadığının sübutudur

Hipnoz seansları insanın başına gələn hadisələrin yox olmadığına dəlildir. İnsanlar hipnoz zamanı heç cür xatırlamadıqları, hətta praktiki cəhətdən xatırlanması mümkün olmayan, 3-4 yaşında başlarına gələn hadisələri bütün detal və hissələri ilə eyni şəkildə xatırlayırlar. Əslində hadisəni xatırlamaqdan çox bütün detalları ilə yaşayırlar. Bir insanın yox olduğuna inandığı bir anı aydın şəkildə eynilə təkrarən yaşaması əslində bütün baş verənlərin əbədiyyən mövcud olduğuna dair mühüm dəlildir. Bu, eyni zamanda Allahın dərgahında bütün məlumatların mövcud olduğunu və Allahın istədiyi təqdirdə bunları bizim hafizəmizə verəcəyini göstərir.

## Hipnoz nədir?

Hipnoz təlqinə meyilli, bir növ süni yuxu və ya yuxu-ayıqlıq arası vəziyyətdir (Hipnoz, Wikipedia). Təbii yuxu halı olmadığı kimi, ayıqlıq halı da deyil. Ancaq hər iki halı da ehtiva edən kompleks anlayışdır. Tədqiqatlar hipnoz anı ilə təbii yuxu vəziyyətinin tamamilə fərqli hallar olduğunu göstərmişdir.

Hipnoz zamanı hipnoz edilən insana ardıcıl təlqinlər verilir və bu insana əslindən ayırd



edilməyəcək qədər inandırıcı bir sıra hadisələr yaşadılır. Eyni şəkildə müxtəlif metodlarla hipnoz altındakı insanın daha əvvəl yaşadığı anları 20-30 il keçsə də, yenidən eynilə yaşaması, o an baş vermiş hadisələri bütün detalları ilə xatırlaması təmin olunur. Heç bir maddi mühit olmasa da, insan yaşadıqlarını film lenti kimi beynində canlandırır. Hətta bəzi insanlar əvvəllər oxuduqları kitabın səhifələrini kəlmə-kəlmə deyirlər.

## Hipnoz zamanı baş verən fiziki dəyişikliklər

Adətən yuxuda olarkən beyin dalğaları yavaşlayır. Ancaq hipnoz altındakı insanın beyin fəaliyyətlərinin ayıq haldakına bərabər olduğu müşahidə edilmişdir.

Hipnoz zamanı hafizənin normal vəziyyətdəkinə nisbətən daha çox gücləndiyi və normal zamanlarda xatırlanması mümkün olmayan keçmişə dair məlumatların təfərrüatı ilə aydınlandığı tədqiqatçılar tərəfindən müəyyən edilmişdir.

Hipnoz zamanı şüursuz vəziyyətdə ikən qeyri-mümkün olan ruhi və fiziki fəaliyyətlər göstərilir. Hipnoz altındakı şəxs əzələlərinin və orqanlarının gücündən artıq hərəkətlər edir.

Həmin şəxs olduğu otaqda olmayan görüntüləri, insanları və ya mənzərəni görür, səsləri eşidir, qoxuları və dadları hiss edir. Bu əsnada baş verən hadisələrə sevinir, kədərlənir, həyəcanlanır, sıxılır, narahat olur. Hətta hipnoz altında olan insanın yaşadığı hadisələr kənardan fiziki cəhətdən də müşahidə olunur: verilən təlqindən asılı olaraq insanda nəbz artır, təzyiq yüksəlir, dəridə qızartı əmələ gəlir. ( Dr. Muhterem Ercan, Hipnoz ve hipnoterapi, Seha Neşriyat, İstanbul 1993, s. 32-34; William Kroger, Clinical and experimental hypnosis)

## Hipnoz seanslarında baş verənlər

Bəzi təcrübələrdə hipnoz edilən insanlar təlqinlə keçmişə aparılır. Geriyə getmə (regression) adlandırılan bu xronoloji xatırlama tezisini ilk dəfə dr. Pitres kəşf etmişdir. Dr. Pitresin 17 yaşlı xəstəsinə tətbiq etdiyi hipnoz maraqlı şəkildə nəticələnmişdir. Gənc qızın hipnoz altında 12 il geriyə aparılıb 5 yaşına gəldikdə o dövrdə olduğu kimi, fransız dilini unudub qaskon dilində danışdığı müşahidə edilmişdir. Hipnoz altındakı şəxs o yaşda fransız dilini hələ öyrənmədiyi üçün fransız dilindəki sualları anlamamış və cavab verə bilməmişdir.

Hipnoz təcrübəsində bir şəxsə xəstəxanada olduğu deyilmiş, bu xəstəxananın 10-cu mərtəbəsində ölmək üzrə olan xəstə yatdığı və onun əlindəki dərmanı sürətlə çatdırarsa, xəstənin ölümdən xilas olacağı təlqin edilmişdir. Bu insan hipnoz əsnasındakı təlqinin təsiri ilə çox sürətlə 10 mərtəbəni qalxmağa başladığını zənn etmiş, çox yorulduğu üçün təngnəfəs olmuşdur. Bu zaman



ona artıq ən yuxarı mərtəbəyə çatdığı və dərmanı çatdırdığı deyilmiş, rahat çarpayıya uzanması təlqin edilmişdir. Beləliklə, hipnoz edilən şəxs rahatlaşmışdır. Hipnoz edilən insan ona təlqin edilən məkanı və mühiti real şəkildə yaşadığına baxmayaraq, ortada nə bəhs edildiyi kimi məkan, nə insanlar, nə də hadisələr vardı.

Başqa bir təcrübədə normal otaqda olan insana çox isti hamamda olduğu təlqin edilmiş, bu zaman həmin insan həddindən artıq tərləməyə başlamışdır. (Dr. Tahir Özakkaş, Gerçeğin dirilişine kapı hipnoz, "Üst ultrastabilite", s. 267)

Milli Hipnoterapiya Cəmiyyəti, Milli Psixoterapistlər Cəmiyyəti, Peşəkar Hipnoterapistlər Mərkəzi, Hipnoterapiya Tədqiqat Cəmiyyəti kimi bir çox qurumun üzvü olan ingilis hipnoterapiya mütəxəssisi Terens Uats (Terrence Watts) bir məqaləsində hipnoz əsnasında keçmişdəki bir hadisəni xatırlayaraq danışan insanlarda danışdıqları hadisə ilə əlaqədar bəzi fiziki dəyişikliklər müşahidə edildiyini bildirir. Uats hipnoz altında olarkən kiçik yaşında döyüldüyü hadisəni danışan insanın üzündə şillə izlərinin əmələ gəldiyini bildirir. Habelə Uats bədənin ağrı hissinə reaksiya verdiyini söyləyir. (Terrence Watts, Abreaction, The psychological phenomena that hypnotherapists either love or hate)

Hipnoz təcrübələrində ən təəccüblü nümunələrdən biri də hipnoz edilən insanın dərisində təlqin nəticəsində yaraların əmələ gəlməsidir. Məsələn, Pol Torsen adlı tədqiqatçı hipnoz altındakı insanın qoluna qələmin ucunu toxundurmuş, bunun qızmar şiş olduğunu təlqin etmişdir. Qısa müddətdən sonra qələmin ucunun toxunduğu yerdə yanıq qabarcığı meydana gəlmişdir. Həmin tədqiqatçı Anne O. adlı insana hipnoz əsnasında qolunun “A” hərfi formasında cızıldığını təlqin etmişdir. Başqa heç bir şey edilmədiyi halda, o yerdə “A” hərfi formasında qızartı əmələ gəlmişdir. (Dr. Recep Doksat, Hipnotizma, Kader Basımevi, İstanbul, 1962, s. 106-108)
Hipnoz dünya həyatının əsli ilə təmasda olmadığımıza açıq dəlildir.

## Hipnoz əsnasında insan bədənində meydana gələn dəyişikliklər

İnsanın keçmişdəki bir günə gedib normal halda əsla mümkün olmayan hadisələri xatırlaması, insanları görməsi və hadisələri yenidən yaşaması, görmə, eşitmə, toxunma, ağrı kimi hisslərimizin əmələ gəlməsi üçün xarici aləmə ehtiyacımızın olmadığını göstərir. Yuxarıda bildirdiyimiz kimi, verilən təlqin nəticəsində soyuq



mühitdə tərləməyə başlayan insan buna dəlildir. İnsan bədənində tərləmənin baş verməsi üçün müəyyən amillər meydana gəlməlidir. Hipnoz hadisəsində isə bu faktla qarşılaşırıq:

Hipnoz edilən insan xarici aləmdə tərləməyə səbəb olan heç bir amil olmadığı halda tərləyir. Bu nümunə açıq şəkildə göstərir ki, bir məkanda olmaq və ya bir mühiti hiss etmək üçün o mühitin və ya məkanın fiziki varlığını görmək şərt deyil. Süni siqnallar və ya təlqin yolu ilə bənzər təsirlərin əmələ gətirilməsi mümkündür.

Bəzi insanlar ömrü boyu bədənlərindən kənardakı dünyada yaşadıqlarını zənn edirlər. Halbuki dünya adlandırdığımız hər şey beynimizin qavrama mərkəzlərinə çatan siqnalların şərh edilməsindən ibarətdir. Yəni biz beynimizin içində əmələ gələn dünyadan başqa dünya ilə heç vaxt təmasda olmuruq. Ona görə də maddənin xarici aləmdəki əslini görə bilmərik. Bu gün bu mövzu elmi kitablarda verilən və tədris edilən qəti həqiqətdir.

Xarici aləmlə bağlı bizə hiss etdirilənlər Allahın bizə verdiyi qavrayışlardan ibarət hisslərdir. Allah duyğu orqanlarımıza hakimdir və nəyi istəsə, onu bizə hiss etdirir. Elmin yeganə sahibi olan Allah bu həqiqəti Quranda Özünün qulaqlara və gözlərə malik olduğunu xəbər verərək bildirmişdir:

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs qorxmursunuz?" (Yunus surəsi, 31)**

## İnsanın başına gələn bütün hadisələr axirətdə mütləq qarşısına çıxacaq

Məqalədə verilən bütün nümunələrdən məlum olduğu kimi, hipnoz hadisələrin Allahın sonsuz hafizəsində canlı şəkildə eynilə qorunduğunun və Allahın istəyi ilə bizə yenidən, eyni şəkildə yaşadılacağının elmi dəlilidir. Bu praktiki və qəti həqiqəti görən hər insan yaşadıqlarının sonsuzluqda mövcud olmasının hikmətinin olduğunu, bütün etdiklərinə görə mütləq Allah qatında sorğu-sual olunacağını anlayar. Görər ki, dünya həyatında yaşanan heç bir hadisə məqsədsiz deyil, hamısı Allahın yaratdığı xüsusi imtahana daxildir və insan bütün bunlarla sınanır. Yəni insan axirət üçün hazırlanır. Ona görə də əbədi həyatı olan axirət üçün hazırlıq görməli, cənnətə layiq olmaq üçün din əxlaqına uyğun yaşamalıdır.

Allahın baş verənləri sonsuz hafizəsində mühafizə etdiyini dərk etməyən insanlar axirətdə dünyada ikən etdikləri hər şeyə görə sorğu-sual olunacaqlarını anladıqda çox qorxacaqlar. Bu həqiqəti təqdir etmədiklərinə, Rəbbimizin böyüklüyünü və ucalığını qavramadıqlarına görə, bütün etdiklərini qarşılarında gördükdə artıq gec olduğunu anlayacaqlar. O an heç ümid etmədikləri əbədi həyat onlar üçün başlayacaq və iman gətirməyənlər əbədi qalacaqları cəhənnəmə göndəriləcəklər. Allah bir ayədə belə bildirir:

**Əməl dəftəri qarşısına qoyulacaq. Günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O Bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan**



**hamısını sayıb yazmışdır ki!" Onlar etdikləri bütün əməllərin hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf surəsi, 49)**

Hipermneziya hafizənin hipnoz əsnasında yerinə qayıtmasıdır. Həyatınızda baş verən hər şey hafizədə qeyd edilir. Ancaq hafizə bunlardan çox yaxın tarixdə olanları və ya avtomobil sürmək kimi daima təkrarlanan məlumatları şüura gətirir. Hipermneziya ilə şüuraltındakı hafizə də üzə çıxır. Bu sayədə unutduğunuz hadisələri və insanları xatırlayırsınız. (More hypnosis theory)

## Biz hadisələrin müəyyən zaman daxilində baş verdiyini zənn edirik

İnsan Allahın təqdiri olaraq zamandan asılı olaraq yaradılmış varlıqdır. Lakin zamanı və məkanı yaradan Rəbbimiz zaman və məkandan uzaqdır, müstəqildir. Ona görə, Allah qatında bizim üçün müəyyən edilmiş qədər ancaq bir andan ibarətdir. Bizim həyatımız, dünyanın yaradıldığı andan məhv olacağı ana qədər keçən müddət bir an daxilində olub bitmişdir. Allahın qatında bunların hamısı yaradılmış və nəticələnmişdir. Ancaq biz bütün bunları müəyyən zaman anlayışı çərçivəsində seyr edirik. Bizim: "Baş verdi, qurtardı", - deyə düşündüyümüz, unudub varlığını belə xatırlamadığımız hadisələr bizim üçün yaradılmış qədər daxilində əslində hal-hazırda baş verir və Allah qatında əbədiyyən var olur. Bizim bunları keçmişdə yaşadığımıza dair aldığımız hiss yanıldıcıdır. Keçmişdə baş vermiş o hadisə Allah qatında hal-hazırda da davam edir. Keçmiş ancaq bizə verilmiş hissdən ibarətdir.

İnsan keçmişinə dair ancaq müəyyən şeyləri xatırlayacaq şəkildə yaradılmışdır. Yaşadığı ilk 3-4 il isə hafizəsində deyil. Lakin bunların hər anı Rəbbimizin qatında mövcuddur. Allah istəsə, bütün bunları insanın özünə də xatırladar, hafizəsində hamısını yaradar. Lakin dünyadakı imtahanın tələbinə uyğun olaraq belə şey olmur. Şübhəsiz, bunun çox böyük hikmətləri var. İnsanın başına gələnlərin ancaq az bir hissəsini xatırlaması Allah qarşısındakı acizliyini göstərir. Allah hər şeyi bilir, o isə bilmir. Sonsuz bilik və ağıl sahibi olan Rəbbimizin qatında etdiyimiz, danışdığımız, düşündüyümüz, başımıza gələn hər şey bütün təfərrüatı ilə mövcuddur.

## Bütün hadisələr "Lövhi-məhfuz" adlı kitabda saxlanılır

Allah bizim üçün keçmiş və gələcək bütün hadisə və varlıqları bir an daxilində yaratmışdır. Quranda bütün insanların və varlıqların qədərinin Rəbbimizin dərgahında, Lövhi-məhfuzda, yəni "Əsas kitabda" saxlandığı belə bildirilir:

**Göylərdə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Kitabda (lövhi-məhfuzda) olmasın! (Nəml surəsi, 75)**

# Quranda Möminlər 2

***Hər şeyin Allahdan olduğunu bilirlər.***

De: “Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Buna görə də möminlər yalnız Allaha təvəkkül etsinlər!” (Tövbə Surəsi,51)

De: “Allahın istədiyindən başqa, mən özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Hər ümmətin bir əcəl vaxtı vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə nə geri qalar, nə də irəli keçərlər”. (Yunus Surəsi, 49)

Aləmlərin Rəbbi olan Allah istəməsə, siz istəyə bilməzsiniz! (Təkvir Surəsi,29)

Və heç bir şey barəsində: “Mən onu sabah edəcəyəm!” – demə! Ancaq: “İnşallah (əgər Allah istəsə; Allah qoysa) deyəcəyəm!” – de. Unutduğun zaman Rəbbinin yada salıb: “Ola bilsin ki, Rəbbim məni bundan haqqa daha yaxın olan bir yola yönəltsin” – de. (Kəhf Surəsi, 23-24)

Allahın izni olmadıqca (heç kəsə) heç bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, (Allah) onun qəlbini haqqa doğru yönəldər. Allah hər şeyi biləndir! (Təğabun Surəsi, 11)

Onları siz öldürmədiniz, Allah öldürdü. Atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir! (Ənfal surəsi, 17)

Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır! (Hədid Surəsi, 22)



# Faydalana Biləcəyiniz Əsərlər




www.harunyahya.az
www.harunyahya.org
www.globalkitab.com
www.harunyehyakitablari.com